www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 15 mart 2019-cu il Cümə № 59 (7229) Qiymәti 60 qəpik

**Xəbər**

## Gömrükdə şok əməliyyat: 10 milyonluq narkotik tutuldu

yazısı səh.3-də

**Gündəm**

### VII Qlobal Bakı Forumu başladı - prezidentin dünyaya mesajları




5 prezident, 1 baş nazir, 2 baş nazirin müavini və 42 sabiq dövlət başçısının iştirak etdiyi forumda prezident İlham Əliyev Azərbaycanın dünya siyasətində yerindən, enerji layihələrindən və Qarabağ münaqişənin həlli yollarından danışdı

yazısı səh.5-də

### Orqan köçürülməsi ilə bağlı qalmaqal yaradan qanun - təfərrüat

yazısı səh.13-də

### Eldar Əzizovun "Sovetski"də xüsusi planı - kompensasiya müjdəsi

yazısı səh.10-da

### Gözlənilən Qarabağ danışıqları: Bakının masada mövqeyi daha güclüdür

yazısı səh.6-da

### Ermənilərdən Gürcüstan prezidentinə qarşı təxribat

yazısı səh.8-də

### Yeddi günlük bayram: iqtisadiyyat hansı itkilərə məruz qalır?

yazısı səh.4-də

### ABŞ Dövlət Departamentinin Azərbaycanla bağlı sərt hesabatına Bakıdan reaksiya

yazısı səh.3-də

### Dönəri zəhərə döndərən səbəb - Bakıda 7 tələbə niyə ölümlə üz-üzə qaldı?

yazısı səh.13-də

### Qarabağ Komitəsindən mitinqlə bağlı yeni qərar

yazısı səh.3-də

### Ərdoğan və Netanyahu yenidən üz-üzə

yazısı səh.12-də

# "AZƏRBAYCAN İŞĞALÇININ İŞİNİ 3 GÜNƏ BİTİRƏ BİLƏR" - MOSKVADAN ERMƏNİLƏRƏ SİQNAL, BAKIDAN MESAJ

Torpaqlarımızı işğaldan azad etməyin zamanı yetişib; danışıqlar xətrinə danışıq dövrü bitir; "Hərb, yoxsa sülh" dilemmasını çözə bilməyən İrəvana son ismarışlar...




yazısı səh.9-da

# Bu gün problemli kreditlərlə bağlı qaydalar açıqlanacaq

## Banklar faiz və dəbbə pulunu nə zaman siləcəklər?

yazısı səh.4-də



*Maksim Musayev:*

### "O adam gətirib stolumun üstünə 1 milyon dollar qoydu"

yazısı səh.7-də



### Ziya Məmmədovun "pul yeyən mirası" - intellektual idarəetmə...

yazısı səh.10-da



### Rusiyadan anti-Azərbaycan mövqeyi - Lavrovun özfəaliyyəti, yoxsa...

yazısı səh.6-da



# İlham Əliyev Moldova və Albaniya prezidentləri ilə görüşüb

**Azərbaycan prezidenti İlham Əliyev martın 14-də Moldova prezidenti İqor Dodonla görüşüb. Prezident İlham Əliyev VII Bakı Qlobal Forumunda iştirak etdiyinə görə Moldova prezidenti İqor Dodona təşəkkürünü bildirib. Dövlət başçısı deyib ki, VII Qlobal Bakı Forumu beynəlxalq və regional məsələlərin müzakirəsi baxımından çox mühüm və önəmli bir platformadır. Eyni zamanda bu forum bizə ikitərəfli əlaqələrimizin inkişaf perspektivlərini müzakirə etmək üçün imkan yaradır. Prezident İlham Əliyev Moldova prezidentini seçkilərdə əldə etdiyi qələbə münasibətilə təbrik edib.**

Moldova prezidenti İqor Dodon VII Qlobal Bakı Forumunun yüksək səviyyədə təşkilinə görə Azərbaycan prezidentinə təşəkkür edib. Bildirib ki, bu forum beynəlxalq və regional məsələlərin müzakirəsi baxımından vacib platformadır.

Görüşdə müxtəlif sahələr üzrə ikitərəfli əlaqələrin inkişafına dair fikir mübadiləsi aparılıb. Həmçinin hökumətlərarası müştərək komissiyanın ölkələrimiz arasında iqtisadi, ticarət əlaqələrinin inkişafı baxımından vacib əhəmiyyəti vurğulanıb. Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq etdiyi və bir-birinə dəstək göstərdiyi qeyd olunub.

Martın 14-də İlham Əliyev VII Qlobal Bakı Forumunda iştirak edən Albaniya prezidenti İlir Meta ilə də görüşüb.

# "Yeni Müsavat" neçə gün işləməyəcək?

**Azərbaycanda ən çox qeyri-iş günü məhz mart ayına təsadüf edir. Belə ki, Novruz bayramı ilə əlaqədar 20, 21, 22, 23, 24 mart qeyri-iş günləri olacaq. Bu il bayram günü hesab edilən 23 və 24 mart həftələrarası istirahət günləri ilə üst-üstə düşdüyündən 25, 26 mart da qeyri-iş günü hesab ediləcək.**

Beləliklə, Novruz bayramı günlərində 20-26 mart tarixləri qeyri-iş günləri olacaq. İş günü 27 martdan hesablanacaq. Mətbuatın bayram günü neçə gün tətil edəcəyinə gəlincə, "Yeni Müsavat" Media Qrupunun direktoru Ələsgər Süleymanov bildirdi ki, qəzetin bayramdan öncəki sonuncu sayı martın 20-də çapdan çıxacaq. Martın 27-də iş başladığından, "Yeni Müsavat" qəzeti bayramdan sonra martın 28-də oxucularla görüşə gələcək.

**❑ Nərgiz**
**"Yeni Müsavat"**


## Abunə daha sərfəlidir - "Yeni Müsavat" abunə kampaniyasını davam etdirir




"Yeni Müsavat" qəzeti oxucularına bəyan edir ki, abunə yazılmaqla qəzeti daha sərfəli qiymətlərlə əldə edə bilərlər.

Köşklərdən alınan qəzetin bir nüsxəsi 60 qəpikdir. Abunə ilə qəzetin bir nüsxəsi isə sizə daha ucuz - **48 qəpiyə** başa gələcək.

**Aylıq abunə - 12 AZN**
**3 aylıq - 36 AZN**
**6 aylıq - 72 AZN**

Abunə yazılmaq üçün yaşadığınız ərazidə istənilən poçt şöbəsinə müraciət edə bilərsiniz.

Eyni zamanda Poçt Daşıma Mərkəzinin baş ofisi ilə: **(012) 598-49-55** nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.

Bundan başqa "Qaya" Mətbuat Yayımı ilə də abunə yazıla bilərsiniz.

**Əlaqə üçün telefon: 012-565-67-13, 012-564-48-96**


# Moskvada MDB ölkələri arasında təhlükəsizlik məsələləri müzakirə olundu

**Martın 14-də Moskva şəhərində Rusiya Federasiyası müdafiə nazirinin birinci müavini, Baş Qərargah rəisi Valeri Gerasimovun sədrliyi ilə MDB ölkələri Silahlı Qüvvələrin Qərargah Rəisləri Komitəsinin iclası başlayıb.**



"Report" bildirir ki, MDB ölkələrinin təhlükəsizliyinə təhdidlərin, beynəlxalq terrorçuluğa qarşı mübarizə məsələlərinin müzakirə olunduğu iclasda Rusiyanın Baş Qərargah rəisi V.Gerasimov çıxışında hərbi əməkdaşlıq çərçivəsində hava müdafiəsi, dronlardan istifadə, mühəndislik təminatı, kadr hazırlığı kimi sahələrdə nailiyyətlər əldə etdiklərini bildirib.

İclasda iştirakçı ölkələr arasında 2025-ci ilədək hərbi əməkdaşlığın inkişafına dair konsepsiyanın müddəaları, pilotsuz aviasiyanın tətbiqi və belə vasitələrə qarşı tədbirlərlə bağlı əməkdaşlığın əsas istiqamətləri təsdiq olunub.

Həmçinin 2020-ci il üçün müştərək tədbirlər planı razılaşdırılıb.

Tədbirə Belarus, Ermənistan, Qazaxıstan, Qırğız Respublikası, Rusiya Federasiyası, Özbəkistan, Tacikistan və Azərbaycan təmsilçiləri qatılıblar.

Virtualaz.org xatırladır ki, iclasda Azərbaycanı müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkov təmsil edib.




# Azərbaycanın xarici dövlət borcu açıqlandı

**Maliyyə Nazirliyi Azərbaycan Respublikasının xarici dövlət borcunun məbləğini açıqlayaıb.**

Modern.az nazirliyin mətbuat xidmətinə istinadən xəbər verir ki, 01 yanvar 2019-cu il tarixinə Azərbaycan Respublikasının xarici dövlət borcu 8,927.1 milyon ABŞ dolları (15,176.0 milyon manat), xarici dövlət borcunun Ümumi Daxili Məhsula (ÜDM) olan nisbəti 19.0 faiz (2018-ci il üçün hesablanmış 79,797.30 milyon manat ÜDM-ə nisbətdə) təşkil edib.

Borca hökumətin birbaşa öhdəlikləri və dövlət zəmanəti ilə cəlb edilmiş kreditlər üzrə şərti öhdəliklər daxil edilib.

Xarici dövlət borcu beynəlxalq maliyyə institutlarından infrastruktur layihələri və maliyyələşmə proqramları üçün cəlb edilmiş kreditlərdən, həmçinin beynəlxalq maliyyə bazarlarında yerləşdirilmiş qiymətli kağızlardan ibarətdir.

# Şamaxıda zəlzələ oldu

**Şamaxıda zəlzələ olub. Respublika Seysmoloji Xidmət Mərkəzindən verilən məlumata görə, zəlzələ martın 14-də yerli vaxtla saat 13:36-da qeydə alınıb.**

Yeraltı təkanların maqnitudası 3, dərinliyi 10 km olub.

Zəlzələ Şamaxı və Pirquluda 3 bala qədər hiss olunub.




# Həbsdə olan Fədayə Laçının fotosu yayılıb

**Həbsdə olan müğənni Fədayə Laçının fotosu yayılıb. Hazırda Bakı Apelyasiya Məhkəməsində cinayət işi araşdırılan müğənninin məhkəmə zalında çəkilmiş fotosunu ONA əldə edib.**

Qeyd edək ki, F. Laçın xüsusi təyinatlı vaqondan məhbusların qaçmasında təqsirləndirilir. Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə F. Laçın 5 il müddətinə azadlıqdan məhrum olunub.

Hökmdən narazı qalan müğənni Bakı Apelyasiya Məhkəməsinə müraciət edib.

Hazırda F. Laçın və onunla birlikdə həbs olunan digər şəxslərin apelyasiya şikayətinə baxılır.

# Bakıda idman gimnastikası üzrə Dünya Kuboku turniri keçirilir

**Bakıda kişi və qadın idman gimnastikası üzrə Beynəlxalq Gimnastika Federasiyasının (FIG) dünya kuboku yarışları başlayıb. Milli Gimnastika Arenasında keçirilən turnir "Tokio 2020" Yay Olimpiya Oyunlarında iştirak etmək istəyən idmançılar üçün mühüm əhəmiyyət daşıyır.**

Olimpiadaya təsnifat xarakterli bu yarışda iştirak etmək üçün 41 ölkə qeydiyyatdan keçib. Medallar və lisenziya xalları uğrunda mübarizəyə 121 kişi və 49 qadın idman gimnastı qoşulub. Turnirə Olimpiya Oyunlarının, dünya və Avropa çempionatının medalçıları qatılıblar.

Dördgünlük yarışların ilk iki günündə təsnifat, sonrakı iki gündə final mərhələləri keçiriləcək.

Dünya kuboku yarışlarında ölkəmizi Murad Ağarzayev, İvan Tixonov, Nikita Simonov və Marina Nekrasova təmsil edəcəklər.

Turnirdə ən yüksək icra xalını toplamış gimnastlara Azərbaycan Gimnastika Federasiyasının ənənəvi kuboku - "AGF Trophy" təqdim olunacaq.

Turnirə martın 17-də yekun vurulacaq.

# "Azərbaycan müharibədə qalib gəlsə belə..."

## Erməni analitiklər irimiqyaslı müharibəyə ehtimal vermirlər

**"Azərbaycan Dağlıq Qarabağda irimiqyaslı müharibəyə getməz. Lakin münaqişə zonasında lokal konfrontasiyaların baş verməsi mümkündür".**

Musavat.com erməni mətbuatına istinadən xəbər verir ki, yerli siyasi ekspertlərin Azərbaycanın keçirdiyi hərbi təlimlərlə bağlı ümumi rəyi belədir.

"Yeni müdafiə sifarişi. Strategiyalar" jurnalının şef-redaktoru Leonid Nersesyan Azərbaycanın hərbi həmlələrinin Ermənistanın danışıqlar prosesində mövqeyini dəyişdirməyəcəyini iddia edib. "Təlimlərin hücum xarakteri daşıması yeni xəbər deyil və hansı hərbi birləşmələrin cəlb olunduğu da aydın görünür. Onların əsas vəzifəsi Qarabağda müdafiə xəttini yarmaqdan ibarətdir", - deyə erməni politoloq deyib.

Onun sözlərinə görə, böyük savaşın baş vermə ehtimalı az olsa da, 2016-cı ilin aprelində olduğu kimi, lokal döyüş əməliyyatları hər zaman törəyə bilər.

Leonid Nersesyanın fikrincə, Ermənistan buna görə yüksək tempdə silah almağa və silahlı qüvvələrinin imkanlarını genişləndirməyə məcburdur.

"Razm.info" hərbi-analitik portalının yazarı Ayk Xaçikyan da hərbi təlimlərlə iki ölkə liderləri arasında keçirilməsi planlanan görüşlə bağlantı qurmağın doğru olmadığını bildirib. O, Azərbaycanın hər zaman eyni mövsümdə bu cür manevrlər həyata keçirdiyini vurğulayıb. Xaçikyan bu dəfə Azərbaycan ordusunun "Polonez" tipli rekativ yaylım atəş sistemlərinin, həmçinin İsraildən alınan "Lora" tipli operativ taktiki raket sistemlərini sınaqdan keçirdiyinə, habelə 500-dən çox zirehli texnikanın cəlb olunmasına diqqət çəkib.

Milli və strateji araşdırmalar mərkəzinin direktoru Manvel Sərkisyan isə Azərbaycanın irimiqyaslı müharibəyə gedib burada yeni aldığı silahları tətbiq edəcəyinə şübhə ilə yanaşıb. Çünki onun fikrincə, tanklar və artilleriya ilə yürüdülən siyasi münaqişələrin nəticələri Şimali Qafqaza da sçıraya bilər.

Stepan Səfəryan isə Azərbaycanın uzunmüddətli savaş üçün resurslarının olmadığını iddia edib. "Hətta Azərbaycan müharibədə qalib gəlsə belə, elə dağıntılarla üzləşə bilər ki, bunu qələbə adlandırmaq mümkün olmayacaq", - deyə S. Səfəryan bildirib.

Onun fikrincə, rəsmi Bakı apreldə olduğu kimi qəfildən hücum şansını əldən buraxıb.

Qafqaz institutunun direktoru Aleksandr İsgəndəryan da irimiqyaslı müharibənin olmayacağı barədə deyilən fikirlərlə razılaşıb. Lakin o da kiçik toqquşmalaırn başvermə perspektivini istisna etmədiyini söyləyib.

Yeni Müsavat
N 59 (7229) 15 mart 2019

# ABŞ Dövlət Departamentinin Azərbaycanla bağlı sərt hesabatına Bakıdan reaksiya

## Fəzail Ağamalı: "Hesabat anti-Azərbaycan və onun içərisində yer alan antimilli qüvvələrin yalan dosyeləri əsasında hazırlanır"

**ABŞ Dövlət Departamentinin 2018-ci ildə dünya ölkələrinin insan haqlarına və fundamental azadlıqlara münasibətini dəyərləndirən hesabatı açıqlanıb. Azərbaycana aid olan 40 səhifəlik hesabat kifayət qədər sərtdir.**




Bildirilir ki, Azərbaycanda həbs edilən şəxslərə işgəncələr verilir. Cinayət törətməyən şəxslərin boynuna cinayəti yükləmək və ya əlavə cinayət maddələri tətbiq etmək üçün işgəncələrdən istifadə edildiyi qeyd olunur. Dəyənəklə ayaqların altına vurulması və bədənə elektrik şoklarının verilməsi kimi işgəncə metodlarının olduğu vurğulanır.

Hesabat Azərbaycanda kifayət qədər sərt qarşılanıb. Bir müsbət faktın belə yer almadığı 40 səhifəlik hesabatın qərəzli hazırlandığı bildirilir.

**Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı hesabata sərt reaksiya nümayiş etdirdi:** "Təəssüf edirəm ki, Amerika kimi nüfuzlu bir ölkənin Dövlət Departamenti Azərbaycana qarşı hesabatlarda ifadə etmiş olduğu və həqiqəti əks etdirməyən qərəzli münasibətini davam etdirməkdədir. Bu hesabat ölkəmizdə gedən prosesləri olduğu kimi əks etdirmir. Əksinə, çox ciddi qərəz var. Burada Azərbaycanın demokratik inkişaf yoluna sədaqətinə atılan böhtan var. Mənə elə gəlir ki, həmişə olduğu kimi, bu hesabatda da "erməni barmağı" var. Erməni diasporasının maliyyəsi əsasında bir çox ölkələrdə, o cümlədən Amerikada, onun dövlət strukturlarında erməni lobbisi fəaliyyət göstərir, onların təsiri altında bu cür hesabatlar yazılır, dövriyyəyə buraxılır. Azərbaycan demokratik inkişaf yoluna sədaqətini nümayiş etdirməkdədir. Demokratik dəyərlərin ölkəmizdə tətbiq olunması üçün istər prezident, istər qanunlarımızın qəbulu baxımından Milli Məclis, istərsə də ayrı-ayrı qurumlar çərçivəsində görülən işlər göz qabağındadır. Bu gün Azərbaycan azad ölkələrdən biridir. Ölkəmizdə söz və mətbuat azadlığı, sərbəst toplaşmaq hüququ var. Siyasi mövqeyindən asılı olmayaraq istənilən vətəndaşımız öz fikirlərini ifadə edir. Hətta deyərdim ki, bütün əxlaqi dəyərlərdən uzaq olan sosial şəbəkələrdə fikirlər də ifadə olunur. Azərbaycanda heç bir siyasi partiya və onun funksionerləri, vətəndaş cəmiyyətinin üzvləri, KİV-lərin təmsilçiləri baxışlarına, yazı və fikirlərinə görə təqib olunmur, onlar haqqında hesabatda deyildiyi kimi işgəncə halları yoxdur. Azərbaycan hüquqi dövlətdir. Burada kimliyindən asılı olmayaraq hər bir vətəndaş törətmiş olduğu cinayət əməlinə hüquqi qiymətini almalıdır. Bütün dünyada olduğu kimi, ölkəmizdə də hüquqi dövlətin başlıca fərqləndirici cəhəti qanunun aliliyidir, qanun qarşısında hər kəsin məsuliyyət daşımasıdır. Başqa ölkələrdən fərqli olaraq bu gün Azərbaycanda unikal bir davranış var. Əsası Heydər Əliyev tərəfindən qoyulan humanist, yəni cinayətə törətdikləri üçün məhkum edilən şəxslərin əfv sərəncamları ilə azad olunmaları ənənəsi var. Ölkə prezidenti bu ənənəni davam etdirməkdədir. Yaxınlarda əfv sərəncamı gözlənilir. Bununla bağlı hüquq müdafiəçilərinin də açıqlamaları var. Görünən budur ki, xeyli sayda vətəndaşlarımız azadlığa çıxacaq. Onların içərisində ən müxtəlif insanlar var. Siyasi partiya təmsilçiləri və digər cinayət törədənlər var ki, onların azad olunması gözlənilir. Bu ənənə başqa ölkələrdə yoxdur. Təəssüf edirəm ki, bu ənənənin üstün keyfiyyətlərini departamentdə ya görmürlər, ya da görməməzliyə vururlar. Mənə elə gəlir ki, Amerikanın ciddi qurumlarından sayılan Dövlət Departamenti məsələləri araşdırıb fikrini ifadə etsəydi, bu həmin qurumun imicinə üstünlük gətirərdi, nüfuzu artardı. Bu cür yanaşmalar onun nüfuzuna ciddi zərbə vurur. Belə hesabatlar Azərbaycanı istəməyən, ölkəmizə düşmən kəsilən anti-Azərbaycan və onun içərisində yer alan antimilli qüvvələrin yalan dosyeləri əsasında hazırlanır".

**Deputat ABŞ Dövlət Departamentini ikiüzlülükdə ittiham etdi:** " Bizim üçün çox maraqlıdır, görəsən, bu gün Avropada gedən proseslər, xüsusilə Fransada 10 nəfərin ölümü, 7 mindən çox insanın həbsi ilə müşayiət olunan, ötən ilin noyabrından Fransada başlayan xalq hərəkatının hökumət tərəfindən amansızlıqla yatırılmasına edilən cəhdlər, atılan addımlar həmin hesabatda öz əksini tapıbmı? O hadisələrə olduğu kimi qiymət verilibmi? Məncə, belə deyil. Bu bir daha onu göstərir ki, Azərbaycana qarşı qeyri-obyektiv mövqe nümayiş etdirilir. Ölkəmizə qarşı təzyiqlər və təhdidlər artıq ənənə şəklini alıb. Məncə, Amerikada yaşayan dostlarımızın Azərbaycanla birlikdə səyləri nəticəsində ölkələrarası əlaqələrə xələl gəlməyəcək. Dövlət Departamenti Azərbaycan-Amerika münasibətlərinin daha yüksək səviyyədə qurulmasına, xalqlarımız arasında dostluğun daha da möhkəmləndirilməsinə xidmət edən fikirlərini hesabatlarda ifadə etsinlər. Bu, məncə, çox ədalətli olardı".

❑ **Cavanşir ABBASLI,
"Yeni Müsavat"**



# Qarabağ Komitəsindən mitinqlə bağlı yeni qərar

## Komitə növbəti aksiya müraciətinə müsbət cavab olacağını gözləyir

**Xəbər verdiyimiz kimi, Bakı Şəhər İcra Hakimiyyəti Qarabağ Komitəsinin martın 16-na təyin etdiyi mitinqi keçirməyə razılıq verməyib. Komitə icra hakimiyyətinə müraciətində aksiyanı paytaxtın Yasamal rayonundakı İdman-Sağlamlıq Kompleksinin stadionunda, "Qarabağa azadlıq!" şüarı ilə keçirmək istədiyini qeyd etmişdi.**

Bakı Şəhər İcra Hakimiyyətinin imtina məktubunda bildirilir ki, hakimiyyət Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün ölkə daxilində və beynəlxalq miqyasda ciddi iş apardığı üçün mitinqin keçirilməsi məqsədəuyğun hesab edilmir.

2018-ci il sentyabrın 29-da Qarabağ Komitəsi Yasamaldakı İdman-Sağlamlıq Kompleksinin stadionunda "Qarabağa azadlıq!" devizli mitinq keçirib. Bundan sonra Bakı Şəhər İcra Hakimiyyəti komitənin eyni məkanda noyabrın 24-nə, dekabrın 15-nə və bu il fevralın 16-na təyin etdiyi mitinqlərə də razılıq verməyib.

16 mart mitinqinə verilən cavabla bağlı Qarabağ Komitəsinin İdarə Heyətində müzakirə aparılıb. İdarə Heyətinin üzvü, AXP sədri Pənah Hüseynin bu barədə verdiyi məlumata görə, Bakı Şəhər İcra Hakimiyyətinin 16 martda keçirilməsi nəzərdə tutulan Qarabağ mitinqinə mənfi cavabı Qarabağ Komitəsi İH-nin növbədənkənar iclasında müzakirə olunub. Kiçik səs çoxluğu ilə Novruz bayramını, cəbhə xəttindəki hərbi təlimlərin getdiyini, Qarabağ ətrafında hərbi-siyasi vəziyyətlə əlaqədar ən son informasiyaları, ölkə daxilində ehtimal olan dəyişimlərin dayandırılmasına bəhanə verilməməsini, ən əsası, növbəti mitinq müraciətinə müsbət cavab olacağı barədə qeyri-rəsmi məlumatı və sair arqumentləri götür-qoy edərək razılaşdırılmamış aksiyanın məqsədəuyğun olmaması barədə qərar qəbul edilib.

İdarə Heyətində növbəti Qarabağ mitinqi üçün mart ayının sonu, aprelin əvvəli tarixinə yeni müraciətin edilməsi razılaşdırılıb. Təşkilatçıların çevrəsinin genişləndirilməsi üçün tədbir görülməsi qərarlaşdırılıb.

P.Hüseynin məlumatında o da qeyd edilir ki, qanuna müvafiq olaraq 16 mart mitinqinə razılıq verilmədiyi barədə Bakı Şəhər İcra Hakimiyyətinin qərarından məhkəməyə müraciət ediləcək.

❑ **E.SEYİDAĞA,
"Yeni Müsavat"**

# Gömrükdə şok əməliyyat: 10 milyonluq narkotik tutuldu

**Azərbaycan gömrükçüləri külli miqdarda psixotrop maddənin ölkə ərazisindən tranzit keçməklə İran İslam Respublikasından Ukrayna Respublikasına aparılması cəhdinin qarşısını alıblar.**



Dövlət Gömrük Komitəsi Cənub Ərazi Baş Gömrük İdarəsinin Əməliyyat və Təhqiqat İdarəsinə daxil olan məlumat əsasında Azərbaycan Respublikası ərazisindən tranzit keçməklə İran İslam Respublikasından Ukrayna Respublikasına gedən yük nəqliyyat vasitəsi nəzarətə götürülüb.

Azərbaycan vətəndaşının idarə etdiyi "DAF" markalı yük nəqliyyat vasitəsi İran İslam Respublikasının Astara şəhərindəki "Pardis Ceram Pajh CO" şirkətindən Ukrayna Respublikasının Kiyev şəhərindəki "Architectuar Decor" şirkətinə "qarışıq" yük aparарkən Cənub Ərazi Baş Gömrük İdarəsinin Astara gömrük postunda saxlanılıb.

Yük avtomobilinə kinoloji xidmət itinin tətbiqi ilə gömrük baxışı keçirilib. Baxış zamanı "Jack" ləqəbli həmin xidməti it nəqliyyat vasitəsinin qoşqusuna xüsusi işarə və hərəkətlərlə reaksiya verib. Sonra avtomobil stasionar rentgen qurğusundan keçirilib. Bu zaman avtomobilin qoşqusunda şübhəli cizgilər müşahidə edildiyindən nəqliyyat vasitəsi təkrar yoxlanılıb.

Nəqliyyat vasitəsinin qoşqusunda 2 ədəd paketdə olan 144 ədəd karton qutudakı plastik tərkibli, düzbucaqlı formalı müxtəlif ölçülərdə lövhəciklər yükü boşaldılıb və bütün qutular rentgen qurğusundan keçirilib. Bu zaman 12 ədəd qutuda yenidən şübhəli cizgilər müşahidə edilib.

Həmin 12 ədəd qutuya baxış zamanı isə qutuların içərisindəki lövhəciklərin tərkibinin plastik materialdan fərqli, yəni tərkibində metamfetamin adlı psixotrop maddə olduğu müəyyən edilib.

Daha sonra içərisində 143 ədəd düzbucaqlı lövhəcik olan 12 ədəd karton qutunun ümumi çəkisinin 56 kq 363 qram təşkil etdiyi məlum olub.

Qeyd edək ki, aşkar olunan 56 kq 363 qram metamfetaminin "qara bazar"da dəyəri 9 milyon 500 min manat təşkil edir.

Xatırladaq ki, metamfetamin "Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilən psixotrop maddələrin I Siyahısı"na daxildir.

# Bu gün problemli kreditlərlə bağlı qaydalar açıqlanacaq

## Banklar faiz və dəbbə pulunu nə zaman siləcəklər?

**Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" 28 fevral tarixli fərmanında əksini tapan bəzi qaydaların hazırlanması üçün qoyulmuş müddət bu gün başa çatır.**

Fərmana əsasən, Maliyyə Bazarlarına Nəzarət Palatası Mərkəzi Bankla birlikdə 15 gün müddətində Azərbaycanda fiziki şəxslərin xarici valyutada olan kreditlərinin əsas məbləğinin devalvasiya nəticəsində manatla artmış hissəsinin ödənilməsi mexanizmini (qaydasını) hazırlayıb ölkə prezidenti ilə razılaşdırmaqla açıqlamalıdır. Bundan əlavə, həmin müddətdə problemli kreditlər üzrə hesablanmış faiz və dəbbə pulu (cərimə, penya) üzrə tətbiq ediləcək güzəştlər müəyyən edilməlidir.

Maliyyə Bazarlarına Nəzarət Palatası banklarla birlikdə ödəniş ediləcək fiziki şəxslərin siyahısını və hər bir fiziki şəxsə ödəniləcək vəsaitin məbləğini isə 45 gün müddətində müəyyən etməli və bu barədə Maliyyə Nazirliyinə və Mərkəzi Banka məlumat verməlidir.

Xatırladaq ki, fərmana əsasən aşağıda qeyd olunan tarixlərə fiziki şəxslərin banklara 10 000 (on min) ABŞ dollarınadək xarici valyutada olan əsas kredit borclarının devalvasiya ilə bağlı manatla artmış hissəsi aşağıdakı qaydada qiymətləndirilməklə, bu fərman qüvvəyə mindiyi günə Mərkəzi Bankın elan etdiyi məzənnəyə uyğun olaraq, dövlət büdcəsinin vəsaiti hesabına üç aydan gec olmayaraq manatla ödənilməlidir:

- 2015-ci il fevralın 21-nə xarici valyutada mövcud olan əsas kredit borcuna münasibətdə - 1 ABŞ dollarına 0,25 manat (0,15 ABŞ dolları) kimi;

- 2015-ci il fevralın 22-dən həmin il dekabrın 21-dək bağlanmış kredit müqavilələri üzrə xarici valyutada əsas kredit borcuna münasibətdə - 1 ABŞ dollarına 0,6 manat (0,35 ABŞ dolları) kimi;

- 2015-ci il fevralın 21-nə və dekabrın 21-nə mövcud olmuş xarici valyutada əsas kredit borclarına münasibətdə -hər iki qaydada nəzərdə tutulduğu kimi.




Ödəniş, ilk növbədə, fiziki şəxslərin banklar və ləğvetmə prosesində olan banklar qarşısında ödəniş müddəti keçmiş əsas kredit borclarının ödənilməsinə yönəldilməli, qalan məbləğ isə həmin fiziki şəxslərin sərəncamına verilməlidir. Bir fiziki şəxsə ödəniləcək vəsaitin ümumi məbləği 5 min ABŞ dollarının manat ekvivalentindən çox olmamalıdır.

**Maliyyə naziri Samir Şərifov dünən mətbuata verdiyi açıqlamada fərmanda nəzərdə tutulmuş bütün işlərin həyata keçirildiyini bildirib:** "Maliyyə Bazarlarına Nəzarət Palatası banklarla bu istiqamətdə iş aparır . Hazırda kreditlərin məbləği, sayı dəqiqləşdirilir. Bunun əsasında da müvafiq işlər başlanacaq və normal qaydada ödənişlər həyata keçiriləcək. Maliyyələşmə ilə bağlı mexanizm praktiki olaraq hazırdır. Burada hər hansı bir problem görünmür. Maliyyə Nazirliyində qaynar xətt yaradılıb, suallara cavab verilir. Bütün əsas məsələlər artıq öz həllini tapıb" .

Qeyd edək ki, fərmanda banklara problemli kreditlərlə bağlı məhkəmə iddialarının geri götürülməsi tövsiyə olunur. Buna baxmayaraq, bir sıra rayonlarda məhkəmə icraçıları vətəndaşlardan ödənişləri tələb edirlər. Bununla bağlı suala Maliyyə Nazirliyindən verilən cavaba görə, fərmana əsasən həm məhkəmədə olan iddialardan imtina edilməsi, həm də artıq qanuni qüvvəyə minmiş və icraya yönəldilmiş işlərə xitam verilməsi nəzərdə tutulur.

**Eyni zamanda hazırda fərmanın əhatə dairəsinə düşən kreditlər üzrə banklardan vətəndaşlara zəng olunur, ödəniş olunması tələb edilir. Maliyyə Nazirliyi bildirir ki, vaxtı keçmiş kredit borclarının restrukturizasiya olunacağı nəzərə alınaraq, onlara hesablanmış faizlərin və dəbbə pulunun (cərimə, peniya) silinməsi banklara tövsiyə olunub. Bəs banklar dəbbə, cərimə və faizləri nə zaman siləcəklər? Bu barədə "Yeni Müsavat"ın sualını cavablandıran Azərbaycan Banklar Assosiasiyasının prezidenti Zakir Nuriyev bildirir ki, hazırda banklar fərmanın əhatə dairəsinə düşəcək şəxslərin siyahısını hazırlamaqla məşğuldular:** "Faiz və dəbbə pulunun silinməsi üçün müvafiq qaydalar olmalıdır. Yəqin ki, bu günlərdə həmin qaydalar açıqlanacaq və prosesə start veriləcək".

**Fərman imzalanandan sonra qəzetimizə açıqlamasında Z.Nuriyev bildirmişdi ki, ilkin məlumatalara əsasən, məzənnə fərqinə görə vətəndaşlara ödəniləcək kompensasiyaların ümumi məbləği 670 milyon manat təşkil edəcək:** "Hesablamalarımız göstərir ki, bütövlükdə fərmanın əhatə edəcəyi şəxslərin əsas borcu 900 milyon manat ekvivalentindədir. Bu əsas borcun 700 milyon manat təşkil edən faiz yükü var ki, bu da banklar tərəfindən silinəcək. Bu gün vətəndaşların milli valyutada olan problemli kreditlərinin 99 faizi, xarici valyutada olan problemli kreditlərin isə 95 faizi restrukturizasiya olunacaq".

**ABA prezidentinin sözlərinə görə, burada söhbət say baxımından 99 faiz və 95 faizdən gedir:** "Məbləğ baxımından bu hesablanmayıb. Çünki fiziki şəxslərin bir hissəsinin krediti 10 min dollar və 17 min manatdan yuxarıdır. Eyni zamanda hüquqi şəxslərin də kreditləri var. Fərmanın məqsədi say baxımından daha çox vətəndaşın probleminin həllinə dəstək verilməsidir. Bu mənada, çox böyük sosial əhəmiyyəti olan fərmandır. Yəqin ki, proses yekunlaşandan sonra bu barədə hansısa dəqiq məlumat söyləmək mümkün olacaq".

**Z. Nuriyev onu da bildirib ki, yeni restrukturizasiya şərtləri müştərilərə daha uzun müddətə öz borclarını ödəməyə imkan yaradacaq:** "Banklara 0,1 faizlə veriləcək kreditlər və müştərilərə ödənilmiş kompensasiyaların bir qismi banklarda müştərilərin vaxtı keçmiş kreditlərinə sərf edildiyi üçün banklarda izafi likvidliyi formalaşdıracaq. Manatda formalaşacaq bu izafi likvidlik imkan verəcək ki, banklar öz kredit faizlərini aşağı salsınlar və vətəndaşlara daha uzun müddətə kredit versinlər. Hesab edirik ki, bu fərmandan ilk növbədə vətəndaşlarımız və eyni zamanda bank sektoru yararlanmış olacaq".

Ekspertlər hazırlanan qaydalarla bağlı təkliflərlə çıxış ediblər. Bu təkliflər arasında fərmanın 10 min dollardan yuxarı kreditlərin 10 min dollara qədər hissəsinə də şamil olunması, eyni qaydanın manatla kreditlərə də tətbiq edilməsini, məbləği böyük olmayan xarici valyutada olan lizinq kreditlərinə də kompensasiyanın tətbiqi imkanlarına baxılması və sairlər var. Maliyyə Bazarlarına Nəzarət Palatasından verilən məlumata görə, təkliflərin bəziləri hazırlanacaq qaydalarda nəzərə alınacaq.

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

# Yeddi günlük bayram: iqtisadiyyat hansı itkilərə məruz qalır?

## Natiq Cəfərli: "Azərbaycanın aid olduğu resurs ölkələrində bayram günlərinin çoxluğu iqtisadiyyatda hansısa fəsad yaratmır"

**Bir neçə gündən sonra Azərbaycanda Novruz bayramı tətilləri başlayacaq. Belə ki, ölkə hökumətinin qərarı ilə ölkədə bir həftə ardıcıl iş olmayacaq.**

Yeddi günlük bayram tətili kifayət qədər uzun müddət deməkdir. Nəzərə alsaq ki, Azərbaycan rəsmi bayramların sayına görə (18 bayram) dünyada öncül yerlərdən birini tutur, onda bayramlara görə verilən tətillərin iqtisadiyyata təsirlərini qiymətləndirməyə ehtiyac yaranır. Ölkə iqtisadiyyatı qeyri-iş günlərinin çoxluğundan hansı itkilərə məruz qalır? Bu tətillər hansı işçilər və işəgötürənlər üçün sərfəli, hansılar üçün sərfəli deyil?



**Sualları cavablandıran iqtisadçı-ekspert Natiq Cəfərli bildirir ki, təbii sərvətlərin bol olduğu ölkələrdə adətən bayram günlərinin sayı çox olur:** "Postsovet məkanında Rusiyada, məsələn, Yeni il bayramında 11 günədək, may ayında 13 günədək qeyri-iş günü olur. Yeni Azərbaycanın da aid olduğu, resurs ölkələrində bayram günlərinin say çoxluğu iqtisadiyyatda hansısa ciddi fəsad yaratmır".

**Ekspertin sözlərinə görə, bayram günlərində ölkə büdcəsinin gəlirlərinin əsas mənbəyi olan neft sektorunda işlər dayandırılmır:** "Bu sektorda növbəli iş rejimidir, bayram günlərində işə görə işçilərə əlavə vəsait ödənir, yəni fasiləsizlik təmin olunur. Bu baxımdan, əgər dövlət büdcəsinin 50 faizi birbaşa Dövlət Neft Fondundan transfert olunursa, qalan büdcə gəlirlərinin formalaşmasında bu sektor hərəkətverici rola malikdirsə, bu zaman yeddi günlük bayramlar iqtisadiyyatda hər hansı ciddi problemlərə gətirib çıxarmır. Əsas problem bank sektoru ilə bağlı yaranır: uzunmüddətli dövrdə bank köçürmələrini həyata keçirmək mümkün olmur ki, bu da iş adamlarına, özəl sektora problemlər yaradır. Banklar bayram günlərində yalnız valyutadəyişmə funksiyasını icra edirlər".

**N.Cəfərli qeyd edir ki, inkişaf etmiş və iqtisadiyyatı diversifikasiya olmuş ölkələrdə belə uzunmüddətli tətillərə az rast gəlinir:** "Avropada bayram günlərinin sayı məhdud olur. Amma bu ölkələrdə əmək məzuniyyəti günlərinin sayı çox olur. İşçilər məzuniyyət müddətini bir neçə dəfəyə bölüb istədikləri zaman götürə bilirlər. Yəni istədikləri səviyyədə dincələ bilirlər. Azərbaycanda isə dincəlmək imkanları, bunun üçün müvafiq infrastruktur formalaşmayıb deyə bir həftə ərzində insanlar bilmirlər neyləsinlər".

**Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının rəhbəri Sahib Məmmədovun bildirdiyinə görə, dünyada və Avropada ən uzunmüddətli tətil günləri Milad bayramı ərəfəsində qeydə alınır:** "Lakin Avropada bayram bütün təbəqələri əhatə edir. Yalnız həyati əhəmiyyətli strukturlarda(səhiyyə, nəqliyyat və sair) işin fasiləsizliyi təmin olunur. Bu zaman işçilərə bayram günlərində işlədiklərinə görə əlavə ödənişlər edilir. Bu ölkələrdə bayram tətillərinin səmərəli keçirilməsi üçün bütün zəruri infrastruktur formalaşdırılıb, ənənələr var. Bizdə isə belə bayramlar kiçik bir hissəni çıxmaq şərtilə, əksəriyyət üçün diskomfort yaradır: özəl sektor, qeyri-formal iş yerləri fəaliyyətini davam etdirir. Dövlət orqanları, məhkəmələr, banklar işləmir deyə insanlara problemlər yaranır. Əhalinin böyük hissəsi isə normal istirahət edə bilmir. Çünki əvvəla, ölkədə istirahət ənənəsi formalaşmayıb, ikincisi isə ölkə daxilində belə istirahət çox baha başa gəlir. Nəticədə, insanlar oturub gözləyirlər ki, iş nə vaxt başlayacaq".

Qeyd edək ki, Avropa Birliyinə daxil olan ölkələrin çoxunda rəsmi tətil günlərinin sayı orta hesabla 10 gündür. Lakin bəzi üzv ölkələrdə istisnalar da var. Məsələn, İspaniya ildə 16, Yunanistan isə 15 rəsmi tətil günü keçirir. Hollandiya və Rumınya tətil mövzusunda ən şanssız ölkələr sırasındadır. Onlar ildə cəmi 9 gün tətil edir. Avropa ölkələrinin rəsmi tətil günləri isə belədir: Fransa 10 gün, Rusiya 12 gün, İngiltərə 8 gün, Finlandiya 10 gün, Danimarka 9 gün, İsveçrə 9 gün.

Amerikada isə rəsmi tətil günlərinin sayı 10-dur. Amerikada rəsmi tətil olaraq dini günlər Avropa ölkələri ilə müqayisə aparıldıqda daha az yer alsa da, milli bayramların çoxluğu nəzərə çarpır. Ayrıca, eyni qitədə yer alan Braziliya 10, Meksika 7, Argentina 12 rəsmi bayramı qeyd edir.

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 59 (7229) 15 mart 2019

**Martın 14-də Azərbaycanın paytaxtında Prezident İlham Əliyevin himayəsi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə VII Qlobal Bakı Forumu işə başlayıb.**




# VII Qlobal Bakı Forumu başladı-prezidentin dünyaya mesajları

## 5 prezident, 1 baş nazir, 2 baş nazirin müavini və 42 sabiq dövlət başçısının iştirak etdiyi forumda prezident İlham Əliyev Azərbaycanın dünya siyasətində yerindən, enerji layihələrindən və Qarabağ münaqişənin həlli yollarından danışdı

Martın 16-dək davam edəcək VII Qlobal Bakı Forumunun işində 55 ölkədən 500-dən çox nümayəndə iştirak edir. "Dünyanın yeni xarici siyasəti" mövzusunda keçirilən foruma hazırda fəaliyyətdə olan 5 prezident, 1 baş nazir, 2 baş nazirin müavini, 42 sabiq dövlət başçısı və baş nazirlər, çoxsaylı analitiklər, jurnalistlər, gənc liderlər toplaşıblar. Forumlardır. Biz artıq Balkan ölkələri, Bosniya və Herseqovina, Xorvatiya, Monteneqro ilə anlaşma memorandumları imzalamışıq və ümid edirəm ki, növbəti mərhələdə sıx əməkdaşlığa başlayacağıq. Bu layihəyə cəlb olunmaq istəyən ölkələrin coğrafiyası da gündən-günə artır. Bu, bir daha onu göstərir ki, bizim nəqliyyat təşəbbüslərimiz geniş beynəlxalq əməkdaşlıqla nəticələnir. Biz enerji və nəqliyyat sahəsində geniş əməkdaşlıq formatı yarada bilmişik. Burada Asiya, Avropa ölkələri və təbii ki, Avropa İttifaqına üzv olan dövlətlər iştirak edir. Bu, çox böyük bir nailiyyətdir, böyük sərvətimizdir və biz yalnız bu pro-





da 10 müxtəlif sessiya zamanı iştirakçılar tərəfindən qlobal və regional əhəmiyyət daşıyan məsələlər müzakirə ediləcək.

VII Qlobal Bakı Forumunu Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin açaraq forumun əhəmiyyətini vurğulayıb. Dünyada sabitliyin olmadığı bir vaxtda planetimizi narahat edən mühüm məsələləri müzakirə etmək imkanı baxımından Bakı Forumunun çox vacib tədbir olduğunu deyən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri sözü prezident İlham Əliyevə verib.

Dövlət başçısı forumun dünyada cərəyan edən vacib prosesləri müzakirə etmək üçün mühüm beynəlxalq platformaya çevrildiyini vurğulayıb. Forumda dünyanın nəhəng intellektual potensialının cəmləşdiyini deyən prezident İlham Əliyev bunun tədbirin miqyasını təcəssüm etdirdiyini, Bakı Forumunun beynəlxalq aləmdə misilsiz yeri olduğunu diqqətə çatdırıb.

**Azərbaycanın xarici siyasətindən danışan dövlət başçısı bildirib ki, bu, proqnozlaşdırıla bilən, müstəqil və milli maraqlara əsaslanan, tərəfdaşlıq, qarşılıqlı əməkdaşlıq, regionda sabitliyə yönələn siyasətdir.** "Biz ənənəvi tərəfdaşlarla münasibətlərimizi daha da möhkəmləndirmişik, eyni zamanda yeni dostlar əldə edərək yeni körpülər qurmuşuq", - deyən prezident Azərbaycanın qarşılıqlı hörmətə əsaslanan səmərəli əməkdaşlıq mühiti yarada bildiyini, nəqliyyat, enerji təhlükəsizliyi, ticarət və sərməyə qoyuluşu sahələrində əməkdaşlıq qurduğunu diqqətə çatdırıb.

**Qarabağ münaqişəsi və bu münaqişənin nəticələri barədə ətraflı danışan prezident bildirib ki, bu işğal beynəlxalq təşkilatların beynəlxalq hüquqa əsaslanan qətnamələrinin pozulması deməkdir və status-kvo qəbuledilməzdir, onun dəyişdirilməsi üçün isə Ermənistan Azərbaycan ərazilərindən öz qoşunlarını çıxarmalıdır.** "Biz görürük ki, Ermənistan hökuməti bu gün danışıqlar formatını dəyişdirməyə cəhd edir. Bu isə qəbuledilməzdir. Beynəlxalq təşkilatlar, ATƏT-in Minsk Qrupunun həmsədrləri də bunu bəyan edirlər", - deyən İlham Əliyev bu formatın artıq uzun illərdir mövcud olduğunu bildirib və bunu dəyişdirmək cəhdini danışıqlar prosesini bloklamaq cəhdi kimi səciyyələndirib. Prezident forum iştirakçılarının diqqətini dünyada sabitliyin bərqərar olması üçün mühüm amil olan multikulturalizmin Azərbaycandakı ənənələrinə də yönəldib, bu ideyanın dünyada təbliğ edildiyini vurğulayıb. "Bu gün Azərbaycan nümayiş etdirir ki, yalnız multikulturalizmin təşviqi ilə dünya irəli gedə, gərginlik azala bilər", - deyən dövlət başçısı Azərbaycanın gənc, müstəqil ölkə olmasına baxmayaraq, beynəlxalq təşkilatların dəstəyini qazandığını bildirib.

"Azərbaycan enerji təhlükəsizliyinə böyük töhfələr verir, böyük sərmayələr qoyur. Mühüm beynəlxalq enerji şirkətləri ilə bir yerdə gördüyümüz işlər təkcə xalqımıza mənfəət gətirmir, eyni zamanda, Azərbaycanda və regionda on minlərlə yeni iş yeri yaradır və təbii ki, beynəlxalq əməkdaşlığa öz töhfəsini verir", - deyə, prezident bildirib.

**Dövlət başçısı qeyd edib ki, Azərbaycan neft kəmərləri vasitəsilə Xəzər dənizini Qara və Aralıq dənizləri ilə birləşdirdi:** "Bu, tarixdə ilk dəfə bizim sayəmizdə mümkün oldu. Bu gün biz Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Albaniya, Yunanıstan və İtaliyanı birləşdirən nəhəng qaz kəməri layihəsini həyata keçiririk. Söhbət yekunlaşmaq üzrə olan TAP kəmərindən gedir. Biz Cənub Qaz Dəhlizini ötən il istismara verdik və həmin ilin iyun ayında onun komponenti olan TANAP kəməri də istifadəyə verildi. Azərbaycan qazı həmin kəmər vasitəsilə artıq nəql olunur və ümid edirəm ki, gələn il biz bu layihəni tam şəkildə başa çatdıracağıq. Bu, regionda ən nəhəng infrastruktur layihəsidir, ona qoyulan bütün sərmayələrin həcmi təqribən 40 milyon ABŞ dollarına bərabərdir. Burada biz güclü beynəlxalq maliyyə təsisatlarının dəstəyini görürük, burada korporativ maliyyə vəsaitləri istifadə olunur. Yəni bu, ölkələr və şirkətlər arasında olan sıx əməkdaşlığın nümunəsidir və təbii ki, bizim planlarımız daha irəli gedən prosesin ilkin mərhələsindəyik. Bu proses başa çatdıqdan sonra böyük iqtisadi mənfəət olacaq, on minlərlə yeni iş yeri yaranacaq və təbii ki, bu, ölkələri biri-birinə daha da sıx bağlayacaq".

Dövlət başçısı forumun işinə uğurlar arzulayıb.

Sonra Əfqanıstan prezidenti Məhəmməd Əşrəf Qani, Albaniya prezidenti İlir Meta, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Şefik Caferoviç, Moldova prezidenti İqor Dodon, Monteneqro prezidenti Milo Dukanoviç, Bolqarıstanın baş naziri Boyko Borisov çıxış ediblər.

Daha sonra İtaliya prezidenti Sercio Mattarellanın, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının baş naziri Tereza Meyin, BMT baş katibi Antonio Quterreşin foruma müraciəti oxunub.

Forumda Latviyanın sabiq prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike- Freyberqa çıxış edib.

Tədbirdə Nizami Gəncəvi Beynəlxalq Mükafatının 2019-cu ilin təqdimat mərasimi keçirilib.

Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qaniyə və Robert F.Kennedi İnsan Hüquqları Fondunun prezidenti Kerri Kennediyə Mərkəzin Qəyyumlar Şurasının qərarı ilə Nizami Gəncəvi Beynəlxalq mükafatları təqdim olunub.

**Forum bu gün öz işini davam etdirəcək.**

# Azərbaycan və Əfqanıstan prezidentləri görüşdü



**Martın 14-də Azərbaycan prezidenti İlham Əliyev VII Qlobal Bakı Forumunda iştirak edən Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani ilə görüşüb.**

Əvvəlcə Azərbaycan prezidenti İlham Əliyevlə Əfqanıstan prezidenti Məhəmməd Əşrəf Qani arasında təkbətək görüş olub. Təkbətək görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələri, o cümlədən iqtisadi əlaqələrin perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə davam etdirilib.

# Son 10 ildə SOCAR-ın gəliri 20 dəfə artıb

**2008-2017-ci illəri əhatə edən dövrdə SOCAR-ın gəliri 20 dəfə artıb.**

AzərTAc xəbər verir ki, bu barədə martın 14-də Bakıda keçirilən "Argus Mineral Gübrələr 2019. Xəzər-Qara dəniz regionunda istehsal və logistika" konfransında SOCAR-ın prezidenti Rövnəq Abdullayev deyib.

O qeyd edib ki, hazırda SOCAR-ın gəlirinin 90 faizi xarici bazarlarda formalaşır.

"Şirkət əvvəllər əsasən öz məhsullarının satışını həyata keçirirdi. Hazırda isə SOCAR-ın ticarət portfelində üçüncü tərəflərin məhsulları çoxluq təşkil edir", - deyə R.Abdullayev bildirib.

# Novruz Məmmədov bu gün deputatlara hesabat verəcək

**Bu gün Azərbaycan Milli Məclisinin növbəti plenar iclası keçiriləcək. İclasda Nazirlər Kabinetinin 2018-ci il üzrə fəaliyyəti haqqında hesabat veriləcək.**

Hesabatı baş nazir Novruz Məmmədovun təqdim edəcəyi gözlənilir. Bu, N.Məmmədovun parlamentə təqdim edəcəyi ilk hesabatdır. Plenar iclasda həmçinin hökumət üzvlərinin də iştirakı nəzərdə tutulub.

Qeyd edək ki, Novruz Məmmədov ötən il aprelin 21-də baş nazir vəzifəsinə təyin edilib. O, bu postda Artur Rasi-zadəni əvəzləyib.

# Azərbaycan İranla birgə avtobus istehsal edəcək

**Martın 15-də Azərbaycanla İran arasında, Hacıqabul Sənaye Məhəlləsində "Scania" markalı avtobuslar istehsal edəcək birgə müəssisənin yaradılmasına dair müqavilə imzalanacaq.**

Bu barədə Bakıda keçirilən Azərbaycan-İran biznes-forumunda iqtisadiyyat naziri Şahin Mustafayev məlumat verib. Nazir bildirib ki, yaxın vaxtlarda zavodun tikintisinə başlanılacaq.

"Pirallahı Sənaye Parkında isə İranla birgə dərman istehsalı zavodunun tikintisinə start veriləcək. Bu layihəni də uğurla başa çatdıracağıq".

# Neftimiz bahalaşdı

**Azərbaycanın dünya bazarına çıxararaq satdığı "Azeri LT CIF" markalı xam neftin 1 barelinin qiyməti 0,65 dollar və yaxud 0,96% artıb.**

"Azeri Light" markalı neftin bir barelinin qiyməti 68,59 dollar təşkil edib.

Xatırladaq ki, "Azeri LT CIF" neftinin minimal qiyməti 2001-ci ilin dekabrında (19,15 dollar), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 dollar) qeydə alınıb.

# Rusiyadan anti-Azərbaycan mövqeyi - Lavrovun özfəaliyyəti, yoxsa...

**Rusiya Xarici İşlər Nazirliyinin növbəti dəfə anti-Azərbaycan bəyanatı ilə çıxış edərək, RF vətəndaşlarını Azərbaycana səfər etməməyə çağırması gözlənilməz olmadı.**

## Ekspertlər Rusiya Xarici İşlər Nazirliyinin siyasətini sərt tənqid etdilər: "Lavrov və onun tör-töküntüləri istəyirlər ki..."



Məsələ burasındadır ki, ilin ilk ayında da Rusiya XİN-in sözçüsü Mariya Zaxarova buna bənzər mövqe açıqlamışdı. Əslində başında erməni milliyyətinin mənsubu olan şəxsin dayandığı qurumun sözçüsündən başqa münasibət gözləmək doğru deyil. Rusiya xarici işlər naziri Sergey Lavrovun dəfələrlə anti-Azərbaycan münasibətinin şahidi olmuşuq. Hətta o, Dağlıq Qarabağ məsələsinin Azərbaycanın daxili işi olmadığını iddia edəcək qədər uzağa getmişdi və buna görə Bakıdan sərt təpki qazanmışdı. Lakin sonrakı dönəmlərdə Rusiya və Azərbaycanın birinci şəxslərinin qarşılıqlı şəkildə əlaqələrin yüksək səviyyədə olması ilə bağlı səsləndirdikləri bəyanatlar ermənipərəst və erməni əsilli Rusiya rəsmilərini də susmağa vadar etmişdi. Təkcə ötən il ərzində Azərbaycan prezidenti İlham Əliyevlə Rusiya prezidenti Vladimir Putin arasında altı görüş keçirilmişdi.

**Prezident İlham Əliyev ötən ilin dekabrında "Rossiya-24" telekanalına müsahibəsində demişdi ki, rusiyalılar Azərbaycana gələn turistlərin sayına görə birinci yeri tutur. Sitat:** "Bu il 800 mindən çox rusiyalı ölkəmizə gəlib və özlərini evdəki kimi çox rahat hiss edirlər. Belə ki, bizim münasibətlərimiz çox zəngindir və düşünürəm ki, qonşuların öz münasibətlərini necə qurması üçün yaxşı nümunədir".

Necə ola bilər ki, prezidentlər qarşılıqlı münasibətlərdən məmnun olduqları, Azərbaycana təkcə bir il ərzində 800 min Rusiya vətəndaşı rahat gəlib-getdiyi halda, rəsmi qurumlardan biri Azərbaycanı "riskli" ölkə kimi təqdim edir? Nə baş verdi ki, Rusiya XİN ölkə vətəndaşlarını Azərbaycana getməməyə çağırdı? Bəzi müşahidəçilər hesab edir ki, Azərbaycanla Rusiyanın arasını vurmaq layihəsi Moskvadakı Ermənistan himayəçilərinə, erməni əsilli rəsmilərə məxsusdur və bu qrupa S.Lavrov başçılıq edir. Ekspertlərə görə, bu qrupa "Lazerev klubu" da aiddir. Lakin digər iddialara görə, Lavrov Rusiya prezidentinin iradəsinə qarşı çıxmağa cəsarət etməzdi. Buradan isə belə düşüncə formalaşır ki, vaxtilə "Putinin danışan dili" statusunda çıxış edən Jirinovskinin mövqeyindən indi Zaxarova və Lavrov çıxış edir. Bəs Rusiyanın Azərbaycandan istəkləri nədir ki, bu cür əsassız ittihamlara əl atır?

**Politoloq Elçin Mirzəbəyli bildirdi ki, Rusiya XİN-in son bəyanatı bu qurumun Azərbaycana qarşı ardıcıl olaraq sərgilədiyi qərəzli mövqenin məntiqi davamıdır:** ""Azərbaycana getməyin" çağırışı açıq şantajdır. Azərbaycan erməni əsilli Rusiya vətəndaşlarını ölkəyə buraxmamaqla öz milli təhlükəsizliyi ilə bağlı maraqlarından çıxış edir. Çünki Rusiyada yaşayan ermənilərin ikili vətəndaşlığı var və onlar həm də Ermənistan vətəndaşlarıdır. Digər tərəfdən, erməni harada yaşamasından asılı olmayaraq, hər yerdə ermənidir. Bu yanaşmadan belə görünür ki, Rusiya XİN ermənilərin Bakıya səfərini təşviq edir. Bu da məqsədyönlü xarakter daşıyır. Yəni Lavrov və onun tör-töküntüləri istəyirlər ki, ermənilər Azərbaycana gəlsinlər, burada ictimai yerlərdə ermənicə danışsınlar. Cəmiyyət buna şübhəsiz ki, müsbət reaksiya verməyəcək. Belə olduğu təqdirdə hətta müəyyən gərginlik də yarana bilər. Onlar da bunu kənardan lentə aldırıb bütün dünyaya car çəksinlər ki, ermənilər azərbaycanlılarla yaşaya bilməzlər, bu onların həyatına təhlükə yarada bilər". **Politoloq bildirdi ki, vaxtilə Sumqayıt təxribatı da elə bu məqsədlə törədilmişdi:** "Erməni əsilli Rusiya və Ermənistan vətəndaşlarının Azərbaycana səfərlərinin israrla təşkil edilməsi, onların Azərbaycana buraxılmasının yenə də israrla tələb edilməsi həm də Rusiya xarici siyasət idarəsinin rəsmi Bakıya təzyiq göstərmək üçün seçdiyi vasitələrdən biridir. Onlar yaxşı başa düşürlər ki, Azərbaycan bu məsələdə güzəştə getməyəcək və belə olduğu təqdirdə ölkəmizə qarşı informasiya təxribatlarını davam etdirmək üçün bəhanələri qalacaq. Başqa bir amil şübhəsiz ki, Dağlıq Qarabağ münaqişəsinin həlli müstəvisində Azərbaycanın mövqelərinin möhkəmləndirilməsi və Qərb siyasi dairələrinin ərazi bütövlüyü amilini önə çəkməsidir. Azərbaycanın mövqeləri möhkəmləndikcə münaqişənin həlli üçün ölkəmizə qarşı üçüncü tərəfin irəli sürə biləyi tələblər də sıradan çıxacaq. Rusiya münaqişənin həllində digər güclərin söz sahibinə çevrilə biləcəyindən və nüfuz dairəsinin məhdudlaşmasından narahatdır".

**Artıq rəsmi Bakı Rusiya XİN-in bəyanatına cavab verib. Bildirilib ki, görünür, son vaxtlar Ermənistan-Rusiya əlaqələrində ciddi problemlərin yaranması və bunun əksinə olaraq Azərbaycan-Rusiya əlaqələrinin uğurla inkişafı (təkcə ötən il ərzində iki ölkə prezidentləri 6 dəfə görüşüb) Rusiya XİN-də bəzilərini çox ciddi narahat edir:** "Rusiya XİN-in mətbuat katibi bəyan edib ki, "Azərbaycan tərəfi söz verib ki, bu vəziyyəti düzəldəcək". Biz bunu qətiyyətlə təkzib edirik. Azərbaycan-Rusiya münasibətləri bərabərhüquqlu əlaqələrdir və "vəziyyəti düzəldəcəklər" ifadəsi ikitərəfli münasibətlərin mahiyyətinə ziddir". Azərbaycan XİN əmindir ki, Rusiya XİN-in mətbuat katibinin növbəti təxribat xarakterli və anti-Azərbaycan bəyanatı Azərbaycan-Rusiya əlaqələrinə mənfi təsir göstərməyəcək.

**Deputat Fazil Mustafa isə dedi ki, Rusiyanın bu mövqeyinə ayrı-ayrı erməni maraqlarına xidmət edən şəxslərin mövqeyi kimi baxmaq bizi yanlış nəticələr çıxarmağa yönləndirə bilər:** "Bu, Rusiyanın dövlət siyasətidir, rəsmi qurumu tərəfindən rəsmi qaydada verilib. Azərbaycanı yumşaq təzyiq altında saxlamanın metodlarından biridir. "Lazerev klubu"nu da rəsmi dövlət məqamları aktivləşdirib. Biz Rusiyadan hər zaman bu addımları gözləməliyik. Hələ biz şükür etməliyik ki, bu qədər passivliyimizin qarşısında bu təzyiqlərin dərəcəsi də bir o qədər böyük deyil. Təsəvvür edin ki, Duqin kimi bir adam ermənilərin mövqeyindən çıxış etsəydi, onunla hansı işləri görməzdilər? Bizim diplomatiya, diaspora anlayışımız o dərəcədə bəsitdir ki, üzərimizə gələn bu dalğaların zəifliyinə hələ şükür etməliyik. Rusiya kimi bir məkanda işlərimiz yaxşı mənada bir fədakar blogerin fəaliyyətinin ümidinə qalırsa, bu qədər lobbiçilik vəsaitlərinin hansı "qara deşiyə" töküldüyünü sorğulamağımız lazımdır".

❑ **E.PAŞASOY,**
**"Yeni Müsavat"**

# Gözlənilən Qarabağ danışıqları: Bakının masada mövqeyi daha güclüdür

## Nikol Paşinyan artıq fərqindədir ki, separatçı rejimi danışıqlarda tərəf kimi qəbul etdirmək planı iflasa uğrayıb

**Azərbaycan prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan aprel ayının əvvəlində ABŞ-da görüşə bilər. Bu barədə Ermənistanın bəzi saytlarında məlumat yayılıb.**

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva bildirib ki, Azərbaycan danışıqlar prosesinə sadiqdir və substantiv danışıqlara hər zaman hazırdır: "ATƏT-in Minsk Qrupunun həmsədrlərinin Azərbaycan Respublikası Prezidenti ilə Ermənistanın baş naziri arasında görüşünə dair təklifləri olub. Qeyd etmək istərdik ki, Azərbaycan danışıqlar prosesinə sadiqdir və substantiv danışıqlara hər zaman hazırdır. Azərbaycan tərəfi münaqişənin nəticəyə yönəlik və intensiv danışıqlar yolu ilə həlli istiqamətində həmsədrlərin səylərini dəstəkləyir. Məlum olduğu kimi, indiyədək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında 3 dəfə, xarici işlər nazirləri arasında isə 4 dəfə görüş baş tutub.

Minsk Qrupunun həmsədrlərinin bu açıqlaması Ermənistana verilən bir siqnaldır, biz bunu alqışlayırıq. Prezident İlham Əliyev Minsk Qrupunun həmsədrlərini qəbul edərkən ölkəmizin bu səpkidə mövqeyini həmsədrlərin diqqətinə çatdırıb. Münaqişənin həlli üzrə danışıqlar Ermənistan və Azərbaycan arasında aparılır. Danışıqların formatı dəyişilməz olaraq qalır. Ölkəmizin işğal edilmiş ərazilərində yaradılmış qondarma rejimin danışıqlara cəlb edilməsi və formatın dəyişdirilməsi cəhdləri qəbuledilməzdir".

**Bəs Qarabağ danışıqlarına tərəflər nə ilə gedir?**

**Politoloq Qabil Hüseynli "Yeni Müsavat"a şərhində bildirdi ki, Azərbaycanın danışıqlar masasında əli daha güclüdür. Azərbaycanın ortaya qoyduğu danışıqlar ideologiyasına dünya tərəfindən dəstək də güclüdür. Azərbaycanın mövqeyinin beynəlxalq hüquq normalarına uyğun olması, eləcə BMT-nin Dağlıq Qarabağa dair qəbul etdiyi 4 qətnaməyə uyğun surətdə aparılması danışıqlarda Azərbaycanın üstünlüyünü şərtləndirir:** "Yeni Azərbaycan hansısa ölkənin ərazisini istəmir, sadəcə olaraq, öz ərazi bütövlüyünü təmin etmək istəyir. Bunu da beynəlxalq hüququn gərəkdirdiyi tələblər çərçivəsində reallaşdırmaq istəyir. Əgər Ermənistanın mövqeyinə diqqət yetirsək görərik ki, başdan-ayağa sayıqlamalardan ibarətdir. Ermənistan danışıqlar ərəfəsində danışıqlar mühitini yumşaltmaq əvəzinə danışıqlar prosesini mürəkkəbləşdirəcək addımlar atır. Ermənistanın təhlükəsizlik şurasının iclasını baş nazir Nikol Paşinyan Xankəndində keçirdi, oradan sərsəm bəyanat verdi. Nikol Paşinyan artıq fəqrindədir ki, separatçı Dağlıq Qarabağ rejimini danışıqlarda tərəf kimi qəbul etdirmək planı iflasa uğrayıb. Ermənistan rəhbəri Qarabağ danışıqlarına həm də bu məsələdə uduzmuş şəkildə getməli olacaq. Son vaxtlar Avropa Birliyindən, ATƏT-dən İrəvanın mövqeyini dəstəkləməyən açıqlamalar olub".

**Azərbaycan tərəfinin danışıqlarda əlini gücləndirən ən mühüm amillərdən biri ölkəmizin güclü hərbi potensiala malik olmasıdır:** "Biz açığını deyək ki, danışıqlara o qədər bel bağlamırıq. Çünki qarşımızda siyasi iradəsini dəqiq proqnozlaşdırmaq mümkün olmayan bir tip əyləşib. Bu tip gündə bir neçə cür fikir səsləndirir və həmin fikirlər də bir-birini təkzib edir. O nöqteyi-nəzərdən danışıqlar yolu ilə bütün məsələlərin həll ediləcəyinə o qədər böyük ümid bağlamır. Ona görə də Azərbaycan sürətlə öz ordusunun hərbi əməliyyatlara hazırlanması qayğısına qalır. Martın 11-dən başlayaraq Azərbaycan ordusu 10 min nəfərlik şəxsi heyətlə bütün qoşun növlərinin iştirakı ilə kompleks xarakterli hərbi təlimlərə başlayıb. Təlimlər təmas nöqtəsinə xeyli yaxın istiqamətlərdə həyata keçirilir. Özü də bu təlimlər hücum xarakterli təlimlərdir. Arxasında güclü hərbi potensial olan diplomatiya danışıqlar masası ətrafında özünü daha güclü hesab edəcək. Tərəflər bu cür baqajla danışıqlara getməkdədir".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# “Əli İnsanovun müxalifətə qoşulacağına inanmıram”

## Maksim Musayev: “O adam gətirib stolumun üstünə 1 milyon dollar qoydu”

**Hazırda ölkə gündəminin əsas mövzusu imzalanacaq əfv sərəncamıdır. Bu əfvlə çoxsaylı siyasi məhbusların, o cümlədən, 14 ilə yaxındır həbs həyatı yaşayan sabiq səhiyyə naziri Əli İnsanovun azadlığa buraxılacağı gözlənilir.**

*Xızının keçmiş icra başçısı, sabiq deputat, YAP-ın qurucularından sayılan Maksim Musayevlə həm sabiq nazirin azadlığı, həm də digər aktual məsələləri dəyərləndirdik.*

**- Maksim bəy, əfv sərəncamı ilə azadlığa buraxılacaq məhbuslar arasında keçmiş silahdaşınız Əli İnsanovun da olacağı deyilir. Bu xəbərlər barədə nə deyə bilərsiz?**

- Birmənalı şəkildə onun azad olunmasının tərəfdarıyam. Xalq arasında Əli İnsanovun həbsdə saxlanılmasına yaxşı baxmırlar. Onunla birlikdə deputat olmuşuq, YAP-ın yaradılmasında iştirak etmişik, Heydər Əliyevin hakimiyyətə gəlməsi üçün biz də mübarizə aparmışıq. Onun nəinki Heydər Əliyevin hakimiyyətə gəlməsində, Azərbaycanda normal dövlət qurulmasında böyük rolu olub. Üstəlik, o, elə nazirlərdən idi ki, ən ağır günlərdə İrəvana getdi. Qayıdandan sonra səfərin necə olduğunu soruşdum. Danışığından məlum oldu ki, orada dəyanətlilik göstərib. Eyni zamanda uşaq vaxtı gəzdiyi İrəvan küçələrindən kədərlə danışdı. Onun parlamentdə deputat kimi yaxşı çıxışları olurdu. Nazir olduğu illərdə səhiyyəmizdə müəyyən dəyişikliklər də oldu. Özü də bu dəyişikliklər büdcəmizin ən kasıb olduğu illərə təsadüf edirdi. Martın 22-də onun doğum günüdür, 73 yaşı tamam olacaq. Mənə elə gəlir ki, cənab prezident bütün bunları nəzərə alaraq onun adını əfv siyahısına salsa, hamı razı qalar. Əli İnsanov iki qardaşının yasına belə gələ bilməyib. Artıq 14 ilə yaxındır ki, həbsdədir. Həbsdə olmaq istənilən halda öz sözünü deyir. Onun yaşı elə həddədir ki, azad olunma vaxtı çoxdan çatıb. Kiçik qardaşı Əhmədin hüzründə iştirak etdim və gördüm ki, İnsanova qarşı nə qədər böyük münasibət var. Minlərlə insan başsağlığına gəlmişdi. Bu çox şeyi deyir. Bəlkə də Azərbaycan həbsxanasında onun yaşda məhbus yoxdur. Alim kimi də güclü idi. Azad Mirzəcanzadə deyirdi ki, Əli İnsanov kimi alimlər ölkəmizdə azdır. İnanıram ki, Əli İnsanovu azadlığa buraxacaqlar.

**- Siz də yəqin müşahidə edirsiniz ki, ölkə müxalifətinin bir qismi sabiq səhiyyə nazirinə bir ümid yeri kimi baxır, onun üzərində bir lider imici formalaşdırır. Bəlkə də bu səbəbdən Əli İnsanov hələ də həbsdədir?**

- Əli İnsanov olduqca müstəqil fikirli adamdır. Düşünürəm ki, müxalifət bu işdə düzgün mövqe tutmur. Tutaq ki, İnsanov azad olundu, sonra nə edəcək? Onu tanıdığım qədəri ilə deyə bilərəm ki, Heydər Əliyevə necə sədaqətli idisə, bu şəkildə də davam edəcək. Onu tanıyan biri kimi onun müxalifətə qoşulacağına qətiyyən inanmıram. İnsanovu kənardan kimsə nəyəsə yönəldə bilməz. Digər tərəfdən, o, həbsxanadan çıxan kimə niyə müxalifətə qoşulsun ki? Müxalifət sözsüz ki, ətrafını gücləndirmək istəyir. Amma İnsanovun o düşərgədə olacağını qətiyyən düşünmürəm. Əgər onun ətrafına kimlərsə yığılacaqsa, bunlar keçmiş YAP-çılar olacaq. Bu da səbəbsiz deyil. Ölkədə elə məmurlar var ki, daxildə narazılıq yaradıb, müxalifəti iqtidarın üzərinə gətirirlər. Bu məmurlar talançılıq, oğurluq edir, rüşvət alır, vətəndaşları qəbul etmirlər. Müxalifət də bunu görüb deyir. Bu məmurlar prezidentə köməklik göstərmək üçün bu cür işlərlə məşğul olmasalar, belə hallar baş verməz. Vaxtilə biz vəzifədə olanda rüşvət almadıq və indi də yaşayırıq. Fakt odur ki, xalqı narazı salan iqtidarda olanlardır. Təsəvvür edin ki, Prezident Administrasiyasında elələri var ki, 20-25 ildir orada otururlar, hələ bir rayona belə getməyiblər. Necə olur ki, cənab prezident ayda 2-3 dəfə ayrı-ayrı rayonlara səfər edir, amma bunlar yerlərində otururlar. Konkret ad da çəkərəm, sadəcə, ağzıma heyfim gəlir. Belə çıxışlarım olan kimi ya maşınımı əzirlər, ya da Xızının icra başçısı gedib hasarımı sökdürür. Bəzən də olur ki, işıqlarımı söndürtdürür, suyumu kəsdirir.



**“Prezident nə üçün ərizələri özü yığmalıdır? O rayonlarda YAP sədrləri, müavinləri yoxdurmu? Hərəsinin altında 4-5 maşını var”**

**- Dediniz ki, vəzifədə olanda rüşvət almamısınız, amma indi normal yaşayırsız...**

- Bir fakt deyim. Kazanda yaşayan Hacı Elman adlı birisi gətirib stolumun üstünə 1 milyon dollar qoydu. Ömrümdə dolları nə çamadanda, nə də o qədər görmüşdüm. Məndən torpaq istəyirdi.

Rüşvətə hər zaman nifrət bəsləmişəm. İndi normal yaşayıram, övladlarımı da normal şəkildə böyütmüşəm. Bir milyon dolları götürməməyimlə bağlı arxamca danışırlar ki, bunun başı xarab olub, əlində bu qədər imkanları varkən istifadə etməyib. Bir adam tapıla bilməz ki, mənə rüşvət verdiyini desin. Heç kəs yalandan üzümə dura bilməz. Amma bunlar kreslonu qamarlayan kimi əndazəni aşırlar. Papaqlarını ortalığa qoyub rüşvət tələb edən məmurlar utansın. Hər kəs onu da görür ki, murdar yollarla yığdıqları pulları belə yeyə bilmirlər. Allah onları cəzalandırır.

**- Prezident İlham Əliyev xalq arasında rəğbətlə qarşılanan bir-birinin ardınca sərəncamlar verir. Bunları necə dəyərləndirirsiz?**

- Ölkə başçısı ilə beş il bir parlamentdə təmsil olunmuşuq. Onun bacarığına, milli ruhuna bələdəm. Amma məmurlar, YAP-ın daxilindəki problemlər görülən müsbət işlərə ciddi mane olur. Təsəvvür edin ki, məni 18 ildir YAP-ın tədbirlərinə dəvət etmirlər. Bilirlər ki, sərt danışacam. YAP indi dövlət, xalq üçün çalışmayan bir quruma çevrilib. Kommunist Partiyasının 70 il ərzində Azərbaycanda üzvləri 400 mini keçməyib. Onun da 50 mini üzvlüyə namizəd idi. Bunlar deyirlər ki, 700 min üzvümüz var. Əgər bu qədərsinizsə, ölkədə ciddi problemlər varkən niyə səsiniz çıxmır? İşiniz qop etməkdir? Prezident nə üçün ərizələri özü yığmalıdır? O rayonlarda YAP sədrləri, müavinləri yoxdurmu? Hərəsinin altında 4-5 maşını var.

**- Bu il parlament seçkilərinin olacağı yönündə xəbərlər dolaşır. Əgər bu olarsa, iştirak edəcəksiniz?**

- Qətiyyən. Bəzi lal, kar, vilayətpərəst, oğru deputatların yanında özümü görə bilmərəm. Deputat ki, xalqın içərisində olmadı, gedib onun dərdini öyrənmədi, qanun hazırlayıb vermədi, o nəyin deputatıdır? Bu səbəblərdən özümü parlamentdə görmürəm. Milli Məclisi gözdən salan deputatlardır. Bunu ümumi şəkildə hamısına şamil etmirəm. Orada sözünü deyən savadlı deputatlar da var. Parlament haqqında kitab yazıram. Spikeri də, ayrı-ayrı deputatları da təhlil edirəm.

**- Mitinq müraciətlərinə son aylarda birmənalı rədd cavabı verilir. “Qarabağa azadlıq” şüarı ilə aksiya keçirmək istəyən Qarabağ Komitəsinə icazə verilməməsi daha çox müzakirələr doğurub. Sizcə, mitinqlərə nə üçün icazə verilmir?**

- Bütün mitinqlərə icazə verilməlidir. Kimin içərisində nə varsa, onu meydana çıxıb boşaltmalıdır. Müxalifətin arxasınca gedən 5-10 min insan bir azdan getməyəcək. Çünki bir sıra problemlər getdikcə həll olunur. Bu problemlər isə ona görə indiyə qədər həll olunmayıb ki, YAP passivdir. Ayda azından iki dəfə prezidentə məlumat verilməlidir ki, filan sahədə hansı problemlər var. Cənab prezident nəyi necə etməyi yaxşı bilir. Qarabağ şüarı altında planlaşdırılan mitinqlərə niyə də icazə verilməsin? Mən mitinq tərəfdarıyam, aksiyaları qadağan etmək düzgün deyil. Bu, demokratiyanın əleyhinə getmək deməkdir. Tənqiddən adam qorxmamalıdır. Tənqid olan yerdə iş yaxşı gedir. Vəzifə başında oturanların çoxu heç mitinqin nə olduğunu anlamırlar. Vəzifə maşınında gedib-gəlməklə iş bitmir ki. Onlar xalqdan ayrılıblar. Müxalifətin mitinqinə icazə verilməyəndə guya onlar danışmırlar ki? Sosial şəbəkələrdə kim nə istəyirsə, onu danışır. Tənqid zamanı elə bir məsələ üzə çıxa bilər ki, dövlətçiliyimiz, iqtisadiyyatımız üçün xeyirli olar. Məmurların fəaliyyətsizliyi ucbatından işlərin çoxu prezidentin üzərinə düşüb.

**Cavanşir ABBASLI**
**“Yeni Müsavat”**

---

# Massaçusetsdə və Mahaç-qalada tələbə qəbulu



**Samir SARI**

**Ötən ilin ortalarında məhkəmədə xeyli adama qarşı dələduzluq edən bir qadın mühakimə olunurdu. Onun qurbanları arasında əməkdar artist, müğənni Könül Kərimova da vardı.**

İttiham aktında bildirilirdi ki, M.Məmmədova müğənninin oğlu Rəşadı Rusiya universitetlərindən birinə qəbul etdirmək, daha sonra Azərbaycan Dövlət İqtisad Universitetinə köçürtdürmək vədi verib. Arada 30 min manatın söhbəti gedirdi. İşdüzəldən qadın müğənni xanımın oğlunu nə Rusiyada ali məktəbə düzəldə bilmişdi, nə də aldığı pulu qaytarmışdı. Nəticədə məsələ yoğunlamış, gəlib məhkəməyə çıxmış, mediaya düşmüş, ictimailəşmişdi.

Bu gün isə belə bir xəbər var: “ABŞ-ın Massaçusets ştatının hüquq-mühafizə orqanları irimiqyaslı korrupsiya sxeminin üstünü açaraq, 50-yə yaxın adamı polisə çağırıb. Onların içində Felisiti Haffman və Lori Laflin kimi teleulduzlar da var. Onlar övladlarının universitetə daxil olması üçün vasitəçilərə rüşvət verməkdə suçlanırlar” .

Ta nə oldu? Felisiti Hafmannla Könül Kərimovanın arasında bir fərq qalmadı, bu heç, bəs o boyda Massaçests ştatı nədən gəlib ölkəmizlə eyni dərdə düşdü?

Orada da bisavad övladını pul-para gücünə universitet tələbəsi etmək istəyənlər var, burada da. Burada da bu işi görmək üçün valideynlərdən rüşvət alan dələduzlar var, orada da.

CNN-in aparıcısı bunu “əsl rəzalət və rüsvayçılıq” adlandıraraq deyib ki, bu, ABŞ-dakı cəmiyyət içindəki ədalətsizliyin dərinliyini göstərir, belə çıxır ki, əgər sizdə pul varsa istədiyinizi ala bilirsiz, çünki hər şey satılır.

Yadıma düşür ki, o vaxt biz də belə yazırdıq, qeyd edirdik ki, çox pulu olanlar ölkədə hər şeyin alınıb-satıldığını düşünürlər.

Görəsən, başqa hansı ölkədə belə şey var? Əlbəttə, Rusiya, Türkiyə və Ukraynadakı durum bəllidir. Pul gücünə oradakı universitetlərdə nəinki tələbə olmaq, hətta müəllim də düzəlmək olar, hələ desən, bir az pul basıb rektor keçmək də mümkündür.

Tərifli Avropa ölkələrində necə, pulla universitetə uşaq düzəltmək ənənəsi varmı? Gərək xaricdəki dostlardan soruşaq, öyrənək. Kim bilir, bəlkə Kembric universitetinin “yurfak”ının (hüquq fakültəsi), yaxud Oksfordun “leçfak”ının (müalicə-profilaktika fakültəsi) qəbul qiymətləri çox da baha deyil.

Avropalı, amerikalı olanda nə olar, onlar da istəyirlər ki, övladları gələcəkdə gömrükdə, vergidə, prokurorluqda işləsinlər. Məsələn, adamın özü deputatdırsa, hesab edir ki, onun oğlu Massaçesetsin paytaxtı Boston şəhərinin yaxınlığında bostançı və yol kənardakı avtoservisdə çilingər yox, məsələn, qəsəbə şerifi olsa yaxşıdır.

Bizdə müğənni Könül Kərimova öz övladı barədə nə fikirləşibsə, orda Felisiti Hafman da elə fikirləşib, hər ikisi öz övladının xoşbəxt olmasına çalışıb.

İntəhası, dələduz adam Masallıda da eyni cür hiyləgərdir, Massaçusetsdə də. Onların da hər ikisi fikirləşir ki, pulu çox olmaq hələ çox ağıllı olmaq demək deyil, aldadıb əllərindən almaq lazımdır.

Hər il bizdəki dələduzlar N qədər valideyni aldadır, övladlarını “yaxşı universitetə düzəldəcəklərini” vəd edərək ətək-ətək pullarını əllərindən alırlar.

Təcrübə və gələn informasiyalar göstərir ki, dələduzlara pul qapdırmış 10 adamdan 7-si “it aparan olsun” deyir, adlarının dilə-dişə düşməsini istəmədiklərindən şikayətçi olmur. Hər 10 zərərçəkəndən isə 3-ü sital çıxır, pullarını almayınca əl çəkmirlər.

Bəzən onlar dələduzu tutdurmağa müvəffəq olurlar. Belə olanda peşəkar dələduz qapazladığı pulların bir yarısından keçir, zərərçəkənlərdən 3-nün pulunu qaytarır, 5-nin pulunu isə ciblərinə qoyub növbəti mövsümə hazırlaşır.

Sual çıxa bilər ki, yaxşı, dələduz 3 şikayətçinin pulu qaytardı, 5-nin də pulunu cibinə qoydu, bəs yerdə daha 2 zərəçəkən qaldı axı, onların pulu necə olur?

Özünüz hesab edin, o pullar necə ola, kimlərə çata bilər.

***P.S.** Gərək kriminal müxbirimizdən soruşum, görüm, Könül Kərimovanın dələduz qadına yedirtdiyi 30 minin taleyi necə oldu, övladını başqa bir universitetə düzəltdirə bildimi? Bizim bir tanış var, onun Mahaç-qala universitetində tanışları çoxdur, deyir, lazım gəlsə...*

Yeni MÜSAVAT
N 59 (7229) 15 mart 2019



# Uşaq pulunun afterşokları

Zamin HACI
zaminhaci@gmail.com

"Cibindən bir dəstə kağız pul çıxardı. Bir üçlük qaval çalanın papağına taxdı. Bir üçlük də kamançaçının cibinə basdı. Sonra bir üçlük atdı Vəliquluya ki, Məmmədhüseynə versin".

*(Mirzə Cəlil, "Quzu" hekayəsindən)*

**Dünən günorta saat 1 radələrində Şamaxıda 3 bal gücündə zəlzələ olmuşdur. Respublika zəlzələ idarəsinin informasiyasına görə zəlzələnin episentri 10 kilometr dərinlikdə imiş, Şamaxı ərazisində də bunun gücü 3 bal hiss edilmişdir.**

Məncə, biz qətiyyən arxayınlaşmayaq, zəlzələnin törətdiyi dağıntı və fəsadları araşdırmağa başlayaq. Doğrudur, məlumatda bu haqda heç nə deyilmirdi, ancaq nə biləsən... Bəlkə harasa dağılıb? Kiminsə evində çatlar yaranıb, ailəsi çöllərə düşüb? Nəsə deyilmirsə, bu, onun olmadığını bildirməz. Hətta gözünlə görməsən də inanma. Ona qalsa mən bu saat Donald Trampı şəxsən görmürəm, deyim ki, Amerika başsız qalıbdır? Demərəm. Sözgəlişi, Amerikada universitetlərə pullu adamların uşaqlarının qanunsuz qəbul edilməsi qalmaqala səbəb olmuşdur. Çox gülməli hadisədir, sən demə, bizim Təfəkkür və Beynəlxalq, San Marino universitetləri kimi ali məktəblər Amerikada da varmış. Pulunu verirsən yerli "Elşad Abdullayevə", 5 ildən sonra prokuror, həkim, nə bilim, mühəndis-zad diplomunu alıb asırsan divardan. Hələ bir Futurologiya-mız var idi, kimin yadına gəlir? Təsəvvür elə, dünyanın gələcəyini öyrənirdik. 90-cı illərdə. Fısqırıq söhbətlər olub, unutmuşuq. Biləcəridə Dəmiryolçular Xəstəxanasının binasında bir kişi nəsə universitet açmışdı, sonra bir gün tüfəng götürüb bütün ailəsini qırdı. Əcaib rektor idi. Ancaq mənim şəxsi yaddaş blokumda birinci yeri şübhəsiz Teylor Fətişoğlu adlı bölgə müxbirinin Beyləqanın Daşburun kəndində açdığı universitetin hüquq fakültəsi tutur. Bəlkə də oranı qurtaranlardan indi Konstitusiya Məhkəməsinin hakimi işləyənlər var, biz xəbərsizik.

Qayıdaq zəlzələnin yanına, çox uzaq gedib oxucuları çaşdırmayaq. Zəlzələ ciddi hadisədir, çünki Yerin üstündə dayandığı filin altındakı tısbağa tərpənəndə, ya elə fil özü milçəklərini qovanda (bu haqda səhih hədislər var, Vasim müəllimdən eşitmişəm) görürsən evlər silkələndi, divar yarıldı. Ancaq biz özümüzü itirməyək, dərhal dövlət proqramı lazımdır. Zəlzələnin dövlət büdcəsində və ehtiyat fondunda açdığı yarıqlar qapanmamış xalqa yardım eləməliyik. (Nəsimi adına Dilçilik İnstitutundan görkəmli dilşünas alimimiz Dilavər Dilbazinin araşdırmalarına görə, "yardım" sözü elə "yarıq" sözündən yaranmışdır. "Yaranmaq" da "yarıqdan çıxmaq" deməkdir. Yar, yəni sevgili sözü isə... Nəsə, yarıdan qayıdaq, yenə mövzu afterşoklara uğramaqdadır).

Ümumiyyətlə, belə balaca, xudmani zəlzələlərdən nə qədər çox olsa, dövlətçiliyimiz o qədər möhkəm olar, zəhmətkeşlərin idarəçilikdə, demokratiyada iştirakı arzuedilən səviyyəyə çatar. Örnək üçün, İranda zəlzələ çox olur, o səbəbdən camaat Allaha inanır. Bir üləma isə buyurmuşdur ki, zənənlər saçını örtməyəndə zəlzələ olur. İndi biz maraqlanmalıyıq, görəsən dünən günorta radələrində hansı verilişdə Afaq Aslanı göstəriblər? Həmçinin, götürək elə yaxın qonşumuz Yaponiyanı. Orda da zəlzələ olmayan gün camaat çaşır, deyirlər görəsən Allahın xoşuna gəlməyən nə elədik ki, ayağımızın altından yer qaçmır. Zəlzələni araşdırmaq yolu ilə yaponlar məşhur alim olmuşdur. Demək, bizdə də Şamaxı hadisələri elmin inkişafına təkan verəcəkdir. Burdan o nəticə çıxır ki, milli elmlər akademiyasına ehtiyat fonddan yardımlar ayırmalıyıq. Şairlərə meşədə ev tikirik, ancaq alimlər Bakıda evsiz qalıblar, dava eləyirlər.

O cümlədən uşaq pulunun bərpasını unutmamalıyıq. Bu da çox vacibdir. Hər dəfə zəlzələ olanda nə qədər uşaq qorxur. Elə keçən dəfəki zəlzələdən sonra rayonda bir uşağın qolu qırılmışdı, mən onun intervüsünə baxdım, dedi ki, evdə qaçaqaç düşdü, qapının ağzında yıxıldım, atam qolumun üstünə çıxdı, xəsarət aldım. Gör bizdə necə mehriban valideynlər vardır.

Yaxşı yadıma düşdü, 2000-ci ilin noyabr zəlzələsi vaxtı da bir kişi ailə-uşağı evdə qoyub özünü balkondan atmışdı. Nəticədə ayağı sınmışdı, ancaq ailəsinə heç nə olmamışdı. Düzü, bilmirəm o kişini təzə tarixlə dövlət büdcəsinin ehtiyat fonduna salıb yardım eləmək humanizm olarmı, olmazmı...



# Ermənilərdən Gürcüstan prezidentinə qarşı təxribat

## Salome Zurabişvili İrəvanda "Qarabağ münaqişəsində xalqların öz müqəddəratını təyinetmə hüququ ön planda olmalıdır" deyibmi?

**Gürcüstan prezidenti Salome Zurabişvili Azərbaycana səfərinin ardınca martın 13-də Ermənistana səfər edib. Erməni saytlarının yazdığına görə, İrəvanda erməni həmkarı Armen Sərkisyanla keçirdiyi mətbuat konfransında S.Zurabişvili bildirib ki, xalqlar öz müqəddəratını təyinetmə hüququna malikdir, buna hörmət edilməlidir. Erməni saytları bu barədə yaydıqları xəbərdə Gürcüstan prezidentinin hətta "xalqlar" sözü ilə yanaşı "o cümlədən erməni xalqı" ifadəsini işlətdiyini də bildiriblər.**

S.Zurabişvili həqiqətən bu cür açıqlama verə bilərmi və bu cür açıqlama Gürcüstanın özünə də zərər deyilmi? Ola bilərmi ki, erməni saytları gürcü prezidentə qarşı təxribat edirlər?

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** bildirdi ki, Gürcüstan prezidenti Salome Zurabişvilinin Azərbaycandan sonra Ermənistana rəsmi səfər edəcəyi gözlənilən idi. Səfərin birinci Azərbaycana edilməsi o demək idi ki, Gürcüstanın bölgədəki əsas tərəfdaşı məhz Azərbaycandır: "Salome Zurabişvilinin prezident seçkisindən əvvəl ermənilərin yaşadığı bölgədə verdiyi açıqlamalar Azərbaycanda narahatlıq yaratmışdı. Ancaq Zurabişvili Bakıdakı açıqlamalarında Gürcüstanın Azərbaycanla strateji tərəfdaşlığa sadiq qalacağını bildirdi. Salome Zurabişvili martın 13-də Ermənistan səfərinə "erməni soyqırımı" abidəsinin ziyarəti ilə başladı. O "soyqırım" muzeyində də oldu. Bu o demək idi ki, Zurabişvili 100 il əvvəl ermənilərin "soyqırımla" üzləşməsinə inanır. Aydındır ki, bu, Azərbaycanda və Türkiyədə xoş qarşılana bilməz. Ermənistana səfər edən rəsmilər heç də həmişə protokola görə "soyqırım" abidəsini ziyarət etmirlər. Bu o deməkdir ki, həmin rəsmilər "soyqımla" bağlı erməni versiyasını qəbul etmirlər, Türkiyə və Azərbaycanla münasibətlərdə suallar yaratmaq istəmirlər. Salome Zurabişvili "soyqırım" abidəsini ziyarət edirsə, demək, bununla əlaqədar olaraq Türkiyə və Azərbaycandakı narazılıq onu narahat etmir.

Salome Zurabişvili İrəvanda əvvəlcə Ermənistanın baş naziri Nikol Paşinyanla görüşdü. Təkbətək görüşdən sonra heyətlərarası görüş oldu. Paşinyan onu xatırlatdı ki, o baş nazir vəzifəsində ilk səfərini Gürcüstana edib. Başqa cür ola da bilməz. Ermənistan Gürcüstandan asılıdır. Rusiya ilə Ermənistan arasında idxal-ixrac əməliyyatları və qaz nəqli tamamən Gürcüstan üzərindən həyata keçirilir. Gürcüstan Ermənistan üçün vacib nəfəslikdir. Gürcüstanla Rusiya arasında diplomatik münasibətlərin bərpa olunmamasına baxmayaraq, Tiflis Gürcüstan üzərindən Rusiya-Ermənistan əməkdaşlığına mane olmur. Paşinyan Zurabişvili ilə görüşdə belə bir ifadə işlətdi: "Ermənistanla Gürcüstan arasındakı münasibətlər ortaq strateji maraqlar üzərində qurulmalıdır". Bu bir istəkdir. Məsələ burasındadır ki, prinsipial məsələlərdə iki ölkənin üst-üstə düşən strateji maraqları yoxdur".

**E.Şahinoğlu qeyd etdi ki, Rusiya Ermənistanın stareji müttəfiqi olduğu halda Gürcüstanla münasibətləri dondurulmuş haldadır. Rusiya Gürcüstanın Abxaziya və Cənubi Osetiya bölgələrini işğal altında saxlayır. Gürcüstan üçün əsas ərazi bütövlüyü prinsipidirsə, Ermənistan üçün "xalqların öz müqəddəratını təyinetmə hüququ" başlıcadır:** "Gürcüstan NATO üzvlüyünə çalışır, Ermənistan isə əks hərbi blokda Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında yer alıb. Ona görə də Paşinyanın Gürcüstanla "strateji maraqlar" haqqındakı ideyası reallığa söykənmir. Salome Zurabişvili İrəvandakı çıxışında dedi ki, Gürcüstanda yaşayan ermənilərin və azərbaycanlıların sülh şəraitində yaşamalarını istəyir. Zurabişvili bu sözləri ilə ona işarə edir ki, son günlərdə Gürcüstanda ermənilərlə azərbaycanlılar arasında münasibətlərdə gərginlik var. Bunun da səbəbkarı Xocalı soyqırımında iştirak edən terrorçuya abidənin qoyulması, Tiflisin buna seyrçi qalması, azərbaycanlıların isə haqlı etiraz etmələridir. Zurabişvili onu da aydın başa düşür ki, Azərbaycanla Ermənistan arasında müharibə başlasa, Gürcüstan bu prosesdən kənarda qala bilməyəcək, bu ölkədə yaşayan iki millət arasında da qarşıdurmalar olacaq".

**Politoloq vurğuladı ki, "xalqların öz müqəddəratını təyinetmə hüququ" ifadəsini Ermənistan prezidenti Armen Sərkisyan Salome Zurabişvili ilə görüşdə işlədib:** "Sərkisyan bölgədəki münaqişələrin fərqli olduğuna işarə edərək belə bir cümlə işlətdi ki, "Münaqişələr danışıqlar yolu ilə həll olunmalı, Qarabağ münaqişəsində isə xalqların öz müqəddəratını təyinetmə hüququ ön planda olmalıdır". Sərkisyan "münaqişələr fərqlidir" açıqlamasıyla sanki Abxaziya, Cənubi Osetiya münaqişəsini Dağlıq Qarabağ münaqişəsindən ayırmaq istəyir. Yəni bir növ İrəvan Gürcüstan nümunəsində Abxaziya və Cənubi Osetiyanı sözdə Gürcüstanın tərkib hissəsi kimi tanıyarkən, Dağlıq Qarabağ nümunəsində də fərqli yanaşma ortaya qoyur. Təəssüf ki, Salome Zurabişvili İrəvandakı açıqlamalarında bölgədəki bütün münaqişələrin ərazi bütövlüyü prinsipi əsasında həlli vacibliyini vurğulamadı, Azərbaycanda bir söz, Ermənistanda fərqli söz dedi".

**Həmsöhbətimiz onu da dedi ki, Gürcüstan prezidenti seçim etməlidir:** "Salome Zurabişvilinin Ermənistan prezidentini Batumi konfransına dəvət etməsi də sual doğurdu. Çünki birincisi, Batumi konfransında əsas mövzu nəqliyyat xətləri olacaq. Bölgədəki nəqliyyat xətlərinin mütləq əksəriyyəti Azərbaycandan, Gürcüstandan və Türkiyədən keçir. Azərbaycan haqlı olaraq Ermənistanı bütün bu layihələrdən təcrid edib. Bu baxımdan Ermənistan prezidenti Batumidə nəyi müzakirə edəcək ki? İkincisi, Salome Zurabişvişi Batumi konfransına Azərbaycan prezidenti İlham Əliyevi də dəvət edib. İlham Əliyev gürcü həmkarına təklif edib ki, iki ölkənin birgə nümayəndələri Çində də təqdimat keçirsinlər. Bu onu göstərir ki, İlham Əliyev Çinin də Azərbaycan və Gürcüstanın iştirak etdiyi nəqliyyat dəhlizinə qoşulmasını istəyir. Ancaq əgər Batumi konfransına Ermənistan prezidenti gələcəksə, Azərbaycan prezidentinin iştirakı sual altında olacaq. Çünki Azərbaycan Ermənistanla eyni regional layihələrdə iştirak etmir. Odur ki, Salome Zurabişvili seçim etməlidir".

Ekspertin yuxarıda qeyd etdiyindən belə məlum olur ki, "xalqların öz müqəddəratını təyinetmə hüququ" ifadəsi ilə erməni saytları Gürcüstan prezidentinə qarşı təxribata yola veriblər. Ermənistan prezidentinin dilindən çıxan ifadələrin Gürcüstan prezidentinin adına yazılması təxribat sayıla bilər.

❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"




# "Azərbaycan işğalçının işini 3 günə bitirə bilər" - Moskvadan ermənilərə siqnal, Bakıdan mesaj

## Torpaqlarımızı işğaldan azad etməyin zamanı yetişib; danışıqlar xətrinə danışıq dövrü bitir; "Hərb, yoxsa sülh" dilemmasını çözə bilməyən İrəvana son ismarışlar...

**Bu gün - martın 15-də Azərbaycan Silahlı Qüvvələrinin 5 günlük genişmiqyaslı təlimləri başa çatır. Xatırladaq ki, təlimlərə 10 min nəfərədək şəxsi heyət, 500-dək tank, zirehli texnika, eləcə də avtomobil və xüsusi texnika, 300-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəşi sistemi və minaatan, 20-dək müxtəlif təyinatlı ordu və cəbhə aviasiyası cəlb olunub.**

Təlimlərdə qoşunlar hücum əməliyyatının hazırlanması, şərti düşmənə bir neçə istiqamətdə zərbə vurulması, onun müdafiəsinin yarılması və qruplaşmalarının darmadağın edilməsi, eləcə də düşmən ərazisinin dərinliyində yerləşən hərbi və strateji obyektlərə raket-artilleriya zərbələrinin endirilməsi tapşırıqlarını yerinə yetirb. Eyni zamanda təlim mərkəzləri və ümumqoşun poliqonlarında müasir silah sistemləri və vasitələrinin tətbiqi ilə döyüş atışları, o cümlədən raket buraxılışları praktiki icra olunub. Yeni müasir silahlar, o cümlədən Belarusdan alınan "Polonez" yaylım zenit-raket sistemlər uğurla sınaqdan çıxarılıb.

*****

Əksər hərbi və siyasi təhlilçilərə görə, Azərbaycanın budəfəki təlimləri daha çox "format dəyişikliyi" tələbi ilə işğal rejimini uzatmağa, sülh danışıqlarını bombalamağa çalışan Ermənistana sərt xəbərdarlıqdır. O anlamda ki, konstruktiv danışıqların alternativinin işğalçı tərəf üçün qəfil və dağıdıcı müharibə olacağını baş nazi Nikol Paşinyan və komandası aydın dərk etməlidir.

Yeri gəlmişkən, dünən Bakıda keçirilən VII Qlobal Bakı Forumunda çıxışı zamanı Azərbaycan prezidenti İlham Əliyev bir daha Ermənistan rəhbərliyini sələflərinin yolu ilə getməməyə və Qarabağ məsələsində konstruktiv mövqe tutmağa çağırıb.

**Prezident bu xüsusda deyib:** "Ermənistan hökuməti danışıqların formatını dəyişməyə cəhd edir. Bu qəbuledilməzdir və konfliktin nizamlanmasına dair danışıqlar prosesini bloklamaq cəhddir". İlham Əliyev Avropa Birliyinin yüksək çinli rəsmlərinin, habelə ATƏT-in Minsk Qrupu həmsədrlərinin də danışıqların formatını dəyişdirməyin əleyhinə çıxdıqlarını diqqətə çatdırıb.

"Danışıqlar məhsuldar olmalı, danışıq xətrinə danışıq olmamalıdır. Bu danışıqlar Azərbaycan ərazilərinin işğaldan azad edilməsinə gətirməlidir" deyən ölkə başçısı status-kvonun qəbuledilməz olduğunu və beynəlxalq birliyin və vasitəçilərin də eyni mövqedə olduğunu vurğulayıb: "Biz bu mövqeyi dəstəkləyir və hesab edirik ki, status-kvo dəyişməlidir. Bundan ötrü də Ermənistan öz qoşunlarını işğal elədiyi Azərbaycan ərazilərindən çıxarmalıdır".

İlham Əliyev bir daha xatırladıb k, Qarabağ münaqişəsinin nizamlanması yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində mümkündür. "Bütün nüfuzlu beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və konfliktin bu prinsip əsasında nizamlanmasından çıxış edirlər", - deyə o bildirib.

*****

Bu, əslinə qalsa, rəsmi Bakının son vaxtlar "Hərb, yoxsa sülh" dilemması ilə üz-üzə qalan İrəvana daha bir ciddi xəbərdarlığı, lap dəqiqi, son ismarışıdır.

"Yeni Müsavat"ın məlumatına görə, görünür, Bakının əsaslı və sərt ritorikasının nəticəsidir ki, Qarabağdakı separatçı və qanunsuz rejimin qondarma prezidentinin "aparat rəhbərinin müavini" David Babayan 1 in.am portalına müsahibəsi zamanı "Belə çıxır, Stepanakert (Xankəndi - "YM") Paşinyanın Əliyevlə görüşünə etiraz etməyəcək?" sualına bu cür cavab verib: "Məsələ heç də onda deyil ki, Stepanakert (Xankəndi - "YM") lehinə, yoxsa əleyhinədir. Biz niyə əleyhinə olmalıyıq ki? Biz danışıqların davam etdirilməsinin və "Ana-Ermənistan"la aparılmasının necə əleyhinə ola bilərik? Məgər biz "Ana-Ermənistan"a etibar eləmirik?"

Ancaq Azərbaycan daha danışıq xətrinə danışıq aparmağa hazırlaşmır. Prezidentin vurğuladığı kimi, bu danışıqlar nəhayət ki, qanuni torpaqlarımızın azad edilməsinə gətirməlidir - ya sülh danışıqları ilə, ya da güc tətbiqi hesabına. Müstəqil hərbi ekspertlərin də etiraf elədiyi kimi, ordumuz bu missiyanı yerinə yetirməyə tam hazır vəziyyətdədir.

*****

"Son illərdə Azərbaycan hərbi imkanlarını əhəmiyyətli dərəcədə artırıb. Bu, ilk növbədə ordunun müasir hərbi texnika, radioelektron mübarizə vasitələri, pilotsuz uçuş aparatları, bir sözlə, müasir ordunun görünüşünü müəyyən edən bütün komplekslərlə təmin olunması ilə izah edilir". Bu barədə rusiyalı hərbi ekspert, "Milli Müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko CBC telekanalına müsahibəsi zamanı danışıb (axar.az).

Onun sözlərinə görə, bu baxımdan Azərbaycan Silahlı Qüvvələrinin bu gün apardığı böyük hərbi manevrlər ölkənin milli maraqlarını müdafiə etməyə hazır olduğunu bir daha nümayiş etdirmək, mövcud təhdid altında silahlı qüvvələrin hərəkətlərini uyğunlaşdırmaq, Azərbaycan Silahlı Qüvvələrinin postsovet məkanında ən yaxşı ordulardan biri kimi yüksək beynəlxalq nüfuzunu bir daha təsdiqləmək üçün nəzərdə tutulub.

**Beynəlxalq münaqişələr üzrə digər rus ekspert Yevgeni Mixaylov isə Azərbaycanın genişmiqyaslı hərbi təlimlər keçirməsinin təəccüblü hal olmadığını qeyd edib.** "Bu təlimlər ilk növbədə Azərbaycan Silahlı Qüvvələrinin effektivliyini, döyüş qabiliyyətini göstərmək, bütün hissələrin qarşılıqlı fəaliyyətini yoxlamaq üçün nəzərdə tutulub. Bu hərbi manevrlərin bir sıra ekspertlərin fikrincə, hücum təlimləri kimi görünməsi məsələsi isə təəccüblü deyil. Şəxsən mənim fikrimcə, Azərbaycanla Ermənistan arasında danışıqlar dövrü başa çatır. İrəvan bu baxımdan çox gərgindir, çünki hazırda Azərbaycanın bu qədər güclü olması və "yazıq" Ermənistana hücum etmək istəməsindən narahatdır. İrəvanın hətta qısa hərbi toqquşmalar şəraitində belə işğal edilmiş əraziləri saxlamaq şansı yoxdur. Azərbaycan sadəcə bir neçə gün ərzində ərazilərini hərb yolu ilə qaytarmağa qadirdir", - Mixaylov bildirib.

**Bizcə, əlavə şərhə lüzum qalmır...**

❑ **"Yeni müsavat"ın analitik xidməti**

# Rusiya öz vətəndaşlarına "Qarabağa getməyin" deyəcəkmi?



**Elşad PAŞASOY**
epashasoy@yahoo.com

**30 avqust 2018. Rusiya XİN-in sözçüsü Mariya Zaxarova: "Azərbaycan və Rusiya bütün sahələrdə əlaqələri planauyğun şəkildə inkişaf etdirir. Humanitar, siyasi, iqtisadi... indi hamısını saymaq çətindir".**

**16 yanvar 2019.** Rusiyanın xarici işlər naziri Sergey Lavrov: "Azərbaycanla münasibətlərə gəlincə, mən "sıçrayış" termininindən istifadə etmək istəməzdim, çünki bizdə münasibətlər sıçrayışlarla deyil, yetərincə sabit və yüksələn xətt üzrə inkişaf edir".

**13 mart 2019. Rusiya XİN:** "Biz israrla Rusiya vətəndaşlarına Azərbaycana səfər planlaşdırarkən mümkün riskləri diqqətli şəkildə ölçüb-bilməyi tövsiyə edirik!".

Nə baş verdi birdən-birə? Nədən Rusiya XİN-in rəhbəri və sözçüsü Bakı-Moskva münasibətləri barədə danışarkən "val"ı geri çevirdi?

Bu, həmin Zaxarovadır ki, ötən ilin iyununda Bakıda keçirilən "Jara" festivalında iştirakdan sonra heyranlığını gizlətməmişdi. Bir müddət öncə Azərbaycan və azərbaycanlılar barədə həqarətli sözlər desə də, baş verənləri kimsə onun üzünə vurmamışdı, qonaqpərvərlik əlaməti olaraq... Bəs nə oldu, cəmi bir neçə ay sonra bizləri "xoxan" libasında gördü bu erməni xislətli rəsmilər?

Özü də son yarım ildə bu, Rusiya XİN-in ikinci anti-Azərbaycan bəyanatıdır. Bundan əvvəl də Rusiya vətəndaşları olan ermənilərin Azərbaycana buraxılmamasından "narahatlıq" ifadə olunmuşdu. "Ötən il etnik əlamətinə görə azı 16 Rusiya vətəndaşının Azərbaycana buraxılmaması qeydə alınıb" - Mariya Zaxarova iddia etmişdi.

Təsəvvür edin, indiyədək Azərbaycanda bir Rusiya vətəndaşının burnu qanamayıb, amma Rusiya XİN "diskriminasiya"dan danışır. Sanki Rusiya bazarlarında ən müxtəlif bəhanələrlə incidilənlər Azərbaycan vətəndaşları, yaxud azərbaycanlılar deyil.

Təkcə 2018-ci ildə Azərbaycana gələn Rusiya vətəndaşlarının - turistlərin sayı 880 mini keçib. Ancaq Zaxarova bu fakta kölgə salmaq üçün 16 qotur erməninin söhbətini edir. Əslində Rusiya XİN Azərbaycana təşəkkür etməliydi, çünki Azərbaycana gələn ermənilər təbii səbəblərdən hansısa problemlərlə üzləşə bilərdi. Düzdür, bu vaxta kimi Bakıdan vurub Gəncədən çıxan ermənilər hansısa problemlərlə üzləşməyib. Amma nə qədər ki, Ermənistan Azərbaycan torpaqlarını işğalda saxlayır, hər cür hadisə baş verə bilər.

Azərbaycanda rus dilində 340-dan çox tədris müəssisəsi var. Ermənistandan fərqli olaraq, Azərbaycanda nəinki rusların, hətta rus dilinin sıxışdırılması halı belə yoxdur. Amma Lavrov və komandası İrəvana yox, Bakıya nota verir.

Sonuncu dəfə Rusiya XİN ermənipərəst mövqeyini ortaya qoyanda Azərbaycan Rusiyanın Bakıya təcili eniş etmiş təyyarəsindəki sərnişinlərilə məşğul idi. "Bomba həyəcanı" ilə Heydər Əliyev Hava Limanına eniş etmiş təyyarənin sərnişinlərinə ən yüksək səviyyədə diqqət göstərildi, onlar beşulduz otelə yerləşdirildi, sağ-salamat geri döndülər, özləri təşəkkür edərək. Buna görəmi Rusiya XİN "Azərbaycana getməyin" çağırışı edir?

Faktiki olaraq Rusiya israrla tələb edir ki, onun erməni vətəndaşları Azərbaycana heç bir sorğu-sualsız buraxılsın, burada istədikləri kimi şellənsinlər. Bu, nə beynəlxalq qanunlara, nə təhlükəsizlik qaydalarına, nə də ölkənin qanunlara uyğundur. Elə martın əvvəlində Tərtərin Bəyimsarov kəndində çəkiliş aparan Rusiyanın Krasnodar vilayətinin sakini İdiqov Alu Alamaxmadoviç polis tərəfindən saxlanılmışdı. Guya ki, onunla eyni şəhərdə yaşayan erməni dostu anasının Qarabağ müharibəsindən əvvəl orada yaşadığını, indi kəndi və evini görmək istədiyini deyib. Bəlkə də başqa məqsədləri varmış, kim bilir. Ola bilsin Rusiya XİN Krasnodar ermənisinin xətrinə dəydiyimizə görə qəzəblənib...

Məntiqlə rəsmi Moskva Rusiya vətəndaşlarına "Qarabağa getməyin" çağırışını etməliydi. Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfər etmiş və bu səbəbdən "qara siyahı"ya adları daxil edilmiş xarici ölkə vətəndaşlarının siyahısına Minsk Qrupunun həmsədr ölkəsi olan Rusiyanın (!) vətəndaşları başçılıq edir.

Ötən il Nikol Paşinyanın arvadı Rusiyadan bir dəstə qadın gətirmişdi Qarabağa. Siyahıda Rusiya Dövlət Dumasının Beynəlxalq əlaqələr komitəsinin sədr müavini Svetlana Jurova, rusiyalı yazıçı Lyudmila Ulitskaya, "Vera" beynəlxalq xeyriyyə fondunun təsisçisi Anna Federsmesser də var idi. Onlar daxil, Rusiya vətəndaşlarının adları "arzuolunmaz şəxslər" siyahısına salınıb. Ancaq Rusiya bircə dəfə də onlara iradını bildirməyib, "təhlükəlidir, getməyin" deməyib. Deyəcəkmi?..

YENİ MÜSAVAT
N 59 (7229) 15 mart 2019

# Eldar Əzizovun "Sovetski"də xüsusi planı - kompensasiya müjdəsi

## Prezidentin islahatlar paketində sökülən evlərə ödənilən təzminatın məbləğinin artırılması bəndi ola bilər; minlərlə mülkiyyət sahibi gözləntidə...

**Bakının "Sovetski" kimi tanınan ərazisi ilə bağlı xüsusi plan hazırlanır. Bunu Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov deyib. Onun sözlərinə görə, hazırda mütəxəssislər işləyir, maraqlı təkliflər hazırlanır, yaxın günlərdə ictimaiyyətə təqdim ediləcək. Əldə etdiyimiz xəbərdə deyilir ki, xüsusi plana kompensasiyanın məbləği də daxil ediləbilər. Hazırda hər evin kvadratmetri 1500 manatdan hesablanır.**





Ölkədə gedən sosial dəyişikliklər və islahat paketinin davamı olaraq, "Sovetski" sakinlərinə kompensasiyanın dəyərinin artırılması barədə müjdə veriləcəyi istisna edilmir.

Prezidentin həyata keçirdiyi son islahatlar, problemli kreditlərlə bağlı fərman, müavinətlərin, minimum əmək haqqının artırılması, incəsənət xadimlərinin maaşlarının qalxması, şəhid ailələrinə çatan qan pulunun tam həlli və s. sosial reformaların ardınca nəzərlər plana düşən evlərin təzminatına yönəlib.

Hökumət kluarlarında belə müzakirələr gəzişir ki, dövlət tərəfindən plana salınan obyektlərə, mənzillərə görə verilən kompensasiyalar qismən artırılsın. Bu xüsusda "Sovetski" məhəlləsi diqqət mərkəzinə gəlir.

Sakinlərə kompensasiyanın 1700-1800 manatdan hesablanması ehtimalı var. Bu da kifayət qədər ciddi rəqəmdir və mülkiyyət sahiblərinin daha yaxşı evlər almasına tramplin ola bilər.

Nəzərə alsaq ki, Bakıda mənzil bazarının real qiymətləri ilə hazırkı təzminatın məbləği bir o qədər uyğunluq təşkil etmir, o halda sosiayönümlü proseslərin gedişində bu addımın atılması da zəruridir.

Hökumət minlərlə vətəndaşa müjdə vermiş, dəstəyini qazanmış, səsini almış olacaq, eyni zamanda yaranmış müəyyən narazılığı tam aradan qaldıracaq.

Doğrudur, Nazirlər Kabineti deputatların "Sovetski"də sökülən evlərin kompensasiyasının məbləğini manatın inflyasiyası nəzərə alınmaqla, heç olmasa, hər kvadratmetrə görə 2 min manata çatdırmaq, yaxud onların sahiblərinə pul əvəzinə yeni tikilən binalarda hazır mənzillər vermək təklifinə o qədər də ürəkaçan cavab verməyib.

Lakin prezidentin müstəsna səlahiyyəti var və E.Əzizovun xüsusi plan hazırlanması barədə açıqlaması müəyyən işartılar, ip ucları verir ki, pozitiv qərarlar qəbul edilə bilər.

"Sovetski" ərazisindən köçürmənin birinci mərhələsi 2017-ci ilin avqustunda başa çatıb. Bu prosesdə 4 min 300 ailə ərazidən çıxarılıb. Həmin ərəfədə bir neçə sakin etiraz etsə də sonda onlar da verilən 1500 manat kompensasiya ilə razılaşıb, evlərini tərk ediblər.

Hazırda həmin sakinlər Bakının müxtəlif yerlərində məskunlaşıblar. Həmin köhnə evlərin yerində isə park salınır.

Ümumilikdə isə məlumata görə, bu günə kimi 26 hektardan çox sahəni əhatə edən ərazidə 5 mindən çox yaşayış və qeyri-yaşayış obyektləri dövlət ehtiyacları üçün sakinlərlə əldə edilmiş razılığa əsasən satın alınıb. "Sovetski"də birinci mərhələdə 40 hektar ərazi boşaldılıb.

6 hektar ərazidə 7,1 kilometr uzunluğunda asfalt-beton örtüyünün sahəsi 87,6 min kvadratmetr təşkil edən Nəriman Nərimanov, Abdulla Şaiq, Balababa Məcidov, Mirzağa Əliyev və Füzuli küçələrinin yenidən qurulması başa çatdırılıb. Sökülən evlərə görə sakinlərə hər kvadrata 1500 manat olmaqla kompensasiya ödənilib.

**"Bakının "Sovetski" adlanan ərazisində yaşayış üçün yararsız olan binaların sökülməsi və gələcək abadlaşdırmanı nəzərdə tutan layihə ən irimiqyaslı təşəbbüslərdəndir və ona görə də onun tam icrası azı bir il də davam edəcək".** Bu fikirləri Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədr müavini Dövlətxan Dövlətxanov ötən ay deyib.

Onun sözlərinə görə, bu layihə Bakının Baş Planının vacib lokal elementlərindəndir: **"Hazırda "Sovetski" ərazisində yaşayış evlərinin sökülməsinin ikinci mərhələsi davam edir.**

**Artıq demək olar ki, ərazinin böyük hissəsi istifadə üçün yararsız ev və tikililərdən azad edilib. Bu gün "Sovetski"də ümumi istifadə və istirahət üçün nəzərdə tutulmuş park zonasının yaradılması üzrə iş davam etdirilir.**

**Burada rekreasiya zonası yaradılır və artıq yaşıllaşdırma prosesi başlayıb. Bu işlər "Təzəpir" məscidinin olduğu yerə qədər aparılacaq".**

Komitə rəsmisi əlavə edib ki, Bakıda evlərin sökülməsi "Kubinka" adlanan ərazidə də planlaşdırılıb, amma bu prosesin başlayacağı tarixi indidən demək çətindir:

**"Bakıda lokal sökүntülər öz bizneslərinin böyüməsində maraqlı olan özəl şirkətlər tərəfindən həyata keçirilə bilər. Bu, istənilən tikinti təşkilatı və ya şəxs ola bilər".**

**❑ Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# Ziya Məmmədovun "pul yeyən mirası" - intellektual idarəetmə...

## NİİM-in reallaşması büdcəyə 100 milyon manata başa gəlib, bəs indi işləməyən monitorlara ayrılan vəsait hara xərclənir?






**Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzi(NİİM) Bakı Nəqliyyat Agentliyinə veriləndən sonra bu sistemin ayrı-ayrı komponentləri üçün bütövlükdə 29 milyon manat vəsait ayrılıb.**

"Yeni Müsavat" xəbər verir ki, informasiya texnologiyaları üzrə ekspert Osman Gündüz bu məlumatı facebook hesabında paylaşıb. Onun sözlərinə görə, NİİM nəhəng infrastrukturdur, tərkibində müxtəlif sektorlar, rəqəmsal xəritələr, proqram təminatları, divar monitoru, serverlər və s. var. Son iki ildə NİİM-in ayrı-ayrı komponentləri üçün bir neçə şirkətə toplam 29 261 302 manat vəsait ödənilib və bununla bağlı müqavilələr bağlanıb.

### Yoxa çıxan fiber optik infrastruktur, GPS və...

O.Gündüz bildirib ki, NİİM üçün BNA-ya 29 milyon ayrılması dəhşətdir. Bu sistem 2007-ci ildə yaradılıb. Artıq 12 il ərzində bu struktur təkmilləşməli, şəhərin ictimai nəqliyyat sistemi intellektuallaşmalıydı. Sanki qurum qeybə çəkilib, bu nəhənglikdə qurum mövcud deyil. Qurumun internet resursları da aktiv fəaliyyət göstərmir.

Əslində çox gözəl bir təşəbbüs olan intellektual idarəetmə mərkəzi, çox təəssüf ki, böyük miqdarda maliyyə ayrılan, lakin faydasını yetərincə görmədiyimiz layihələrdən oldu.

Nəqliyyat Nazirliyi və Cənubi Koreyanın birgə layihəsi olan NİİM-in reallaşmasına büdcədən 100 milyon manat vəsait ayrılmışdı. O zamankı nəqliyyat naziri Ziya Məmmədov bu layihə ilə bağlı böyük vədlər verirdi. O, bütün ölkəboyu bu sistemin işləyəcəyini bildirirdi. Təəssüf ki, nazirlik zamanında bu qurumun effektiv fəaliyyəti üçün zəruri olan addımları atmadı.

Dayanacaqlarda quraşdırılan və hərəsinin dəyəri az qala 10 min dollar olan monitorların vəziyyəti göz qabağındadır və ümumilikdə 100 milyonun necə göyə sovrulduğu göz önündədir. Yüzlərlə müşahidə kamerasına, kilometrlərlə fiber optik infrastruktura, yüzlərlə avtobusda quraşdırılan GPS tipli avadanlıqlara, dünyanın ən böyük monitoruna məxsus olan bu nəhəng infrastruktur tamamilə sıradan çıxıb. Kiyevdə intellektual idarəetmə sistemi təxminən 30 milyon manata başa gəldiyi halda, Bakıda bu sistemə 100 milyon xərclənməsinin heç bir məntiqi izahı yoxdur.

### Avtomatik işıqforlar, SMS sistemi da tam hazır deyil

NN-in Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə birləşdirilməsindən sonra NİİM BNA-ya verildi. Lakin son iki ildə də agentliyə ayrılan 29 milyon manatla heç bir ciddi addım atılmayıb. Əslində qarşıya qoyulan vəzifə Bakıda nəqliyyatı texnologiyaların köməyi ilə intellektual formada idarə etmək, işıqforları tam avtomatik idarə etmək, texnologiyalar vasitəsilə tıxacların qarşısının alınmasına və idarə olunmasına nəzarət etmək, SMS məlumatlandırma ilə tıxac vəziyyətindən çıxış, alternativlər təqdim etmək, sürücülərin məlumatlandırılmasını təşkil etmək və s. olub.

2015-ci ildə Bakı Nəqliyyat Agentliyi yaradılanda Nəqliyyat Nazirliyinin tabeliyində olan Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi BNA-nın tabeliyinə keçdi.

Yeni həmin tarixdən nəqliyyatın vahid mərkəzdən intellektual formada, mərkəzləşdirilmiş formada tənzimlənməsi BNA səlahiyyətindədir.

Ondan sonra qəbul edilən bütün fərman və sərəncamlarda, qərarlarda BNA-ya tapşırıqlar verilib ki, bu sahədə qayda yaradılsın.

### "Elektron protokol" sistemi nə tez işə düşdü?

Bakı şəhərindəki bütün işıqforlar Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi vasitəsilə mərkəzləşdirilmiş qaydada idarə edilməli idi. Hətta prezident fərmanı ilə DİN-in idarəetməsində olan işıqforlar da BNA-nın tabeliyinə keçirilib.

BNA-nın digər dövlət qurumları tərəfindən elektron qaydada məlumatlandırılması üçün də addımlar atılıb.

Yəni effektiv idarəetməni təşkil etmək üçün BNA-ya yetərincə köməkliklər olunub. Bütün bu tapşırıqlar isə 2015-2018-ci illər aralığında olub. Nəticə varmı? Nəqliyyat mərkəzləşdirilmiş formada, intellektual olaraq idarə olunurmu? Təəssüf ki, bu suala müsbət cavab vermək olmur.

Bu müddətdə BNA hansı addımları atıb? Köhnə infrastrukturdan nə qalıb, nələrdən istifadə olunur. Yeni hansı həllər təklif olunur?

Bu haqda heç bir rəsmi açıqlamalar yoxdur. Yeri gəlmişkən, prezident fərmanı ilə BNA-ya daha bir səlahiyyət verilib.

Dayanma və durmanın qadağan edildiyi yerlərdə elektron protokolların tərtib edilməsi məqsədilə foto və ya videoqeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələrin quraşdırılması və qaydanı pozanlarla bağlı tədbirlər görmək də BNA- ya tapşırılıb.

Qəribədir ki, 4 ildə əsas vəzifə olan NİİM problemini həll edə bilməyən BNA "elektron protokol" sistemini tezliklə quraşdırıb və dərhal da fəaliyyətə başlayıb

**BNA-nın mətbuat xidmətinin rəhbəri Mais Ağayev "Yeni Müsavat"a bildirmişdi ki, monitorların işləməməsinin bir neçə səbəbi var:**

"Bildiyiniz kimi, monitorlar bizdən öncə quraşdırılıb və quraşdırılan zaman da yaradılan sistemdə müəyyən çatışmazlıqlar olub. Digər bir yandan, bu monitorların işləməməsi müxtəlif vaxtlarda yollarda koordinasiyasız işlərin aparılması olub. Müxtəlif təşkilatlar və ya ayrı-ayrı şəxslər tərəfindən qazıntı işləri zamanı monitorları qidalandıran xətlər, optik naqillər yararsız hala salınıb. Ona görə də monitorlar bu gün işləmir. Bakı Nəqliyyat Agentliyi ötən dövr ərzində NİİM-in fəaliyyətinin təkmilləşdirilməsi, dayanıqlı sistem əsasında fəaliyyət göstərməsi istiqamətində mühüm işlər görüb.

Bununla bağlı müxtəlif xarici ölkə şəhərlərinin aidiyyəti qurumları ilə də sıx əməkdaşlıq edilir. Bunlar hamısı zaman alan məsələlərdir. Müəyyən bir vaxtdan sonra dayanacaqlarda yenidən informasiya tabloları sərnişinlərimizə xidmət göstərəcək. Çətin proses olsa da agentlik tərəfindən bu istiqamətdə iş aparılır ki, dövlətin çəkdiyi xərclər nəticəsiz qalmasın və camaatımız rahat şəkildə bu sistemdən istifadə edə bilsin".

**❑ Emil SALAMOĞLU, "Yeni Müsavat"**

**Ermənistanın baş naziri Nikol Paşinyan Dağlıq Qarabağ məsələsində "dəvəquşu" siyasətini davam etdirir. Paralel surətdə o, ikibaşlı, avantürist bəyanatlar verməklə açıq-aşkar vaxt udmağa, atəşkəs və işğal rejimini süni surətdə uzatmağa cəhd edir.**






# İrəvanın Qarabağla bağlı "dəvəquşu" siyasəti

## Ermənistan rəhbərliyi populist, riyakar və ikibaşlı bəyanatlarla konflikt ətrafında gerçəyi öz xeyrinə dəyişdirə bilməyəcək; **rusiyalı siyasi yazar:** "Nikol Paşinyanın cəsarəti çatırsa..."

Paşinyanın işğal altındakı Dağlıq Qarabağa, qanunsuz yolla, "arxa qapı"dan keçərək, orada Ermənistanın Təhlükəsizlik Şurasının iclasını keçirməsi, Azərbaycanla yanaşı, ATƏT-in Minsk Qrupu həmsədrlərinə də həqarət sayılmalıdır. O həmsədrlər ki, bu günlərdə rəsmi Bakı ilə həmrəylik nümayiş etdirərək, sülh danışıqlarına dair formatı birtərəfli qaydada işğalçı ölkənin xeyrinə dəyişmək istəyən N.Paşinyanı məyus, onun təklifini rədd eləmişdilər.

Erməni baş nazir isə sanki heç nə olmayıbmış kimi, Xankəndində də özünün sərsəm mövqeyini davam etdirdi. Dünyada mövcud olmayan "Dağlıq Qarabağ xalqı"nın "pozulmuş hüquqları"ndan dəm vurdu, növbəti dəfə "Qarabağ erməniləri mənə səs verməyib, mən yalnız Ermənistanın adından danışa bilərəm" bəyanatını səsləndirdi.

**Yaxud onun belə bir ikibaşlı və hiyləgər açıqlamasına diqqət edək:** "Azərbaycan cəmiyyətinin sülhə hazırlanması təkcə Azərbaycan hakimiyyətinin deyil, həm də Ermənistan hakimiyyətinin iştirakı ilə aparılmalıdır... Mən təkcə Azərbaycan prezidenti ilə deyil, Azərbaycan xalqı ilə də dialoq aparmağa hazıram. Ona görə ki, Ermənistan xalqı və "Dağlıq Qarabağ xalqı" kimi (dırnaqlar bizimdir - "YM") Azərbaycan xalqının da sülhpərvər xalq olduğuna əminəm".

*****

Paşinyanın bu kimi riyakar bəyanatları müstəqil siyasi ekspertlərin də sərt tənqidinə tuş gəlib.

**"Dünyada hamı başa düşür ki, Dağlıq Qarabağda Ermənistan silahlı qüvvələrinin nizami hissələri yerləşib. Həmçinin orada xidmət keçən çağırışçı-əsgərlərin 80%-i Ermənistandan vətəndaşlarıdır. Eləcə də Dağlıq Qarabağın büdcəsi Ermənistan dövlətinin büdcəsindən birbaşa transfertlər hesabına formalaşır. O zaman hansı "dövlət" və "xalq"dan söhbət gedə bilər?"**

**"Yeni Müsavat" xəbər verir ki, bunu rusiyalı siyasi yazar Mixail Belyayev "Vestnik Kavkaza" portalındakı növbəti təhlili məqaləsində yazıb.**

**Müəllif daha sonra bildirir:** "İkincisi, erməni baş nazir tərəfindən Minsk Qrupunun 3 prinsipi və 6 bəndinin başa düşülməməsi qəribə görünür. Məsələn, bəndlərdən biri (Paşinyan üçün, deməli olar, ən problemli olanı) Dağlıq Qarabağ ətrafındakı ərazilərdən erməni qoşunlarının çıxarılmasını nəzərdə tutur. Əvəzində Dağlıq Qarabağ təhlükəsizlik zəmanəti və aralıq status alır. Bu, həmin mütləq minimumdur ki, konfliktin həll olunmayacağı təqdirdə Qarabağda gec-tez qızışacaq yeni qanlı qətliamı önləmək üçün vacib sayılır. Ancaq məgər Nikol Paşinyan deyil ki, ucadan bəyan edib "sülh əvəzinə torpaq" formulunu rədd edən? Yaxud məgər Ermənistan Xüsusi Xidmətinin rəhbəri Artur Vanesyan Füzulidən vəd edir ki, "Bir santimetr də torpaq verilməyəcək" və separatçılarla Füzulinin, Dağlıq Qarabağ ətrafında işğal edilmiş digər rayonların məskunlaşmasını müzakirə edir - haralardan ki, bütün azərbaycanlılar qovulublar və haralarda ki, ermənilər heç tarixən də yaşamayıblar (hərçənd tarix də qanunsuz ərazi iddiası üçün əsas ola bilməz - müəllif)".

**Rusiyalı analitikə görə, ilk növbədə Nikol Paşinyanın özü və onun hökuməti Minsk Qrupunun prinsipləri və bəndələrini interpretasiya eləməsini izah eləməlidir, nəinki sırf vasitəçi struktur olan Minsk Qrupundan nəsə tələb eləməlidir. İrəvandan verilən bəyanatlardan isə belə çıxır ki, bu günə erməni interpretasiyası belədir:** "Hər şey Ermənistana - Azərbaycana heç nə!" Bütün bunların ardınca Paşinyanın Azərbaycan xalqı ilə birbaşa dialoqa çıxmaq istəyinin səmimiliyi gülünc görünür. Təkrar edirik, heç bir "Dağlıq Qarabağ xalqı" mövcud deyil. Yalnız iki icma - Azərbaycan və erməni icması var. Azərbaycan icması Ermənistan və onun nəzarətindəki silahlı qüvvələr tərəfindən oradan sıxışdırılıb çıxarılıb, ondan sonra orada yalnız bir icma qalıb. Bu da sizə bütün "xalq". Üstəlik, əgər Nikol Paşinyan humanizm oyunu oynamaq və özünün dediyi kimi, guya sülhpərvər azərbaycanlılarla ünsiyyətdə olmaq istəyirsə, o zaman danışıq üçün mövzular yetərincədir. Məsələn, o, nifrət elədiyi və türməyə saldırdığı general Manvel Qriqoryanın cinayətlərinə görə azərbaycanlılar qarşısında üzr istəyə bilər. Axı bu, bir faktdır ki, Manvelyan vaxtilə KİV-ə müsahibəsində fəxrlə deyişdi ki, müharibədən sonrakı uzun illər ərzində azərbaycanlıları qul kimi saxlayıb. Biz daha Xocalıda, Qaradağlıda, Azərbaycanın digər yaşayış məntəqələrində törədilmiş kütləvi qətliamları demirik, çünki başa düşürük ki, bunlara görə üzr istəməyə Nikol Paşinyanın cəsarəti çatmaz. Ancaq heç olmasa, Qriqoryanın cinayətlərinə görə üzrxahlıqdan başlamaq olar - kimin ki, mənəvi siması Paşinyanın özünə də yaxşı məlumdur".

**Rusiyalı siyasi şərhçiyə görə, belə bir addım parlamentdə durub "Konfliktin həlli hamı üçün, o cümlədən azərbaycanlılar üçün məqbul olmalıdır" bəyanatı verməkdən fərqli olaraq, Paşinyan tərəfindən "görünməmiş" addım olardı.** "Bəs əgər həll variantı azərbaycanlılar üçün məqbul olmasa, o zaman Ermənistan işğalı dayandıracaq? Sual əlbəttə ki, ritorikdir", - deyə Belyayev məqaləsinin sonunda qeyd edib.

*****

Rusiyalı təhlilçinin fikir və arqumentləri ilə razılaşmamaq mümkünsüzdür. Əfsus ki, bütün dünyanın Qarabağla bağlı bildiyi ən sadə həqiqətləri erməni tərəfi, onun siyasi rəhbərləri illərdir görməzlikdən gəlir, özlərini başını kola soxmuş "dəvəquşu" kimi aparırlar. Bu isə "dəvəquşu"na yaxşı heç nə vəd eləmir.

O da təəssüf doğurur ki, Qarabağ müharibəsində iştirak eləməyən, əli azərbaycanlıların qanına batmayan, "müharibə partiyası"nın üzvü olmayan Nikol Paşinyan indi sələflərindən də radikal mövqe sərgiləyir, Xocalı hərbi caniləri - eks-prezidentlər Serj Sərkisyan və Robert Köçəryandan da davakar ritorika sərgiləyir. Deməli, müharibə qaçılmaz olacaq. Deməli, son sözü Azərbaycan ordusu deyəcək - baxmayaraq ki, böyük sülh üçün kövrək şanslar hələ tam itirilməyib...



## Ermənistanda Müdafiə Nazirliyinin 131 əməkdaşı barəsində cinayət işi açıldı

**Ötən il Ermənistanda dövlət məmurlarının yol verdikləri dələduzluq hallarına görə 189 material araşdırılıb ki, bu da 2017-ci illə müqayisədə 23,6 dəfə çoxdur. Ermənistan KİV-i xəbər verir ki, bu barədə ölkənin Baş Prokurorluğunun 2018-ci ildə korrupsiyaya qarşı mübarizə üzrə illik hesabatında bildirilib (virtualaz.org ).**

Rəsmi şəxslərlə bağlı cinayət işləri daha çox dələduzluq faktları üzrə qaldırılıb. Ötən il Ermənistanın dövlət məmurlarının dələduzluğuna dair 145 cinayət işi başlanıb. Bu da 2017-ci illə müqayisədə 29 dəfə çoxdur. 2018-ci ildə xidməti vəzifəsindən sui-istifadə edərək dövlət əmlakının mənimsənilməsi üzrə 447 material hazırlanıb. 2017-ci ildə isə bu rəqəm 377 olub. Dövlət əmlakının mənimsənilməsi işi üzrə 487 cinayət işi araşdırılıb, 171 nəfər cinayət məsuliyyətinə cəlb edilib. Bu göstərici 2017-ci illə müqayisədə 2 dəfə çoxdur.

2017-ci ildə səlahiyyət həddini aşma maddəsi üzrə 67 cinayət işi başlanılıb. Ötən il isə bu rəqəm 164 material olub. Baş Prokurorluq bildirib ki, 2017-ci ilə müqayisədə korrupsiya üzrə cinayət işlərinin sayı 2018-ci ildə 3,6 dəfə artıb. Nəticədə dövlətə 9,4 milyon dollar ziyan vurulub.

Rüşvətxorluq və bu cinayətdə vasitəçilik üzrə 2018-ci ildə 197 cinayət işi başlanılıb, bir il əvvəl isə bu rəqəm 63 olub.

Ötən hesabat ilində oxşar cinayətlər üzrə 282 iş (2017-ci ildə 148) araşdırılıb. Hesabat ilində 17 polis, Dövlət Gəlir Komitəsinin 14, İstintaq Komitəsinin 10, Milli Təhlükəsizlik Xidməti və Ermənistan silahlı qüvvələrinin 4, Ədliyyə Nazirliyinin cəzaçəkmə müəssisələrinin 15, səhiyyə sahəsinin 14, təhsil sahəsinin 35, Sosial Təminat Nazirliyinin 56, yerli özünüidarəetmə orqanlarının 73, Müdafiə Nazirliyinin 131 əməkdaşı və s. cinayətə məsuliyyətinə cəlb edilib.

YENİ MÜSAVAT
N 59 (7229) 15 mart 2019



# Ərdoğan və Netanyahu yenidən üz-üzə

## Şahin Cəfərli: "Siyasi gərginlik, ölkə rəhbərlərinin sərt bəyanatları və ittihamları daxili ictimaiyyətə yönəlib"

**İsrailin baş naziri Benyamin Netanyahu ilə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan arasında növbəti söz "atışması" başlayıb. Budəfəki söz duelini körükləyən Netanyahu olub. İsrail baş naziri sosial media hesabında yazdığı statusunda Ərdoğanı "Türkiyənin diktatoru" adlandırıb.**

**Sitat:** "Türk jurnalistlər və müstəntiqlər həbsxanaları doldurduğu halda Türkiyənin diktatoru Ərdoğan İsrail demokratiyasına dil uzadır. Bu necə bir komediyadır! İsraildə kimsə ikinci sinif vətəndaş deyildir. İsraildə təxminən 2 milyon israilli ərəb də daxil olmaqla, bütün israillilər bərabər haqlara sahibdir. Ancaq İsrail eyni zamanda yeganə və tək yəhudi dövlətidir".

Gözlənildiyi kimi, Türkiyədən Netanyahuya sərt cavab verilib. Xarici işlər naziri Mövlud Çavuşoğlu, prezidentin sözçüsü İbrahim Kalın Netanyahuya sərt cavab veriblər. Kalın bildirib ki, Netanyahunun rəhbərlik etdiyi dövlət Fələstin torpaqlarını işğal edir, qadın və uşaqları qətlə yetirir.

**Prezident Ərdoğan özü də Netanyahuya cavab verib. Türkiyə prezidenti İsrailin baş nazirini "zalım" adlandırıb. Sitat:** "Netanyahu Tayyib Ərdoğanın ölkəsində jurnalistlərin həbsxanaya salınmasından narahat olubmuş. Netanyahu, sən zalımsan, zalım... Hazırda İsraildə parlament seçkiləri kampaniyası aparıldığı üçün həbsxanalarda minlərlə uşaq, qadın və yaşlı adam saxlayan sən deyilsən? Onlara zülm edən sən deyilsən? Əgər dünyada bir zalım axtarılacaqsa, o da sənsən".

Qeyd edək ki, hazırda hər iki ölkə seçkilər ərəfəsindədir. Martın 31-də Türkiyədə bələdiyyə seçkiləri, aprelin 9-da isə İsraildə parlament seçkiləridir. Aydın məsələdir ki, seçki kampaniyaları dövründə bir qayda olaraq liderlərin bu cür "problemli qonşuları" hədəfə alması nadir rast gələnən hadisə deyil. Digər tərəfdən, hər iki lider arasında söz dueli birinci hadisə deyil, buna qədər bir neçə dəfə bu cür "söz atışması" olub.

Lakin məsələ ondadır ki, hər iki ölkə Azərbaycanla müttəfiq münasibətləri olan dövlətdir. Bu iki ölkə arasında münasibətlərin pisləşməsi, düşmənçiliyin yaranması Azərbaycan üçün çətin situasiya yarada bilərmi?

**Siyasi şərhçi Şahin Cəfərli deyir ki, İsrail-Türkiyə münasibətlərindən danışarkən təkcə siyasi səviyyədə mövcud olan gərginlik əsasında fikir yürütmək doğru olmaz. Ekspertin fikrincə, siyasi liderlərin söz duelləri heç də dövlətlər arasındakı münasibətlərə kəskin təsir etmir:** "Bəli, iki ölkə arasında siyasi səviyyədə gərginlik var. Son 10 ildə biz zaman-zaman bu gərginliyin dərəcəsinin yüksəlməsini, zaman-zaman isə aşağı enməsini müşahidə etmişik. Amma medalın başqa üzünə də nəzər salmaq zəruridir, əks halda, gerçək mənzərəni görə bilmərik. Məsələ burasındadır ki, ötən müddət ərzində iqtisadi əlaqələr, qarşılıqlı ticarət öz axarında davam edib. Ümumiyyətlə, Ədalət və İnkişaf Partiyası iqtidara gəldikdən bəri bu sahədə pozitiv dinamika müşahidə olunur və qarşılıqlı ticarət həcmi 2,5 dəfə artıb. Yaxın keçmişə nəzər salanda 2009-cu ilin yanvarında Davosdakı məşhur "One minute" qalmaqalını və 2010-cu ilin mayında baş vermiş qanlı "Mavi Marmara" hadisəsini mütləq xatırlatmaq lazımdır. Bu iki olay Türkiyə-İsrail münasibətlərində siyasi böhranın zirvəyə çatdığı dönəmlər idi. Lakin həmin hadisələr, hətta "Mavi Marmara" gəmisində 10 Türkiyə vətəndaşının öldürülməsi belə iqtisadi əlaqələrin dinamikasına neqativ təsir göstərə bilmədi. Gəlin, rəqəmlərin dili ilə danışaq. 2009-cu ildə iki ölkə arasında ticarət həcmi 2 milyard 603 milyard dollar təşkil etmişdi və 2008-ci il dünya maliyyə böhranının təsiri ilə azalma tendensiyası qeydə alınmışdı. Lakin 2010-cu ildə bu rəqəm 3 milyard 440 milyard dollara, 2011-ci ildə isə 4 milyard 448 milyard dollara yüksəldi. Yəni nə "One minute", nə də "Mavi Marmara" faciəsi nəinki ticarəti əngəllədi, əksinə, ciddi artımlar qeydə alındı. 2014-cü ildə 5 milyard 882 milyon dollarlıq ticarət həcmi ilə bu sahədə tarixi rekorda nail olundu. Sonrakı illərdə Türkiyə iqtisadiyyatında durğunluğun təsiri ilə müəyyən azalmalar baş versə də, 2017-ci ildə 4 milyard 914 milyon dollarlıq ticarət dövriyyəsi qeydə alınıb ki, bu da yaxşı rəqəmdir (2018-ci ilin rəqəmləri hələ rəsmən açıqlanmayıb.) 2017-ci ildə İsraildən Türkiyəyə gələn turistlərin sayı 380 min nəfərdən çox olub. Türkiyə İsrail vətəndaşları üçün vizasız gediş-gəliş tətbiq edib. Göründüyü kimi, hər iki dövlət çalışır ki, iqtisadi və insanlararası əlaqələr siyasətin təsirindən asılı olmasın. Yəni siyasət ayrı, ticarət ayrı. Onu da qeyd etmək lazımdır ki, qarşılıqlı ticarətdə Türkiyənin xeyrinə müsbət saldo var, yəni Türkiyə İsrailə daha çox mal satır".

**Şahin Cəfərlinin fikrincə, hazırda davam edən və daha əvvəl də qeydə alınan qarşılıqlı ittihamlar bir qayda olaraq daxil auditoriyaya hesablanıb. Ancaq o, bu vəziyyətin Azərbaycanın İsraillə münasibətlərinə təsir edəcəyini düşünmür:** "Siyasi gərginlik, ölkə rəhbərlərinin sərt bəyanatları və ittihamları, açıq deyək ki, daxili ictimaiyyətə yönəlib. Xüsusən son illər Türkiyədə hər seçki kampaniyası öncəsi biz İsrail-Fələstin mövzusunun aktuallaşdığını görürük. İndi yenə hər iki ölkə seçki ərəfəsindədir: Türkiyədə martın 31-də bələdiyyə, İsraildə isə aprelin 9-da parlament seçkiləri keçiriləcək. Görünür, hər iki ölkə rəhbərliyi siyasi hərarəti yenidən yüksəltməyə ehtiyac duyub. Yaxın keçmişdə Türkiyə-İsrail münasibətlərinin gedişatından asılı olmayaraq, Azərbaycan-İsrail münasibətləri öz axarında davam edib. Bu, tam normal haldır. Əvvəla, Türkiyə və İsrail rəhbərlikləri arasında baş verən söz duelləri bu iki ölkənin ticarətinə mənfi təsir etmirsə, Azərbaycan-İsrail münasibətlərinə niyə təsir etməlidir? İkincisi də, Türkiyə ilə Azərbaycan bir-birinə nə qədər yaxın olursa-olsun, hər halda, iki ayrı dövlətdir. Biz ayrı dövlətiksə, deməli, fərqli maraqlarımız da ola bilər və var. Türkiyənin son illər problem yaşamadığı çox az ölkə olub. Əgər Azərbaycan öz siyasətini Türkiyənin siyasəti ilə əlaqələndirmiş olsaydı, biz də həmin ölkələrlə soyuqluq yaşayacaqdıq. Ona görə də ən doğru yol ölkəmizin özünün müstəqil xarici siyasət kursunun olmasıdır. Zatən rəsmi Bakı da hər zaman bu mövqedə olub".

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

# Avropa Birliyi Türkiyə ilə danışıqları dayandırdı

## Politoloq deyir ki, Avropa üçün Türkiyənin birliyə daxil olmasında ən böyük maneə sivilizasiya, din fərqidir



**Avropa Birliyinə üzvlüklə bağlı Türkiyə ilə aparılan danışıqlar təxirə salınıb. Bu barədə Avropa Parlamenti qərar qəbul edib. Danışıqların hansı müddətə təxirə salındığı barədə məlumat verilməyib.**

Türkiyə tərəfindən qərara sərt münasibət sərgilənib. Hakim Ədalət və İnkişaf Partiyası sözçüsü Ömər Çelik bildirib ki, Türkiyə tərəfi qəbul olunan qərarı dəyərsiz, hökmsüz və nüfuzu olmayan bir qərar kimi qiymətləndirir.

Ö.Çelik həmin qərarla Avropa Parlamentinin demokratik inkişafa açıq olan və onu dəstəkləyən qərar verməkdən uzaq olduğunu, dünyaya dar pəncərədən baxdığını bildirib.

**Politoloq Nəzakət Məmmədova qərarı bu cür şərh edi:** "Türkiyə ilə AB arasında danışıqlar uzun illərdir ki, davam edir. Lakin dərin problemlər var ki, bu, Türkiyənin AB-yə üzv olması yolunda böyük maneədir. Məsələn, Avropa Birliyi hesab edir ki, Türkiyə 1974-cü ildən bəri Kiprin şimalında nəzarəti əlinə almaqla, orada qoşun saxlamaqla Avropa Birliyinə daxil olmuş Kiprin suverenliyinə xələl gətirir. Bundan başqa, ən böyük iradlardan biri Türkiyədə insan hüquq və azadlıqlarının vəziyyəti ilə bağlıdır.

Kürd dilinin milli azlıqların dili olaraq qəbul edilməsi də Avropa Birliyinin tələblərindən biridir. Halbuki ötən ilin aprelində Avropa Birliyi Türkiyəyə dair irəliləmə sənədini açıqladı. Sənəd 5 maddədən ibarətdir. Burada Türkiyənin son illərdəki bəzi fəaliyyətləri təqdir olunub, digər məsələlərdə isə əksinə, geriləmənin olduğu qeyd edilib.

Məsələn, FETÖ-nün terror təşkilatı kimi tanınmasına, Türkiyənin Avropaya qaçqın axınının, miqrant məsələsinin həllində Avropaya göstərdiyi dəstəyinin təqdir olunmasına baxmayaraq, Türkiyənin Avropadan iri addımlarla uzaqlaşdığı tənqid edildi.

Türkiyənin Avropa Birliyi ilə münasibətləri onun Suriyada Rusiya və İranla yaxınlaşmasından, eyni zamanda 2016-cı il çevriliş cəhdindən sonra daha da pisləşdi". Xüsusilə, 2016-cı ilin 15 iyul çevriliş cəhdindən sonra fövqəladə hal rejiminin uzun müddət qüvvədə olması, birliyin iddia etdiyinə əsasən, 150 jurnalistin, 10 müxalifətçi millət vəkilinin, 2 min hakim və prokurorun, ümumilikdə çevrilişdə əli olduğu iddia edilən 40 min nəfərin barəsində dövlət tərəfindən araşdırma aparılması Avropa İttifaqının Türkiyədə insan hüquqlarına dair narahatlığını artırıb. Avropa Parlamenti Türkiyənin üzvlüyünə qarşı qətnamə qəbul edərək ondan dövlət çevrilişi cəhdində şübhəli bilinən şəxsləri repressiyaya məruz qoymaqdan çəkinməyə çağırıb. Türkiyə 1987-ci ildə Avropa Birliyinə üzvlük barədə müraciət etməsinə baxmayaraq, yalnız 1996-cı ildə rəsmi olaraq namizəd ölkə statusu alıb və Kopenhagen kriteriyaları əsasında ölkədə islahatların aparılması nəticəsində onun birliyə üzvlüyünə baxıla biləcəyi qərara alınıb. Lakin sonradan ilkin şərtlərə bir neçəsi əlavə olunub ki, Türkiyə buna etiraz edir. Məsələn, uydurma erməni "soyqırımının" tanınması bunlardan biridir".

**Politoloq dedi ki, Avropa üçün Türkiyənin birliyə daxil olmasında ən böyük maneə sivilizasiya, din fərqidir:** "Avropa Birliyinin sədri Van Rompey AB-nin xristian dəyərləri üzərində bərqərar olduğunu, iri müsəlman ölkəsinin birliyə daxil olması ilə bu dəyərlərin xələl görəcəyini etiraf edib. Bunu dəfələrlə Ərdoğan da etiraf edib. Orta əsrlər boyunca katolik-protestant savaşları səbəbindən milyonlarla insan itirən Avropa İkinci Dünya müharibəsindən sonra bunu qəti şəkildə anladı və iqtisadi, siyasi, geosiyasi, amma hər şeydən əvvəl, sivilizasiya birliyi yaratmağa qərar verdi. Ərdoğanın hakimiyyətə gəldiyi ilk dövrlərdə Türkiyə israrla birliyə daxil olmaq istəyini bəyan edirdi. Hətta "European voice" qəzeti Ərdoğanı 2004-cü ildə bu istiqamətdə apardığı islahatlara görə "İlin avropalısı" adlandırmışdı. Lakin 2009-cu ildə Kiprin yunan hissəsi ilə münasibətlərin pisləşməsi, Türkiyənin öz limanlarını onların gəmilərinin üzünə bağlaması səbəbindən birliklə ilə münasibətlər pisləşdi. Məhz həmin vaxt da Türkiyə ilə Avropa Birliyi danışıqları dayandırmışdı. Prezident Ərdoğan da hər zaman bəyan edir ki, ittifaq Türkiyənin ona yalvarmasını gözləməsin. Doğrudan da, bu gün Türkiyənin ətrafında yaranmış geostrateji reallıqlar, Rusiya ilə yaxınlaşma, NATO-nun Avropadakı üzvlərindən dəstək görməməsi, Ərdoğanın seçki kampaniyaları zamanı Türkiyə nazirlərinə təşviqat aparmaq üçün Hollandiya, Almaniya kimi ölkələrə giriş izni verilməməsi, Türkiyənin avropalı deputatları İncirlik bazasına buraxmaması və s. Birliklə Türkiyə arasında narazılıq yaradıb. Bütün bunların fonunda Türkiyənin Avropa Birliyinə üzvlüyü getdikcə mürəkkəbləşir və Türkiyənin Avrasiyaya inteqrasiyasına meyllənməsi daha real siyasət kimi görünür, nəinki Avropa xəyalları".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 59 (7229) 15 mart 2019

# Orqan köçürülməsi ilə bağlı qalmaqal yaradan qanun - təfərrüat

## Deputat deyir ki, özəl klinika qanundan kənara çıxaraq hansısa kriminal qrupla əlaqəyə girəcəksə, bunun üçün dövlətin hüquq-mühafizə orqanları var

**Yeni hazırlanan "İnsan orqanlarının donorluğu və transplantasiyası haqqında" qanun layihəsində bir çox məsələlər öz əksini tapıb ki, onlardan biri də dövlət xəstəxanaları ilə yanaşı, özəl xəstəxanaların da orqan transplantasiyasını həyata keçirməsidir. Bundan başqa, Azərbaycanda transplantasiya obyekti olan orqan və toxumaların siyahısı dəqiqləşdirilib.**




Qanun layihəsinin 6-cı "Transplantasiya obyekti olan orqan və toxumaların siyahısı" maddəsinə əsasən, meyit donordan transplantasiya məqsədilə ürək, ağciyər (ürək-ağciyər kompleksi), böyrəklər, qaraciyər, mədəaltı vəzi, mədə, bağırsaqlar, uşaqlıq, yuxarı və aşağı ətraflar, sümüklər, dəri-fassiya-əzələ kompleksi və onların seqmentləri, sümük iliyi, gözün buynuz qişası, kök hüceyrələr və siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən digər orqan və toxumalar götürülə bilər.

Canlı donordan transplantasiya məqsədilə yalnız böyrəyin biri, ağciyərin bir payı, qaraciyərin bir hissəsi, mədəaltı vəzin bir hissəsi, nazik bağırsağın bir hissəsi, dərinin bir hissəsi, sümük iliyi, kök hüceyrələr götürülə bilər.

Bu qanunla Azərbaycanda ksenotransplantasiya, yəni insan orqanlarının heyvana, yaxud heyvan orqanlarının insana köçürülməsi, elmi-tədqiqat işləri istisna olmaqla, qadağandır.

Qanunun hazırlanması ümumilikdə müsbət bir hal olsa da, ictimaiyyət özəl klinikalara orqan transplantasiyası ilə bağlı lisenziyanın verilməsi məsələsindən narahatdır. Belə ki, zaman-zaman Azərbaycanda özəl klinikalarla orqan mafiyasının əlbir olması ilə bağlı məlumatlar mətbuatda yayılırdı. Yeni qanundan doğan lisenziya hüququ orqan mafiyası ilə əlaqəsi olan özəl klinikaların kriminal əməllərini yenidən fəallaşdıra bilərmi? Qanunda başqa hansı yeniliklər nəzərdə tutulur?

**İctimaiyyəti narahat edən bu sualları Milli Məclisin Səhiyyə komitəsinin üzvü Musa Quliyev bildirdi ki, qanun heç bir xəstəxanaya orqan transplantasiyası ilə məşğul olmağı qadağan etməyəcək:** "İstər özəl, istərsə də dövlət klinikası müvafiq icazəni aldıqdan sonra bu işi görəcək. Lisenziya mütləq olmalıdır, hər ikisi lisenziyasız çalışa bilməz. Özəl klinika əgər qanundan kənara çıxaraq hansısa kriminal qrupla əlaqəyə girəcəksə, bunun üçün dövlətin hüquq-mühafizə orqanları var. Onlar qarşısını alacaqlar. Eyni işi dövlət xəstəxanalarında çalışanlar da edə bilərlər, yəni bu məsələdə dövlət, özəl fərqi yoxdur. Qanunun pozulmasına görə məsuliyyət nəzərdə tutulur. Cinayət Məcəlləsində də bu barədə dəyişiklik olacaq, yeni maddə qəbul olunacaq və orqan transplantasiyası işinə nəzarət olacaq. Qanunda da göstərilir ki, Azərbaycanda donor orqanlarının alqışı, satqısı, hətta reklamı belə qadağandır. Cinayət Məcəlləsində də bu qanunun pozulması ilə bağlı yeni maddə olacaq. Bütün dünyada özəl klinikalarda, hətta dövlət klinikalarında da orqan transplantasiyası həyata keçirilir".

**Məsələnin kriminal tərəfinə gəlincə, M. Quliyev bildirdi ki, bu artıq hüquq-mühafizə orqanlarının işidir:** "Kriminal hallar varsa, bu, dövlət xəstəxanasında da ola bilər, özəldə də. Özəl olması o demək deyil ki, hamısı kriminal işlərlə məşğuldur".

**Qanunun pozitiv tərəflərinə toxunan deputat bildirdi ki, olduqca önəmli qanundur. Bu qanun meyitdən orqan götürülməsi üçün hüquqi baza yaradır:** "Azərbaycanda meyitdən orqan götürülməsi həyata keçirilə bilmir. Bütün dünyada orqan köçürməsinin 85-90 faizi meyitdən alınan donor orqanların hesabına həyata keçirilir. Sağlam insanlardan orqan götürülməsi ancaq təcililik baxımından mümkündür. Əgər uyğun meyit donor tapılmazsa, şəxsin yaxın qohumlarından bəzi icazə verilən orqan transplantasiyaları həyata keçirilə bilər. Biz bu qanunda onu da nəzərdə tutmuşuq ki, qohum olmayan şəxslərdən də donor orqanı götürülə bilsin. Qanunun əsas mahiyyəti də ondan ibarətdir ki, meyitdən orqan götürülməsinin hüquqi əsası yaradılıb. Əgər şəxs sağlığında buna münasibətini bildiribsə, birbaşa götürülür, bildirməyibsə, yaxın qohumlarının qərarı əsasında orqan götürülür. Digər tərəfdən, qanun bu işin koordinasiya olunması üçün bir koordinasiya mərkəzinin yaradılmasının da hüquqi əsaslarını müəyyən edib. Bütün ölkələrdə orqan transplantasiyasının koordinasiya mərkəzi var. Bütün ölkə ərazisində reystrlər yaradılır, harada hansı orqan var, hansı şəhərdə hansı orqanı gözləyən xəstə varsa, onlar arasında əlaqə qurulur və bu iş həyata keçirilir. Qanun orqan transplantasiyası ilə məşğul olan mütəxəssislər transplantoloqlara olan tələbləri, onların vəzifələrini müəyyənləşdirir. Həmçinin orqan transplantasiyasını koordinasiya edən mütəxəssisin vəzifələrini müəyyən edir.

Qanunda bu məsələ ilə bağlı beynəlxalq əlaqələrin necə qurulması məsələsi də nəzərdə tutulub. Ola bilər ki, hansısa orqana təcili tələbat var, lakin o orqan yoxdur, xarici ölkədən alınıb gətirilməlidir. Azərbaycanda hansısa orqan varsa, istifadə olunmursa, onun xarici vətəndaşa verilməsinin hüquqi əsasları yaradılacaq.

**M. Quliyev onu da vurğuladı ki, Azərbaycanda orqan alını-satılması bu qanunla yenə də qadağan olunacaq:** "Bəzi ölkələrdə orqan bankından orqan almağa, satmağa icazə verilir. Mən isə hesab edirəm ki, qadağan olunması daha düzgündür. Çünki orqan mafiyası ilə bağlı məsələ, orqanın alınması və satılması çirkin bir işdir".

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

# Dönəri zəhərə döndərən səbəb - Bakıda 7 tələbə niyə ölümlə üz-üzə qaldı?

## Ölkənin baş kulinarı və AİB sədri səbəblər və çıxış yolundan danışdılar

**Paytaxtın Nərimanov rayonunda, Əhməd Rəcəbli küçəsi 21-də yerləşən "Köz dönər" kafesində dönər yeyən 7 nəfər zəhərlənmə diaqnozu ilə Kliniki Tibbi Mərkəzə gətirilib. Virtualaz.org-a daxil olan məlumatda onların universitet tələbələri olduğu bildirilib. Faktı Səhiyyə Nazirliyinin mətbuat katibi Pərviz Abubəkirov təsdiqləyib. P.Abubəkirov deyib ki, gətirilənlərdən ikisinin 17 yaşı var, buna görə də Ə.Qarayev adına 2 saylı uşaq xəstəxanasına köçürülüblər. Zəhərlənənlərin həyatı üçün təhlükə yoxdur.**



Ötən il fevral 5-də Tovuz rayonunda 2 nəfərin dönərdən zəhərlənməsi faktı qeydə alınmışdı. İlin sonuna yaxın isə Sumqayıtda dönərdən kütləvi zəhərlənmə halı olmuşdu. O vaxt 4 gənc qida zəhərlənməsi diaqnozu ilə xəstəxanaya yerləşdirilmişdi.

Bəs nə baş verir? Azərbaycanda dönər niyə vətəndaşı zəhərləyən qidaya çevrilib?

**Azərbaycan Milli Kulinariya Mərkəzinin baş direktoru Tahir Əmiraslanov "Yeni Müsavat"a deyib ki, zəhərlənmə bir sıra məsələlərdən ola bilər. Mümkündür ki, adamlarda soyuqdəymə olub, ona görə adi ağır yeməkdən belə zəhərlənmə hissi keçirə bilərlər. Lakin Tahir Əmiraslanov deyir ki, 7 nəfərin eyni məkanda yediyi yeməkdən sonra zəhərlənməsi soyuqdəymə ehtimalını aradan qaldırır:** "Həmin dönərxanada birinci növbədə dönəri bişirən adamların peşəkar aşpaz olub-olmaması yoxlanılmalıdır. Aşpazlıq diplomları varmı? 2-ci yoxlanmalıdır ki, həmin dönəri bişirən şəxslər işə müqavilə ilə götürülüblərmi? Həkim müayinəsindən keçiblərmi? Əgər bütün bu sualların cavabı müsbətdirsə, yəqin ki, problem ətdə və ya hazırlanma texnologiyasındadır. Zəhərlənmənin səbəbləri sırasında ətin saxlanılması qaydalarına riayət olumamasını da göstərmək olar. Həmin dönərxananın əti haradan aldığı, ətin necə işləndiyi, hansı etaplardan keçdiyi, ora necə gəlib çıxdığı və oradakı hazırlıq prosesinə diqqət edilməlidir. Bundan sonra zəhərlənmənin konkret səbəbindən danışmaq olar".

**T.Əmiraslanov zəhərlənmənin aşpazın savadsızlığı, aşpaz olmaması, həkimdən keçməməsi və onun özündə olan xəstəliyin hazırladığı yemək vasitəsilə yayılmasından ola biləcəyini də mümkün sayır:** "Zəhərlənmə 48 saat ərzində mədənin yuyulması ilə təmizlənə bilir. Aşpazın xəstə olması isə digər ağır xəstəliklərin yayılmasına gətirib çıxara bilər. Qarayara, sarılıq kimi ağır xəstəlikləri də aşpaz yoluxdura bilər və heç bilinməz də ki, yoluxma harada baş verib".

**Baş kulinar deyir ki, ətlərin haradan alınması, müvafiq baytarlıq yoxlamasından keçib-keçməməsi də aydınlaşdırılmalı məqamlardır:** "Qida Təhlükəsizliyi Agentliyinə müraciət etmişik. Danışmışıq ki, müqavilə bağlayacağıq, hər bir sistem üzrə aşpazların sertifikatlaşdırılması həyata keçirilsin. Müraciətimizə şifahi razılıq verilib. Hazırda iş gedir. Əgər aşpaz tələbələr üçün yemək hazırlayırsa, tələbənin bədəninin tələblərinə uyğun qida hazırlamalıdır. Bağçalarda, peşə məktəblərində, fəhlə yeməkxanalarında mühitə uyğun yeməklər hazırlanmalıdır. Tutaq ki, sement zavodunda işləyənlə xəz zavodunda işləyənin yeməyi eyni ola bilməz. Azərbaycan dövləti bu məsələlərin üzərinə gec-tez gedəcək".

**"Azad İstehlakçılar Birliyi"nin (AİB) sədri Eyyub Hüseynov zəhərlənmələrin qarşısının alınmasının yolları haqda dövlət orqanlarına müraciət ünvanlayıb. AİB sədri "Yeni Müsavat"a deyib ki, belə zəhərlənmələrin qarşısının alınması inzibati yollarla mümkün deyil:** "Dönərxanalara tələb var. İnzibati üsullarla dönərxana biznesini çökdürmək olmaz. Tələb olan yerdə təklif də olacaq. Ona görə də qidanın təhlükəsizliyini təmin etmək lazımdır. Məlumdur ki, dönərxanalardakı ciddi problemlərdən biri budur ki, çiy ətin üst tərəfi qızarır, içərisi çiy qalır. Ətin içindəki plazma yavaş-yavaş qızır. Qan qaynayır, axır tökülür siniyə. Ət doğranıb tökülür həmin siniyə. Ətlə qanlı maye qarışdırılıb verilir müştəriyə. Heyvan xəstəlikləri nə varsa, heyvana vurulan antibiotiklər, dərmanlar qızdırılmış ətdən süzülüb siniyə tökülür və doğranmış ətlə qarışıq müştəriyə verilir".

**Eyyub Hüseynov deyir ki, Azərbaycanda dönər hazırlamaq üçün ətləri xüsusi dondurmadan keçirən 2 şirkət fəaliyyətdədir:** "Həmin şirkətlərdən biri Xırdalanda, digəri Maştağa qəsəbəsində yerləşir. Ətləri şişə keçirib xüsusi avadanlıqlarda mənfi 40 dərəcədə dondururlar. Buna şok dondurma deyilir. Belə dondurma nəticəsində ətdə olan bütün viruslar məhv olur. Sonradan həmin ətlər xüsusi olaraq qablaşdırılır və dönərxanalara daşınır. Şok dondurmadan keçirilən dönər hazırlanmaq üçün ətləri əksər dönərxanalar almaqdan yayınırlar. Ölkədə fəaliyyət göstərən dönərxanaların heç 1 faizi həmin şirkətlərin hazırladığı ətdən almır. Dönərxanalar ona görə də zəhərlənmə mənbəyi olaraq qalır. Əgər hökumət, Qida Təhlükəsizliyi Agentliyi effektiv iş aparsa, dönərxanalar zəhərlənmə mənbəyinə çevrilməz".

**AİB sədri xatırlatdı ki, Azərbaycanda quş ətindən dönər hazırlanması 2006-cı ildən qadağan olunub:** "Şəhərə çıxın baxın, toyuq dönəri hər dönərxanada satılır. Belə qadağa bəzi həkimlərin dolanmaq yerindən başqa bir şeyə xidmət etmir. Bunun qarşısını almaq lazımdır. Toyuq dönəri tez çirklənən dönərdir. Lakin toyuq əti şok dondurmadan keçərsə, ondan hazırlanan dönər də təhlükəsiz olacaq. Dönər biznesi ilə məşğul olan əksər sahibkarlar gedib şok dondurmadan keçmiş ətləri almır, ucuz, murdar, hətta ölmüş heyvanların ətlərindən alıb necə gəldi dönər hazırlayırlar. Ona görə də belə zəhərlənmə halları adi hala çevrilib".

**E.Hüseynov bazarlara ucuz, murdar ətlərin yol tapması probleminin aktual olduğunu da vurğuladı:** "Ucuz və təhlükəli, murdar, xəstəlikdən ölmüş leş ətlərin bazarlara ayaq açması problemi nəhayət ki, həll edilməlidir. Qida Təhlükəsizliyi Agentliyi ictimaiyyətlə effektiv iş aparmalıdır. Elə iş aparmalıdır ki, ictimaiyyət ona inansın, ona məlumat versin. Çox təəssüflər olsun ki, dəfələrlə Qida Təhlükəsizliyi Agentliyinə yazdığımız məktublara reaksiya verilmir, ictimaiyyətlə əməkdaşlıq etmək fikirində deyillər. Düşünürəm ki, qida təhlükəsizliyinin bu kimi məsələləri Daxili İşlər Nazirliyinə tapşırılmalıdır. Çünki murdar ət satanlara qarşı ən effektiv işi Daxili İşlər Nazirliyi görür".

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 59 (7229) 15 mart 2019





## Yenilənmiş "CavanNar"a qoşul, ikiqat internet əldə et!

**Ölkənin ən gənc və innovativ mobil operatoru olan "Nar" yenilənmiş "CavanNar" tarifini təqdim edir. Artıq bundan sonra "CavanNar" ilə abunəçilər daha çox internetdən istifadə edə və daha çox ünsiyyət qura biləcək. Yenilənmiş "CavanNar" 2 müxtəlif paketdə təqdim olunur. Belə ki, "CavanNar 9"a qoşulmaq istəyənlər aylıq 9 AZN ödəməklə 5 GB internet, 5GB sosial şəbəkə və 500 tarifdaxili dəqiqə əldə edəcəklər. "CavanNar 6" isə istifadəçilərə aylıq 6 AZN ödəməklə 2 GB internet, 2GB sosial şəbəkə və 200 dəqiqə tarifdaxili danışıq verir. "CavanNar" tarifinə istənilən yaş qrupuna aid insanlar qoşula bilərlər. Qeyd edək ki, "CavanNar" Azərbaycan mobil rabitə bazarında ən sərfəli internet paketi sayılır.**

"CavanNar 9"-a qoşulmaq üçün "C9" yazıb 777-yə göndərmək və ya 777#9#YES yığmaq lazımdır. "CavanNar 6"ya qoşulmaq üçün isə "C6" yazıb 777-yə göndərmək və ya 777#6#YES yığmaq kifayətdir. İstənilən tarifdən "CavanNar" tarifinə keçmək 1 AZN təşkil edir. Bir "CavanNar" tarifindən digərinə keçid isə pulsuzdur.

Qeyd edək ki, "CavanNar" tarifinə qoşulan abunəçilər hazırda ölkədə ən geniş şəbəkələrdən birinə malik olan "Nar"ın 4G şəbəkəsindən istifadə etməklə tam keyfiyyətdə yararlana bilərlər. Bakı və Abşeron yarımadası ilə yanaşı, 47 bölgə "Nar"-ın 4G şəbəkəsi ilə təmin edilib.

"CavanNar" tarifi haqqında daha ətraflı məlumatı nar.az ttps://www.nar.az/cavannar-all/ internet səhifəsindən öyrənmək olar.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2,2 milyona yaxın abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.


# Qaz limiti ləğv oluna bilərmi?

## "SOCAR dövlətin verdiyi qərarlara tabe olacaq"

**Azərbaycanda benzinin və təbii qazın qiymətinin ucuzlaşdırılması, tətbiq olunan qaz limitinin ləğv edilməsi ilə bağlı təkliflər var. Sosialyönümlü islahatların çərçivəsində deputatlar, ekspertlər və sadə vətəndaşlar tərəfindən gündəmə gətirilən bu təkliflər sosial şəbəkələrdə çoxsaylı müzakirələrə səbəb olub. Ancaq dövlət rəsmiləri və aidiyyəti qurumlar hələ məsələyə münasibət bildirməyiblər.**




*Təklifin reallaşmasının mümkünlüyü ilə bağlı İqtisadiyyat Nazirliyindən bildirildi ki, hər iki məhsulun istehsalçısı və satışını təşkil edən şirkət olaraq SOCAR qiymətin dəyişməsi ilə bağlı müraciət etdiyi halda məsələyə baxılması mümkündür.*

*Strateq.az SOCAR-ın ictimaiyyətlə əlaqələr və tədbirlərin təşkili idarəsinin rəis müavini İbrahim Əhmədovun bu barədə bizimyol.info-saytına müsahibəsini təqdim edir:*

***- Benzinin qiymətinin ucuzlaşması ilə bağlı səsləndirilən təkliflərin reallaşması mümkündürmü?***

- Azərbaycanda əsas satılan yanacaq Aİ-92 markalı benzin və dizel yanacağıdır. Bunların qiymətini satıcı şirkətlər deyil, müvafiq dövlət qurumları tənzimləyir. SOCAR bununla bağlı heç bir qərar vermir. Yəni şirkət birtərəfli olaraq qiyməti nə artıra, nə də aşağı sala bilər.

***- İqtisadiyyat Nazirliyindən bizə bildirdilər ki, qiymətin dəyişməsi üçün SOCAR müraciət edərsə, məsələyə baxıla bilər...***

- SOCAR müraciət etsə, qərar verə bilərlər, amma hər bir halda bizim müraciətimiz olmadan da onlar qərar verə bilərlər. Müraciət nəyin əsasında olur? Adətən müraciət maya dəyərinin formalaşması və maya dəyərinə nisbətən satış qiymətinin rentabelli və ya qeyri-rentabelli olması ilə bağlı olur. Maya dəyərinin müəyyənləşməsi isə neftçıxarma avadanlıqlarının qiymətindən, nəql xərclərindən, həmin avadanlığın hansı valyuta ilə əldə olunmasından asılıdır. Xarici valyuta ilə əldə olunursa, manatın ucuzlaşması və ya bahalaşması qiymətə təsir edə bilər. Məsələn, manat ucuzlaşırsa, avadanlığı xaricdən əldə etmək baha başa gəlir. Bu hal, həmçinin təbii inflyasiya və başqa faktorlar da rentabelliyə təsir göstərə bilər. Hər bir halda şirkət öz əməliyyatlarını hesablayır və onun əsasında təkliflər verir ki, bizə bu yanacaq filan qiymətə başa gəlir və bunun satış qiymətindən bu qədər gəlir əldə edirik. Bu gəlir, heç olmasa, maya dəyərini qarşılayırmı, ya yox? Ona uyğun olaraq da dövlət qərar verir.

***- Hazırda olan vəziyyət benzinin ucuzlaşmasını şərtləndirə bilərmi?***

- Dediyiniz məsələ ilə bağlı dəqiq məlumatım yoxdur. Bununla bağlı şirkətə hansısa təklif də daxil olmayıb. Bizim əməliyyatlarımızın rentabelliyində hazırda dəyişiklik yoxdur. Bazardakı vəziyyət olduğu kimi qalır. Yəni avadanlığı təxminən eyni qiymətə alırıq, gəlir və xərclər dəyişməyib. Xaricdən aldığımız avadanlıq, investisiya xərcləri əvvəlki səviyyədədir. Hansısa ekspert hesab edirsə ki, burada dəyişiklik var, bu haqda bizə müraciət edə bilər. Təbii ki, dövlətə də müraciət edərək təkliflərini verə bilər. Dövlətin müvafiq orqnları da bu təkliflərə baxa bilərlər. Bu, normal bir praktikadır. Əlbəttə ki, SOCAR da verilən qərarlara tabe olacaq.

***- Azərbaycanda yanacağın qiyməti başqa ölkələrə, qonşu dövlətlərə nisbətdə baha, yoxsa ucuz sayılır?***

- Burada hesablama meyarları fərqli ola bilər. Bu, hər kəsin subyektiv yanaşmasından asılıdır. Çünki yanacağın qiyməti mütləq qaydada bir ölkədə daha ucuz, bir başqasında baha ola bilər. Burada bəzən başqa faktorlar da nəzərə alınır. Həmin ölkənin əhalisinin alıcılıq qabiiliyyəti, aylıq gəlirlər və s. İqtisadçıların da məsələyə fərqli yanaşmaları var. Bunların hamısı iqtisadçıların, təhlilçilərin və makroiqtisadi planlaşmanı həyata keçirən şəxslərin işidir. Bizim işimiz şirkətin özünün əməliyyatlarının rentabelliyini hesablamaqdır. Biz bazardan öncə baxmalıyıq ki, şirkətə məhsulun hasili, istehsalı neçəyə başa gəlir və gəlir daxili bazarda o xərcləri minimum örtürmü? Əlbəttə, daxili bazarda bizim qazanc əldə etmək kimi bir hədəfimiz yoxdur. Biz əsasən xarici bazarlarda hədəfləyirik ki, Azərbaycan üçün qazanc əldə edək. Daxili bazar üçün isə əsas hədəfimiz ölkənin enerji təhlükəsizliyini təmin etməkdir. Buna görə dövlətə heç vaxt müraciət etmirik ki, bizim gəlirlərimizi, mənfəətimizi artırsınlar. Çünki daxili bazardan adətən mənfəət kimi bir gözləntimiz yoxdur. Maksimum gözlənti budur: daxili bazarda ziyan həddindən artıq olmasın ki, şirkətin əməliyyatlarının dayanıqlılığı təmin olunsun, şirkətdə iflas olmasın. Bu da məhsulun maya dəyərindən asılıdır ki, bu yanacağın hasil olunması, emal olunması, nəql olunması, satışı və s. neçəyə başa gəlir və neçəyə satılır? Həmçinin başqa ölkələrdə müxtəlif tənzimləmə mexanizmləri, fərqli iqtisadi siyasət yanaşmaları var. Bəzilərində subsidiyalar tətbiq edilir, bəzilərində edilmir. Ona görə də hamısını yan-yana qoymaq mümkün deyil. Yəni fərqli yanaşmalar mövcudur.

***- Ölkədə gedən sosial islahatların çərçivəsində təkliflərdən biri də təbii qaza tətbiq edilən illlik limitin ləğv edilməsi və ölkə vətəndaşları üçün qiymətinin aşağı salınmasıdır. Belə bir addımın atılması mümkündürmü?***

- Dövlətin qanunvericiliyinə zidd olmayan istənilən ictimai təşəbbüslə çıxış etmək hər kəsin hüququdur. Yəni təkliflərini irəli sürə bilərlər və o təkliflərə dövlətin müvafiq orqanları baxa bilər. SOCAR da hər bir halda dövlətin verdiyi qərarlara tabe olacaq.

## 2 milyona yaxın adam müayinədən keçdi, bu xəstəliklər aşkarlandı



**Səhiyyə müəssisələrində Azərbaycan prezidenti İlham Əliyevin təşəbbüsü və göstərişi ilə fevralın 12-dən başlanan tibbi müayinə tədbiri uğurla icra olunur.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, 12.02.2019-cu il tarixindən - 12.03.2019-cu il tarixinədək ölkə üzrə ümumilikdə 1947274 ölkə vətəndaşı icbari dispanzerizasiyadan keçib. Bunlardan 926744-ü kişi, 1020530-u qadındır.

Müayinələr zamanı ümumilikdə 2932 nəfərdə infeksiyon, 879 nəfərdə yenitörəmələr, 5075 nəfərdə qanyaradıcı xəstəliklər, 5026 nəfərdə endokrin və s. xəstəliklər aşkarlanıb.

Bundan əlavə, tibbi müayinədən keçirilənlər sırasında həzm üzvlərinin xəstəliklərinə, virus və yoluxucu xəstəliklərə, dəri xəstəliklərinə, tənəffüs, görmə və eşitmə pozğunluqlarına, hamiləlik və zahılıq dövrünün xəstəliklərinə də rast gəlinib.

Aşkarlanmaların nəticəsi olaraq 19810 nəfər dispanser qeydiyyata götürülüb. 36092 nəfər sağlamlaşdırılıb, 7389 hospitalizə olunub, 623503 nəfər isə əlavə müayinələrə cəlb olunub. Bura rentgen, laborator, USM və EKQ müayinələri daxildir.

## "Suya qadağanı qoyan yezid olub"- deputat

### Aydın Hüseynov: "Mən çıxışım zamanı şirin suların qorunması barədə danışmışam"

**"Bulaq suyuna hər hansı formada qadağa qoyulmasını deməmişəm. Qanunun müzakirəsi zamanı deputatlar öz fikirlərini ortaya qoymalıdır. Mən də çıxışım zamanı şirin suların qorunması barədə danışmışam".**



Bunu modern.az-a açıqlamasında YAP-çı deputat Aydın Hüseynov Milli Məclisin Aqrar siyasət komitəsinin dünənki iclasında "Əhalinin bulaq suyundan pərakəndə şəkildə istifadəsinə yol vermək olmaz" fikirlərini şərh edərkən deyib.

**Deputat bildirib ki, heç vaxt bulağa qadağa qoymaq düşüncəsində olmayıb:** "Suya qadağanı qoyan yezid olub. Min illərdir ki, onu söyürlər. Mən o düşüncənin sahibi ola bilmərəm. Kənd mühitində böyüyən biri kimi bulaqlardan necə istifadə edilməsini çox yaxşı bilirəm. "Bulağa qadağa qoyaq" sözü heç vaxt beynimdə ola bilməz. Biz hüquqi normativ aktlar qəbul edirik. Normativ akt hüquqi sənəddir. Qanun müzakirəsi zamanı fikirlərimizi ortaya qoyuruq. Meşələrimizi, su hövzələrimizi qoruyuruqsa, bulaqlarımızı da qoruyaq. Su bulaqdan yaranır və ən birinci mənbəyi bulaqdan başlayır. Bulaqlarımızdan istifadə qaydaları, dərələr vasitəsilə tənzimlənməsi çox önəmlidir".

**Aydın Hüseynov bulaq suyundan istifadə qaydalarını da açıqlayıb:**

"Şirin sular bulaqdan yaranır. Bulaqlardan düzgün istifadə edilməsi barədə fikirlərimi bildirmişəm. Bulaq suyundan istifadə edərkən onun dərə ilə axmasına şərait yaratmalıyıq. Bulaq suyu bir daşın, ağacın altından çıxıb dərələr vasitəsilə axır və çaylara qovuşur. Bulaq öz mənbəyindən başqa səmtə götürüləndə dərələr quruyur. Su dərələr vasitəsilə axmalıdır ki, çaylara qovuşa bilsin. Dərələr çayların mənbəyidir. Çaylar dərələrdən yaranır".

**Deputat Aydın Hüseynovun Milli Məclisin Aqrar siyasət komitəsinin iclasında sırağagünkü çıxışı sosial şəbəkələrdə qınağa tuş gəlib.** "Bəzi rayonlarda bulaqların suyu həyətlərə çəkilir. Bunun qarşısının alınması üçün mexanizm hazırlanmalıdır. Qanunlara dəyişikliklər zamanı bu da nəzərə alınmalıdır. Bulaq suyundan istifadənin normaları müəyyənləşməlidir", - deyə o bildirmişdi.




# Daxilimizdə olan mənəvi rezervuarları doldurmaq fürsəti

**Cümə söhbətləri**

**Bismillahir-Rahmənir-Rahim! Allaha həmd olsun ki, bizlərə belə gözəl mənəvi üçaylığa - Rəcəb, Şaban, Ramazan aylarına daxil olmağı nəsib edib. Allahdan istəyimiz budur ki, bu ayın içərisində olan bütün imkanlardan, əmin-amanlıqdan, imandan, salamatlıqdan, İslamdan nə varsa hallarımıza aid etsin!**

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

Allah Təala Rəcəb ayı və Şəban ayında olan bərəkətlərdən layiqincə bəhrələnməyi, mübarək Ramazan ayına ən ali şəkildə daxil olmağı nəsib etsin!

### Dünya bətninin içərisində xüsusi təkamül bətnləri

Rəcəb ayı - gözəl bir aydır. Həsrətində olunmalı bir aydır. Xoş olsun halımıza ki, belə bir ayı tanıyırıq və Allahdan ləyaqət və tutum istəyirik ki, ayın imkanlarından bəhrələnək.

Biz ömrümüzü yaşayırıq və fərqli zamanlarda fərqli-fərqli məsuliyyətlərimiz olur. Vaxt və zaman da - baxmayaraq ki, kəmiyyət baxımından, riyazi baxımından eynidir, səhərin saatı da altmış dəqiqədir, axşamın saatı da altmış dəqiqədir - amma keyfiyyətləri fərqlidir.

Saatın da, zamanın da kəmiyyəti riyazi baxımından eyni olsa da, keyfiyyətinə görə fərqlidir. Cümə gününün zamanı digər günlərdən keyfiyyət baxımından fərqlənir.

Ötən bəhslərimizdə onu da vurğuladıq ki, biz düz yoldan ayrılarkən, xəta edərkən oraya qayıtmaq üçün üç yol var. Əxlaq ustadları tövsiyə edir ki, ən azı üç yoldan istifadə etməklə geri qayıtmaq mümkündür.

Bunlardan biri - zamanın bətninə daxil olmaqdır. Zamanın bətninə daxil olaraq, yaxşı təkamül edərək, yeni bir halda dünyaya gəlmək mümkündür.

Digəri məkan - bətnidir. İnsan üçün xüsusi məkanlar var ki, oraya daxil ola bilər, oranın potensialı var ki, insanı ən aciz haldan ən ali hala qədər yetişdirə bilsin.

Üçüncü isə, mühit bətnidir. Yolundan tam azmış bir insan gəlib, yaxşı mühitə düşüb, böyük təkamül keçə bilər.



### Yalnız bu ömürdə ola biləcək işlər var

Biz hazırda ümumi anlamda ikinci bətndə yaşayırıq. Birincisi - ana bətnində doqquz ay yaşamışıq və dünyaya gəlmişik.

İndi bu dünyada ömür sürürük. Bu həyatımız - ikinci bətndir ki, yaşayırıq.

Bundan sonra, bu dünyada həyatımız sona yetəcək və bundan sonra yenidən dünyaya gələcək, əbədiyyət bətninə daxil olacağıq. Necə ki, bu dünya bətni ana bətnindən üstündür və orada bəlli təkamül keçməliyik ki, buradan daha çox bəhrələnə bilək - əbədi həyat da buradan üstündür, amma gərək burada məlum təkamül keçək ki, orada bəhrələnə bilək.

Necə ki, ana bətnində bəzi işlər var ki, yalnız orada ola bilər - göz, qulaq, barmaqlar, bədənin ən kiçik hissəsinə qədər ana bətnində inkişaf edir, bunların heç biri dünyaya gələndən sonra əmələ gəlmir - eləcə də bu dünyada elə işlər baş verir ki, yalnız bura ilə məhdudlaşır. Məhz buna görə deyirlər ki, dünya - axirətin əkin yeridir. İnsan burada əkmәlidir ki, axirətdə məhsul yığa bilsin.

### Geriyə qayıtmaq üçün variantlar var

Allah Təala bu dünyanın bətninin içərisində də çoxlu xüsusi bətnlər qərar verib. İnsanlar kompüterdə bir proqrama daxil olur. Onun içərisində görür ki, daha üç-beş aktiv proqram da var, onlara da daxil olur. Bəzən adi rejimdə işləyən proqram olur, amma xüsusi ayarlara keçid etmək üçün, yaxud hansısa imtiyazlar əldə etmək üçün istifadəçi daxilindəki növbəti proqramlara yönəldilir.

O cür də biz yolumuzdan ayrılanda, müxtəlif cür geri qayıda bilərik. Burada şəraitlərin ümdə əhəmiyyəti vardır. Misal üçün, hava qaranlıq olanda gec qayıdacağıq, işıq olanda daha tez qayıdarıq, ayaqla gec qayıdarıq, nəqliyyat vasitəsilə daha tez qayıdarıq və s.

Nəqliyyatın növü, zamanın müxtəlifliyi, havanın durumu - bunlar hamısı bizim necə qayıtmağımıza təsir edir. Beləcə də, insanın özünə qayıdışı üçün münbit şəraitlərin həlledici əhəmiyyəti vardır.

İnsan xəta edərkən, yanlış edərkən qayıtmaq istəyir. Allah Təala bu dünya bətninin içərisində çoxlu xüsusi bətnlər qoyub - zaman bətnləri, məkan bətnləri, mühit bətnləri. İnsanın hətta bircə namaza halı düzələ bilər. Əslində belə olmalıdır ki, insanın namazdan öncəki halı ilə namazdan sonrakı halı mütləq fərqlənsin.

### Rəcəb ayında daha çox etdiklərimizə diqqətimiz olsun

Mənəvi üçaylıq - həmin zaman bətnlərindəndir. İnsanlar bir çox hallarda namaza mübarək Ramazan ayında və ya Məhərrəm-Səfər əyyamında gəlir. Ən mühüm zaman bətnlərindən biri - Rəcəb ayıdır. Rəcəb ayında biz hansı vəziyyətdə olmağımızdan asılı olmayaq bu zaman bətninə daxil olsaq, təkamül edərik.

Böyük əxlaq ustadlarından olan Ustad Fatiminiya cənabları buyurur: "Rəcəb ayı çox fəzilətli aydır. Təbii ki, bu ayın mütəhəib əməlləri yaxşıdır. Amma əsası batini - xüsusi diqqət, təmərküzləşmə, təvəccödür. Biz gərək bu əməllərin və duaların batininə gərək təvəccö, diqqət edək.

Bu aya əsəb də deyirlər, yəni İlahi rəhmətin tökülüm ayı. Bu ayda ən əsas iş - istiğfardır".

By ayın çox əməlləri var. Oruc tövsiyə olunur, zikrlər buyurulur, dualar, istiğfarlar, namazlar, əməllər tövsiyə edilir. Amma ən mühüm məsələ budur ki, bizlər bunların nə üçün olduğuna diqqət edək. Misal üçün, Həzrət Rəsulallahdan (s) buyurulan duada Allahdan bu ayda əmin-amanlıq, iman, salamatlıq istənilir. Biri var ki, biz bunları deyib keçək. Biri də var ki, bunlar barədə düşünək.

Həqiqi əmin-amanlıq nədir? Həqiqi əmin-amanlıq budur ki, insan aqibəti baxımından əmin-amanlıq vəziyyətinə düşsün. Bu ayın içərisində imkan və fürsət var ki, bizim aqibətimiz əmin-amanlı bir vəziyyətə düşsün. İmanımız inkişaf edə bilər, aqibət baxımından salamat vəziyyətə gələ bilərik, həyatımızda İslamın ruhu yaşaya bilər.

Bir var ki, duanı oxuyaq, amma mənasına fikir və önəm verməyək. Tövbəni dildə deyək, amma qəlbən tövbə, peşmançılıq, qayıtmaq hissini yaşamayaq. Bir də var ki, bunlara diqqət edərək, həyata keçirmiş olaq. Hətta oruc tutanda belə, nə üçün etdiyimizə önəm verməliyik. Əks təqdirdə, orucumuz aclıq və susuzluqdan başqa bir şey olmayacaq. Buna görə də, bizim bu ayda etdiyimiz əməllərə qəlbən təvəccömüz, diqqətimiz olmalıdır.

### Rəcəb ayı - Ramazan ayına hazırlıq ayıdır

**Başqa bir yerdə bu əziz alim buyurur:** "Rəcəb ayı - İlahi ziyafətə hazırlıq ayıdır. Hədislərdə var ki, Rəcəb və Şəban - bulaq kimidirlər. İnsanlar Ramazan ayı öncəsi özlərini gərək yuyalar. İnsan gərək Allah ziyafətinə özünü hazırlasın. Bu istiğfar və bağışlama diləmə - çox mühümdür. Əlbəttə, bu istiğfar və bağışlama diləmə gərək elə-belə olmaya. Gərək həqiqətən ürəkdən olsun".

Biz diqqət etməliyik ki, qarşıda bir mənəvi ziyafətə dəvətliyik. Gərək bu mənəvi ziyafətə hazırlığımız olsun. Misal üçün, bir insandır, üç aydan sonra bir təlimə dəvətlidir, o təlimdə ona mühüm praktik məsələləri müəyyən dildə keçəcəklər. Düşüncəli adam dil öyrənməni həmin təlimə saxlamaz, ora gedənə qədər nə qədər bacarırsa, çox dil öyrənər ki, o təlimdən maksimum fayda götürsün.

Rəcəb və Şəban ayları - bu anlamda məşq aylarıdır. Bu aylarda Allahla ünsiyyətdə olmağı, Quranla təması, tövbə etməni, gecələrdən bir hissəni Allahla ünsiyyətə ayırmanı, boş-boş, mənasız işlərdən uzaq olmağı məşq etməliyik.

### Qəlblərin təmizlənməsi ayı

**Ayətullah Cavadi Amuli cənabları buyurur:** "Həzrət İmam Baqirdən (ə) nəql edilir: "Heç bir sağlamlıq və salamatlıq, qəlbin sağlamlığı və salamatlığı kimi deyil". İnsan bir Allah bəndəsi ola bilən "heyy"dir, diridir. İnsan o diri varlıqdır ki, Allah bəndəliyi istiqamətində iradəvi təkamül edə bilir.

Əgər insanın qəlbi salamat olsa, o halda özünü kontrol edər. Qəlb ona görə qəlb adlandırılıb ki, qəlbin zati xüsusiyyəti dəyişmədir. Biz əgər onu yumşaltmaq və yerinə qoymaq istəsək, bunun bir üsulu var - səbir. Bizim Rəcəb ayında edə biləcəyimiz mühüm birinci işimiz - Allahdan bizim tutumlarımızı böyütməsini istəməkdir. Sonra Allahdan o tutumun məzmununu və tərkibini istəyək".

Biz çox vaxt qəlbi salamatlıq deyil, başqa sağlamlıq və salamatlıqların ardıncayıq. Vaxtaşırı gedirik, yoxlanırıq və s. Amma bizim həyatımızda ən mühüm mövzu - qəlbimizin sağlamlığıdır. Əxlaq ustadı insanın tərifini ənənəvi tərifdən fərqli verir.

Biz insana necə baxsaq, o cür də olur. Bir var ki, biz insana bir bioloji varlıq olaraq baxaq. Bu zaman onun yalnız bioloji məsələlərinə diqqət olunacaq. Amma insana bir təkamül edə bilən varlıq kimi baxsaq, onun qəlbinin sağlamlığına önəm verərik. İnsanın qəlbi daim dəyişir, haldan-hala keçir. Qəlbi genişlənmə, yumşalma prosesində bir mühüm silah var ki, o da səbirdir. Burada səbrin bütün növlərini aid etmək olar - itaətdə səbir, günah müqabilində səbir, müsibətlər qarşısında səbir.

Biz hər dəfə səbirsizlik edəndə, itaətdə davamiyyətimiz olmur, günah qarşısında dayanıqlığımız olmur, müsibət qarşısında dözümsüzlük edirik. Belə olduqda, tənəzzül edirik, yenidən reqress duruma qayıdırıq.

Amma əgər qəlbimiz yerində olsa, bütün varlığımızı kontrol edər. Rəcəb ayında qəlblərin yumşalması, qaydaya düşməsi üçün xüsusi fürsətlər var. Necə ki, bahar aylarında bəlli xəstəliklər aradan gedir, eləcə də bu mənəvi üçaylığın mənəvi xəstəlikləri daha effektiv şəkildə aradan aparmaq xüsusiyyəti var.

### Bu ayda əsas olaraq, geniş tutum istəyək

Biz Rəcəb ayında Allahdan ilk öncə tutumlarımızın böyüməsini istəməliyik. Tutumumuz kiçik olanda, işimiz çətin olur. Allahdan bir şeylər istəyə bilərik ki, onu qəbul etməyə tutumumuz olmaz. Biz istəyirik ki, gündə bəlli əməlləri həyata keçirək. Nəyə görə onları edə bilmirik? Çünki, onları həyata keçirə biləcək tutumumuz yoxdur. Bəzən biz istəyirik ki, bəlli proqramla hərəkət edək, amma buna uyğun tutumumuz olmur.

Rəcəb ayında insanın tutumunun artması baş verə bilər. Birinin telefonu qədimidir. Nə qədər faydalı proqramlar yükləmək istəsə də, telefonunun tutumu buna imkan vermir. Gərək bunun üçün tutumu artsın.

Amma bəzən hətta ən yeni telefona o qədər lazımsız şeylər yüklənmiş olur ki, riyazi baxımdan kifayət edən tutumla belə, faydalı materialları yerləşdirmək olmur. Gərək insan ilk öncə orada təmizlik işləri aparsın.

Gərək biz öz tutumumuzu lazımsız məsələlərdən təmizləyək ki, oraya qəlbimiz üçün faydalı olanları yükləyə bilək. Yalnız bu halda tutumlarımızın genişlənməsi baş tuta bilər. Əks təqdirdə, tutumumuz nə qədər artsa da, o qədər onun yerini lazımsız məsələlər tutmuş olacaq. Ona görə də Rəcəb ayında Allahdan ilk öncə tutum, sonra isə ona uyğun tərkib və məzmun istəməliyik. Əgər uyğun tutum olmasa, Allahdan elə şeylər istəyərik ki, verəndə çaş-baş qalarıq ki, bunlarla nə edək? Odur ki, bu 2 nöqtəyə xüsusi diqqət etməliyik.

**Allahım, bizlərə bu mübarək ayda ali ruhiyyəyə malik olmağı nəsib et!**

**Allahım, bu ayda tutumlarımızı artırmağı bizlərə nəsib et!**

**Allahım, tutumlarımıza uyğun bəyəndiyin hal və ruhiyyəyə malik olmağı əta et! Amin!**

YENİ MÜSAVAT

Son səhifə

N 59 (7229) 15 mart 2019



## Evlənəcəyi gün gəlin paltarında həbs etdilər

Amerikanın Arizona ştatında Amber Young adlı qadın evlənəcəyi gün saxlanıldı. 32 yaşındakı Young toyuna gedərkən maşını ilə üç fərqli maşının daxil olduğu bir qəzaya qarışdı. Gəlin paltarı geyinən gənc qadın qəzadan sonra polislər tərəfindən içkili halda maşın sürdüyü ittihamı ilə qandallanaraq polis maşınına mindirildi. Bu günə qədər toy günü həbs edilən gəlinlər çox olub. 2013-cü ildə Rusiyada toy günü qonşusu ilə dalaşıb, onu yaralayan gənc bir qadın həbs edilmişdi. Kilsə mərasimində içəri daxil olan polislər gəlini qandallayaraq həbs etmişdilər. Qonşusunun xəstəxanada ondan şikayət etməsi nəticəsində qadın 5 il müddətinə azadlıqdan məhrum edilmişdi.



## Milyardları onu xoşbəxt etmir

İnternetdə ən çox yüklənən və lider oyun Minecraftın yaradıcı Markus Person zənginliyin hər zaman xoşbəxtlik gətirmədiyini iddia edib. 37 yaşlı dollar milyarderi "İstədiyin hər şeyə sahib olmağın ən pis tərəfi, yeni şeylər üçün çapalamamaqdır" deyə, yazıb. Bu statusu paylaşdıqdan bir neçə saat sonra "İbizada şənlik təşkil etmişəm. Bir çox dostum və məşhur insanlarla birlikdə əylənirəm. Buna baxmayaraq, mən heç vaxt özümü bu qədər tək hiss etməmişdim" deyə, yazıb. 100 milyondan çox satın alınan oyunu Micrasofta satan Person "Çox gözəl bir qızla tanış olmuşdum, lakin həyat tərzimdən qorxdu. Yerimə normal birini sevdi" deyə yazıb. Minecraft oyununu 2,5 milyard dollara satan Personun yazdığı statuslar sosial mediada hər kəsin diqqət mərkəzindədir.

# Qadın soyuğa qarşı allergiya xəstəliyinə tutuldu



Amerikanın Klivlend şəhər sakini soyuğa qarşı təhlükəli allergiya ilə xəstələnib. Bu barəd "The Mirror" nəşri xəbər verir. Öncə 26 yaşlı Alişa Makintayrın dərisində qızartı yaranıb. Buna səbəb onun xəstəlik zamanı qəbul etdiyi dərmanlar olub. Buna baxmayaraq, bir kurs allergiya müalicəsindən sonra bu qızartı yekunlaşmayıb. Qız xəstəxanaya müraciət edib, ona soyuğa qarşı güclü allergiya diaqnozu qoyulub, eləcə də bəzi preparatların qəbulu məsləhət görülüb. O, gün ərzində iki dəfə dərman qəbul edir. Belə ki, tabletlər də müəyyən müddətə simptomları aradan götürür. Həkimin sözlərinə görə, bu xəstəlik anafilaktik şok yarada bilər. Bu da ciddi fəsadlarla nəticələnəcək kimi görünür.

## Təyyarəyə buraxılmayan it öldü

Öz sahibi ilə "United Airlines" reysi ilə Hyustondan Nyu Yorka uçan it təyyarənin baqaj hissəsində ölüb. İti ora yerləşdirməyi stüardessa tələb edib. Aviakampaniya bəyan edib ki, baş vermiş hadisənin məsuliyyətini öz üzərinə götürür. Bununla yanaşı, qeyd edib ki, heyvanları əl baqajlarının qoyulduğu yerdə yerləşdirmək olmaz. "Bu, baş verməməli olan faciəvi hadisə idi". Bunu da "United Airlines" şirkətində qeyd ediblər. Sərnişinlər isə qeyd ediblər ki, uçuş zamanı itin hürmə səslərini eşidiblər və onun ölümü barədə məlumatlı olmayıblar. Ta ki, təyyarə aeroporta enənə qədər. "United Airlines" şirkətində isə insidenti araşdırmağa və stüardessanı cəzalandırmağa söz veriblər.

Nəşr eyni zamanda açıqlayıb ki, 2017-ci ildə Amerika hava yollarında heyvanlarla bağlı 24 ölüm və yaralanma hadisəsi qeydə alınıb. Bu olaylardan 18-i "United Airlines" şirkəti ilə bağlı olub. Aviakompaniyada bəyan ediblər ki, bu heyvanlardan bəziləri təbii səbəblərdən, digərləri isə müəyyən zədələr nəticəsində ölüblər.





## Süni mayalanma ilə hamilə qaldı, uşağı bəyənmədi və məhkəməyə getdi

Süni mayalanma yolu ilə uşaq dünyaya gətirən qadın dünyaya gətirdiyi uşağı bəyənmədiyi üçün məhkəməyə müraciət edib. Amerikada yaşayan Cenifer Kramblet adlı qadın süni mayalanma yolu ilə hamilə qalıb. Ağ dərili olan qadın özü kimi ağ dərili, mavi gözlü uşağa sahib olmaq üçün xəstəxanaya müraciət edib. Lakin xəstəxanada qarışıqlıq yarandığı üçün qadın uşağı dünyaya gətirdiyi zaman onun qara dərili olduğunu görüb. Anası hazırda 3 yaşı olan qızını çox sevsə də, qızı qara dərili olduğu üçün xəstəxananı məhkəməyə verib. Ana ağdərili insanların əhatəsində yaşadığı üçün qızının gələcəkdə özünü pis hiss etməsindən qorxur. Afro-amerikalı görünüşünə malik olan balaca qızın ailəsi onu ətrafdakı hər kəsdən qorumaq və onu gələcəkdə daha yaxşı yaşatmaq üçün xəstəxanadan təzminat alacağını deyir.




**QOÇ** - Astroloji göstəricilər qismən gərgin gün yaşayacağınızı bəyan edir. Hər hansı mübahisəyə, riskli iş və sövdələşmələrə "yox" deməlisiniz. Xətakar insanlardan uzaq olun.

**BUĞA** - Ağıllı addımlarınız ətrafda hər şeyin xeyrinizə dəyişəcəyinə təkan verməkdədir. Bu isə gün ərzində fəaliyyətlə bağlı uğurlarınızın start götürməsinə imkan yaradacaq.

**ƏKİZLƏR** - Yaxşı olar ki, bütün vacib işlərinizi bu gün başa çatdırasınız. Ən azı ona görə ki, sonrakı günlərdə buna imkan tapmayacaqsınız. Özünüzü hər addımda bədxahlardan qorumağa çalışın.

**XƏRÇƏNG** - Sutka ərzində bürcünüzdə bərqərar olan Ay sizə ümumi gərginlik vəd edir. Bu isə hər addımda daha da ehtiyatlı davranmağınızı tələb edir. Yeni təkliflərə razılıq verməyin.

**ŞİR** - Qarşınızda duran vəzifələrin öhdəsindən məsuliyyətlə gəlməyə çalışın. İndi nüfuzunuzu artırmaq üçün imkanlarınız genişdir. İşdən sonra yaxınlıqda yaşayan ünvanlara qonaq getmək olar.

**QIZ** - Bu gün özünüzü olduqca ciddi aparmalısınız. Çünki istənilən xırda zarafat münaqişəyə səbəb ola bilər. İmkanlı adamlar vasitəsilə problemlərinizi aradan qaldırmağa çalışın.

**TƏRƏZİ** - Əgər maddi vəziyyətiniz imkan vermirsə, uzaq yola çıxmaq planınızı təxirə salın. Yoxsa səfər boyu gərginlik sizdən əl çəkməyəcək. Şəxsi büdcənizin qayğısına qalmağa çalışın.

**ƏQRƏB** - Daxili gərginliyiniz günorta saatlarından etibarən aradan qalxmağa başlayacaq. Bu isə nəzərdə tutduğunuz planların icrasını sürətləndirəcək. Amma sözünüzün ağası olmağı da bacarın.

**OXATAN** - Ümumi ovqatınız yüksək olduğundan xırda gərginliklər gözünüzə görünməyəcək. Amma mistik düşüncələrə də qapılmaq olmaz. Başınızın üstündə yalnız Tanrı qüdrətini hiss edin.

**OĞLAQ** - Astroloji göstəricilərə görə, qarşınızda anlaşılmaz bir gün dayanıb. Odur ki, bu tarixdə qeyri-ənənəvi işlərə aludə olmamalı, sabitliyinizi təmin etməlisiniz. Səhhətinizi qoruyun.

**SUTÖKƏN** - Naharaqədərki süstlüyünüzü nəzərə almasaq, qalan müddətdə işləriniz qaydasında gedəcək. İndi siz puldan daha çox münasibətləri tənzimləməyə səy göstərməlisiniz. Digər işlər düzələndir.

**BALIQLAR** - Bəxtinizə təzadlı gün çıxıb. Belə ki, nahara qədər qarşılaşacağınız uğurlar sonrakı müddətdə tamamilə əks istiqamətə yönələ bilər. Odur ki, yalnız günün birinci yarısında aktiv olmalısınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## İnsan əgər səbəbsiz arıqlayırsa... bu, xərçəngin simptomu ola bilər

Bəzən insanlar istəmədən və bunun üçün heç bir cəhd etmədən (pəhriz, idman və s.) arıqlamağa başlayır. Bir çox hallarda belə arıqlama çox tez gedir, insan sanki "əriyir". Bu, çox təhlükəli haldır. Belə kəskin arıqlama bir çox ağır xəstəliklərin əlaməti ola bilər. Bədən çəkisinin kəskin azalması onkoloji (xərçəng) xəstəliyin əlaməti ola bilər. Xüsusilə belə kəskin arıqlama mədə-bağırsaq sistemi, mədəaltı vəzi və qaraciyərin onkoloji xəstəlikləri zamanı baş verir. Buna "kaxeksiya" deyilir. Arıqlama xərçəngin ilk görünən simptomu kimi meydana çıxa bilər.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.755